www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28-29 yanvar 2017-ci il şənbə № 19 (6633) Qiyməti 60 qəpik

**Xəbər**

**Dollar manatın "nəfəsini kəsir"- Elman Rüstəmov bankirləri topladı**

yazısı səh.12-də

**Gündəm**

**4 ay ərzində ölkədə 5 terrorçu öldürülüb-təhlükə bu qədərmi yaxın?**



**Arzu Nağıyev:** "Terrorçunun məhv edilməsi praktikası daha düzgün taktikadır"

yazısı səh.3-də

**Qarabağda birgəyaşayışın mümkünlük "test"i**

yazısı səh.11-də

**"Dəyanətin son bir neçə ili xəyanətlər içində keçdi" - intihar edən psixoloqun anası danışdı**

yazısı səh.5-də

**"AŞPA-da korrupsiyaya qarşı komissiyanın yaradılması ermənipərəst deputatları pis vəziyyətə salacaq"**

yazısı səh.7-də

**"Baş mühasib deyirdi ki, görülən işlər Vidadi Zeynalovun göstərişidir"**

yazısı səh.5-də

**İsrail İrana qarşı açıq siyasətə başlayır - Azərbaycanın maraqlarına təhlükə varmı...**

yazısı səh.7-də

**Britaniya baş naziri Trampı dəyişə biləcəkmi...**

yazısı səh.9-da

**Həcc xərci 8 min manat oldu - Azərbaycandan cəmi 600 nəfər gedəcək...**

yazısı səh.12-də

*Rəşad Həsənov:*
**"Məcburi köçkünlərin sayğacları sökməsini, bu qərara etiraz etməsini doğru saymıram"**

yazısı səh.13-də

**Qar yağacaq, yollar buz bağlayacaq - DYP sürücülərə xəbərdarlıq etdi**

yazısı səh.14-də

## "Üçlü vətəndaşlığı" olan cinayətkarın işində kritik gəlişmə

# İRƏVAN VƏ HAVADARLARI ŞOKDA - BAKIDAN PRİNSİPİAL QƏRAR...

Lapşinin Azərbaycana verilməsi qətiləşir - yəhudi blogger ekstradisiyanın bir addımlığındadır; İsrailin nüfuzlu nəşri cinayətkarın Bakıya gətirilməsi üçün artıq Minskə təyyarə göndərdildiyini də yazıb; sayılı günlər qalır...



yazısı səh.8-də

# Məktəbinə "Yoxlama" gələn direktor öldü

Vəfat edən məktəb rəhbərinin qızı danışdı: "Atamın ölümündə günahkar aparıcı Azər İsmayılovdur, onu məhkəməyə verəcəyik"; ATV açıqlama yaydı: "Bizə irad bildirilməyib"

yazısı səh.6-da



Ramil Usubov

**Nazir münaqişəli ailələrin qeydiyyatı ilə bağlı göstəriş verdi**

yazısı səh.5-də



*Mənsum İbrahimov:*
**"Mənim 10 Leylim olub"**

yazısı səh.10-da



*Yeganə Hacıyeva:*
**"55 partiyanın qeydiyyatdan keçdiyi, müxalifətin olduğu ölkəni necə diktatura adlandırmaq olar?"**

yazısı səh.4-də




## "Hesab etmirəm ki, dollar 2,5 manat olacaq"

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov tam üzən məzənnəyə keçiddən sonra 1 dolların 2 manat 50 qəpik ola biləcəyinə dair yayılan məlumatlara münasibət bildirib.**

Elman Rüstəmov unikal.org-a eksklüziv açıqlamasında deyib ki, bu gün dolların manata nisbəti üzən məzənnə ilə müəyyən edilir: "Amma mən 1 dolların 2 manat 50 qəpik olmasını proqnozlaşdırmıram. Yəni bu barədə yayılan məlumatlar həqiqətə uyğun deyil. Hesab etmirəm ki, dollar 2 manat 50 qəpik olacaq".

E.Rüstəmov həmçinin bildirib ki, bu gün dolların məzənnəsi təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrinin milli valyutasına nisbətdə bahalaşıb.



## Piyadalara qarşı cərimə artırılır - 20-dən 100 manata

**Azərbaycanda bəzi piyadalara qarşı cərimələr daha da sərtləşdirilir. Musavat.com-un Avtosfer.az-a istinadən məlumatına görə, piyadaların yol verdiyi qayda pozuntularının hamısı artıq eyni cəza ilə bitməyəcək. Belə ki, daha təhlükəli qayda pozuntusuna yol verən piyadaların cəriməsi də ağır olacaq.**

Ötən ilin sonlarında yollardakı dəmir və beton arakəsmlərin üzərindən keçib yolun hərəkət hissəsinə çıxan piyadaların həbs olunması ilə bağlı Milli Məclisə göndərilən qanun layihəsi dəyişdirilib. Sayt yazır ki, layihənin ilkin variantında beton və dəmir arakəsmələrin üzərindən tullanıb yolu keçənlərin 15 günədək inzibati həbs cəzası ilə cəzalandırılması təklif olunurdu. Lakin bu təklif məqbul sayılmadığı üçün başqa cərimənin tətbiq edilməsi istənilir. Belə ki, həmin qayda pozuntusuna görə piyadalar həbs olunmayacaq. Onlar 100 manat məbləğində cərimə ediləcəklər.

Layihənin Milli Məclisə göndərildiyi və yaz sessiyasında müzakirə olunacağı gözlənilir.

Qeyd edək ki, son vaxtlar yol qəzalarının sayında artım müşahidə olunur. Ölümlə nəticələnən qəzaların yarıdan çoxunu piyadavurmalar təşkil edir. Təkcə Bakı şəhərində ümumi yol qəzalarının 60 faizə yaxını piyadavurmalarla bağlıdır.

**Hazırda İnzibati Xətalar Məcəlləsində piyadalara qarşı 4 maddə ilə inzibati protokol tərtib olunur. Onların da hər birinin cəriməsi 20 manatdır.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Azay Quliyev QHT-ləri daha innovativ və səmərli fəaliyyətə çağırdı

### QHT Şurası 2016-cı ildəki fəaliyyətinə dair hesabat konfransı keçirdi



**Yanvarın 27-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2016-cı ildəki fəaliyyətinin yekunları ilə bağlı hesabat konfransı keçirib. Toplantıda çıxış edən Şura sədri, millət vəkili Azay Quliyev şəffaflıq və hesabatlılığın rəhbərlik etdiyi qurumun ən vacib prinsiplərindən olduğunu vurğulayıb:**

"Şura kollegial orqan olaraq bu gün 2016-cı ildəki fəaliyyətinə dair ictimaiyyət qarşısında geniş hesabatla çıxış edir. Ötən il Şura QHT-lərin 556 layihəsinin maliyyələşdirilməsinə 5 369 535 manat vəsait ayırıb. Bu layihələrin icrasına 2018 nəfər işçi cəlb olunub. 45 televiziya verilişi, 29 sosial çarx, 25 film çəkilib, 23 sayt yaradılıb. Maliyyələşən layihələr üzrə ölkənin 54 şəhər və rayonlarında müxtəlif tədbirlər həyata keçirilib".

A.Quliyev ötən il Şuranın həyatındakı mühüm hadisələrdən biri kimi qurumun üzvlüyünə ixtisaslaşmış 8 QHT qrupunda keçirilən seçkilərdə iştirak edən 43 namizəddən 24 nəfərin qalib olduğunu bildirib.

A.Quliyev 2016-cı ildə QHT sektorunun üzləşdiyi problemlərin həlli istiqamətində Şuranın yaratdığı institusional mexanizmlərin effektiv fəaliyyət göstərdiyini deyib.

Şura sədri qeyd edib ki, Azərbaycan ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi haqqında cənab prezident İlham Əliyevin 21 oktyabr 2016-cı ildə imzaladığı fərmanında bu sahə üçün mühüm əhəmiyyət kəsb edən bir sıra ciddi və əhəmiyyətli dəyişikliklər əksini tapıb. A.Quliyev QHT-lərin fəaliyyət imkanlarının stimullaşdırılması baxımından böyük önəm kəsb edən bu fərmana görə QHT sektoru adından cənab prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

A.Quliyev həmçinin Şura Katibliyi ilə QHT-lər arasında təmasın minimuma endirilməsi üçün təsviri və maliyyə hesabatlarının razılaşdırılmasının və qəbulunun tam şəkildə elektron qaydada aparılmasına başlandığını da deyib.

Şura sədri rəhbərlik etdiyi qurumun tətbiq etdiyi yeniliklərdən danışaraq qeyd edib ki, QHT-lərin ərizə, təklif və şikayətlərinin qəbulu üçün yeni xidmət (daxili nəzarət və qiymətləndirmə) və çağrı mərkəzinin yaradıldığını da vurğulayıb.

Şura sədri dövlət büdcəsindən 2017-ci ildə Şuraya ayrılan vəsaitin ötən ilə nisbətən 1 600 000 manat azalmasının müəyyən çətinlik yarada biləcəyini qeyd edərək QHT-ləri daha innovativ və səmərli fəaliyyətə çağırıb.

Azay Quliyev qrant layihələri ilə bağlı QHT-lər arasında şəbəkələşmənin və sövdələşmələrin aşkarlanması üçün də ciddi araşdırmaların başlandığını deyib.

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov 2016-cı ildə QHT-lərə dövlət dəstəyinin istiqamətlərinə uyğun olaraq görülən işlər, Şuranın həyata keçirdiyi tədbir və müsabiqələr, dövlət proqramlarının icrası çərçivəsində həyata keçirilən işlər, layihələrin idarə olunması və monitorinqlərin təşkili, beynəlxalq əlaqələr, çap məhsulları, elektron resurslar, monitorinqlər zamanı aşkarlanan problemlər və onların həlli istiqamətində atılmış addımlar, layihələr üzrə ən yaxşı nümunələr və yeni hədəflər barədə geniş məruzə ilə çıxış edib. Fərasət Qurbanov Şura Katibliyinin icra olunan layihələrin 326-sını yaxşı, 80-ni əla, 75-ni kafi, 12-sini isə qeyri-kafi qiymətləndirdiyini deyib.

## Təhsil Nazirliyindən Macarıstanda təhsillə bağlı xidmət göstərən şirkətlər barədə açıqlama

**Təhsil Nazirliyi xaricdə təhsil xidmətləri göstərən şirkətlər barədə açıqlama yayıb.**

Nazirlikdən APA-ya verilən xəbərə görə, vətəndaşların diqqətinə çatdırılır ki, Təhsil Nazirliyi 11 noyabr 2014-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 2015-2017-ci illər üzrə İş Proqramı" çərçivəsində Macarıstanda bu ölkənin büdcəsi hesabına təhsillə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə heç bir məsuliyyət daşımır.

"Bundan əlavə, bildiririk ki, iddiaçılara hər hansı şirkət və ya şəxs tərəfindən verilən vəd seçim zamanı heç bir rol oynamır və belə hallarla rastlaşdığınız təqdirdə nazirliyin "Qaynar xətt" xidmətinə (146) məlumat verməyiniz xahiş edilir.

Müxtəlif mətbuat orqanlarında və sosial şəbəkələrdə təqaüd proqramı ilə bağlı məlumatların yayılmasını nəzərə alaraq, Macarıstanda ali təhsil almaq niyyətində olan şagird və tələbələrimizə, onların valideynlərinə əsas məlumat mənbəyi kimi Təhsil Nazirliyinin internet səhifəsinə istinad etmələri tövsiyə olunur", - deyə açıqlamada bildirilir.

## BŞİH-in baş mühasibinə qarşı 505 min dollarlıq dələduzluğun sensasion təfərrüatları



**Bakı Şəhər İcra Hakimiyyətinin sabiq baş mühasibi vəzifəsində çalışmış Tamara Həmidovanın 505 min dolları dələduzluq yolu ilə ələ keçirilib. "Yeni Müsavat"a daxil olan məlumata görə Gündüz Bağırov və Çingiz Təndirov 2013-cü ildə T.Həmidova ilə ortaq tanışları vasitəsi ilə tanış olublar. Onlar qadını inandırıblar ki, Birləşmiş Ərəb Əmirliklərində böyük bizneslə məşğuldurlar. Əllərindəki milyonlarla pulu biznesə yatırıblar, dövriyəni böyütmək üçün onlara əlavə vəsait lazımdır.**

Belədə sabiq baş mühasibdən biznesə yatırmaq üçün pul istəyiblər. Bu yolla T.Həmidovadan 2013-2014-cü illər ərzində ümumilikdə 505 min dollar pul alıblar və ona hər ay faiz verəcəklərini vəd ediblər. İlkin dövrlərdə sabiq baş mühasibə faizlər verilsə də, sonradan proses dayandırılıb. T.Həmidova bir neçə müraciətdən sonra ona pulu verməkdən imtina ediblər. Deyiblər ki, hara istəsə şikayət edə bilər. Aldığımız məlumatda bildirilir ki, T.Həmidova faziləri deyil, əsas məbləği almaq üçün çabalar göstərsə də, buna da nail ola bilməyib. Məlumata görə qadının "MTN çetesi" ilə əlaqəli olan şəxslər tərəfindən dələduzluğa məruz qalıb. Bildirilir ki, "MTN çete"si ifşa olunduqdan sonra T.Həmidova davamlı olaraq Prezident Adminstarasiyasına, hüquq mühafizə orqnalarına şikayətlər edib. Məsələ ilə bağlı Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmətdən sorğumuza cavab veriləcəyini bildirdilər.

❑ E.MƏMMƏDƏLİYEV

## 15 nəfərin ölümünə səbəb olanlara hökm oxundu

**Binəqədidə 15 nəfərin ölümünə səbəb olan yanğın hadisəsinə görə təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub.

Məhkəmənin qərarı ilə yanğın zamanı 15 nəfərin öldüyü binanı poliuretan materialla üzləyən "Qlobal Stone" və "Global Construction" şirkətlərinin təsisçisi Miryusif Mahmudov 8 il müddətinə azadlıqdan məhrum edilib.

Ondan başqa, həbs edilən şəxslərdən "Global Construction" MMC-nin idarə heyətinin sədr müavini Ələkbər Əsgərov 4 il, Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri olmuş Ədalət Rəcəbov 4 il, 72 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Nizami Orucov 3 il 6 ay, "Global Stone" MMC-nin baş direktoru olmuş Uğur Bəşirov 5 il, Binəqədi Rayon İcrah Hakiyyətinin başçısının müavini olmuş Qəzənfər Novruzov 4 il müddətinə azadlıqdan məhrum edilib.

Digər təqsirləndirilən, istintaq müddətində ev dustaqlığında olan Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov 2 il sınaq müddəti olmaqla cəza rəyin edilib.

İstintaq zamanı digər təqsirləndirilən şəxs "Dərnəgül Boru Zavodu" Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri olmuş Ağacavad Məmmədov 2 barəsində sınaq müddəti olmaqla cəza təyin edilib.

Məhkəmə yekun qərarda dövlətə dəymiş zərərin ödənilməsini də təmin edib.

Belə ki, dövlət ittihamçısı təqsirləndirilən şəxslərin əmlakının müsadirə olunmasını tələb etməsə də, məhkəmə öz təşəbbüsü ilə dövlətə dəyən 8,7 milyon manatlıq ziyanın qarşılığında həmin şəxslərin əmlaklarının müsadirə olunması haqda qərar çıxarıb.

Zərərçəkmişlərin mülki iddiaları isə baxılmamış saxlanılıb. Məhkəmə həmin iddiaların aidiyyəti üzrə rayon məhkəmələrinə göndərilməli olduğunu elan edib.

Məhkəmənin qərarı ilə, Uğur Bəşirovun atasından qalan ev, M.Mahmudovun torpaq sahələri, mənzilləri və digər təqsirləndirilənlərin əmlakları müsadirə olunub.

**İbtidai istintaq zamanı bu şəxslərin əmlaklarına həbs qoyulsa da, dəyəri müəyyən olunmayıb.**

❑ İlkin MURADOV

# 4 ay ərzində ölkədə 5 terrorçu öldürülüb - təhlükə yaxındamı?

## Arzu Nağıyev: "Terrorçunun məhv edilməsi praktikası daha düzgün taktikadır"

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) əməkdaşlarının həyata keçirdiyi xüsusi əməliyyat zamanı Azərbaycan vətəndaşı Ocaqov Ceyhun İslam oğlu məhv edilib. Yada salaq ki, DTX-nın son aylarda həyata keçirdiyi oxşar əməliyyatlar zamanı ümumilikdə 5 nəfər məhv edilib.**

Ötən il oktyabrın 26-da Qaradağ rayonu, Ələt qəsəbəsində "Ömər" ləqəbli A.Quliyev zərərsizləşdirilib. Belə ki, DTX əməkdaşları terrorçuluq fəaliyyətində şübhəli bilinən 21 yaşlı A.Quliyevin hərəkətdə olan Bakı-İstanbul avtobusunda olmasını müəyyən ediblər. Əməliyyatçılar A.Quliyevi və digər iki şəxsi - F.Rüstəmova və A.Gülməmmədova avtobusdan endirmək istəyərkən "Ömər" üzərində olan əl qumbarasını partlatmaqla müqavimət göstərməyə çalışıb. Həmin vaxt özü də daxil olmaqla yanında olan digər iki şəxsdən biri öldürülmüş, digəri isə yaralı şəkildə ələ keçirilmişdi.

Yayılan rəsmi məlumatlarda bildirilirdi ki, dəstə üzvləri Azərbaycan ərazisində terror aktları və silahlı basqınlar törətməyi planlaşdırıblar.

DTX-nın digər əməliyyatı isə 2016-cı il noyabrın 25-də Xaçmaz rayonunun Düztahiroba kəndində həyata keçirilib. Yayılan rəsmi məlumatda bildirilirdi ki, terrorçu təşkilat tabeliyində "camaatın əmiri" kimi fəaliyyət göstərərək, cinayətkar təşkilatın üzvlərinin gizli yığıncaqlarını və əlaqələndirilməsini təşkil etməkdə şübhəli bilinən Azərbaycan vətəndaşı, 1974-cü il təvəllüdlü Rəhimov Ramiq Nazir oğlunun qanunsuz olaraq odlu silah və partlayıcı vasitələr əldə edib həmin təşkilatın terrorçuluq məqsədləri və insanların oğurlanması planları barədə daxil olmuş məlumat əsasında DTX tərəfindən kompleks əməliyyat-axtarış tədbirləri tətbiq olunub.

Təxirəsalınmaz əks tədbirlərin görülməsi zərurəti ilə əlaqədar R.Rəhimovun Düztahiroba kəndində tərkisilah olunması və cinayət məsuliyyətinə cəlb edilməsi üzrə keçirilən əməliyyat tədbirləri zamanı, sonuncu təslim olmaq barədə qanuni tələblərə tabe olmayaraq odlu silahdan atəş açıb silahlı müqavimət göstərilib. Əməliyyat qrupu tərəfindən cavab tədbiri olaraq xidməti silahdan istifadə edilməklə R.Rəhimov məhv edilib.

2016-cı il dekabrın əvvəlində DTX-nın həyata keçirdiyi digər əməliyyat-axtarış tədbirləri nəticəsində daha bir terrorçu məhv edilib. Rəsmi məlumata görə, 1978-ci il təvəllüdlü Azərbaycan vətəndaşı, 2007-ci ildə zərərsizləşdirilmiş "Əbu Cəfər" ləqəbli Naif əl-Bədəvinin rəhbərlik etdiyi terrorçu təşkilatın tərkibində fəaliyyət göstərdiyinə görə məhkum olunmuş Cami Emin Əzizağa oğlunun odlu silahdan və partlayıcı qurğulardan istifadə etməklə terror-təxribat törədilməsini planlaşdırmasına əsaslı şübhələr müəyyən edilib. Bununla əlaqədar, 2016-cı il dekabrın 3-də Emin Caminin saxlanılması üzrə əməliyyat tədbiri həyata keçirilərkən, sonuncu müqavimət göstərərək üzərində olan "şəhid kəməri"ni partlatmağa cəhd edib, cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib. Rəsmi məlumatlara görə, ölkəmizdə hansısa terror qruplaşmasının bazası və ya təlim mərkəzi yoxdur. Amma DTX-nın həyata keçirdiyi əməliyyat haqda məlumatlarda zərərsizləşdirilən terrorçuların üzərilərində şəhid kəmərini partlatmağa cəhd etdikləri açıqlanır.

DTX-nın keçirdiyi əməliyyatla bağlı fikirlərini açıqlayan **xüsusi xidmət orqanlarının sabiq əməkdaşı Arzu Nağıyev** deyir ki, terrorçuların zərərsizləşdirilməsi ilə bağlı keçirilən əməliyyat heç də onların ölkəmizdə ifrat fəallaşmasına dəlalət etmir. Xüsusi xidmət orqanlarının sayıqlığı belə halların qarşısının vaxtında alınmasına səbəb olur: "Söhbət ondan gedir ki, terror qruplarına biət edən dəstələr var və onlara təlimatlar verilir ki, terror aktlarını yerində keçirmək lazımdır. Bu yolla özlərinin varlığını sübuta yetirmək istəyirlər. Suriyada terrorçuların ələ keçirilən anbarlarında aşkar olunan partlayıcılar ikitəyinatlı materiallardan hazırlandığı üzə çıxdı. Yəni Əllərinin altında olan və məişətdə istifadə edilən ən müxtəlif əşyaları partlayıcıya çeviriblər. Plastik qablar, mismar, benzin və digər materialları bir yerə yığıb partlayıcı düzəldiblər. Bir müddət əvvəl DTX tərəfindən zərərsizləşdirilən dəstə üzvləri əsasən Rusiyada, Dağıstanda və Şimali Qafqazın bir sıra məntəqələrində fəaliyyət göstərən "Qafqaz camaatı" deyilən qruplaşmanın tərkibinə daxil idilər. Təbii ki, bunlar bir mərkəzdən idarə olunur və maliyyələşdirilir. Son əməliyyat çox təqdirəlayiqdir. Bununla belə, sosial şəbəkələr və internet vasitəsilə bu qruplara cəlbetmənin davam etdirilməsi də faktdır".

**A.Nağıyev müxtəlif bölgələrdə döyüşən terrorçuların üz cizgilərinin, əl-barmaq izlərinin dəyişdirilməsi kimi plastik əməliyyatları həyata keçirən həkim dəstəkçiləri də mövcuddur:** "Bir dövlətin ərazisində döyüşən terrorçunu digər dövlətin ərazisində plastik əməliyyat edib özünün dövlətinə yollayırlar. Artıq Türkiyədə belə bir həkim-dəstəkçilərin olduğu faktları müəyyən olunub".

**A.Nağıyev deyib ki, əməliyyat-axtarış fəaliyyətini davam etdirmək üçün terrorçuların diri ələ keçirilməsi daha məqsədəuyğundur:** "Lakin artıq həmin qruplar silahlı müqavimət göstərirsə, məhv edilməsi qaçılmaz olur. Ümumiyyətlə isə terrorçuların tutulub saxlanılması taktikası artıq səmərəli hesab olunmur.



Avropada terrorçuların saxlanılması praktikası geniş yayılıb. Amma bu metod effektiv deyil. Ən yaxşı metod Rusiya xüsusi xidmət orqanlarının tətbiq etdiyi metoddur - yerindəcə məhv etmə. Onsuzda terrorçuların haradan maliyyələşməsi, idarə olunması bəllidir. Terrorçunu tutub uzun-uzadı məhkəmə araşdırmaları aparmağın əhəmiyyəti qalmayıb. Terrorçunun məhv edilməsi praktikası daha düzgün taktikadır".

Qeyd edək ki, DTX rəisi, general-leytenant Mədət Quliyev mətbuata açıqlamasında Azərbaycanı terror təhdidlərindən qorumaq üçün bütün preventiv addımların atıldığını deyib. Xidmət rəisi qeyd edib ki, digər dövlətlərin Azərbaycana qarşı təhdidləri, maraqları var.

"Yaxın Şərqdə gedən proseslərin təhdidləri var. Lakin prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hüquq-mühafizə orqanları qətiyyətlə bu məsələləri həll edirlər"- deyə general-leytenant bildirib.

DTX tərəfindən bölgələrdə keçirilən əməliyyatlara toxunan M.Quliyev qısa zamanda cinayətkarların, casusların məhv edilməsi üzrə əməliyyatlar keçirildiyini vurğulayıb: "Əməkdaşlarımız onları saxlayan zaman silahlı müqavimətlə rastlaşdılar, lakin bunun qarşısını qətiyyətlə aldılar. Ümumiyyətlə, Azərbaycan xüsusi xidmət orqanları bu istiqamətdə tək işləmirlər, digər dövlətlərin xüsusi xidmət orqanları ilə birgə çalışırıq, məlumat mübadiləsi edirik".

❑ **E.MƏMMƏDƏLİYEV**

---

# Apreldə siçan deşiyi axtaranlar



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Sırağagün regionumuzda təsəvvürəgəlməz, qlobal əhəmiyyətli, az qala, dünyanın gedişatını dəyişə biləcək bir hadisə baş verib: Dağlıq Qarabağdakı separatçı rejimin "prezidenti", "Kreml tulası" Bako Saakyan "hökumət"in iclasını keçirib! Və bu quldurbaşı öz aləmində guya 2016-cı ilin iqtisadi yekunlarını edib.**

Əsl sarkazm nümunəsidir, deyilmi? Yerli-dibli olmayan bir şeydən - iqtisadiyyatdan dəm vurub, iqtisadi planlar cızmaq yalnız erməni ağlının, erməni fantaziyasının məhsulu ola bilər. Heç blokada şəraitində inləyən Ermənistan adında virtual dövlətin iqtisadiyyatından elə bir şey qalmayıb, o ki ola, bandit-separatçıların terror yuvasına çevrilmiş, bir ovuc erməninin girov saxlandığı, hər cəhətdən dünyadan təcrid olunmuş Dağlıq Qarabağın "iqtisadiyyatı".

Ən gülməlisi isə Saakyanın orada işlətdiyi bir cümlədir. Deyib ki, "apreldəki 4 günlük müharibə iqtisadiyyatımıza böyük ziyan vurub". Əvvəla, apreldə Azərbaycan Ordusu heç Dağlıq Qarabağa girməmişdi, ordakı hər hansı mülki obyektə zərbə də endirməmişdi. Buna lüzum da yox idi, çünki Azərbaycanın strateji hədəfi yalnız keçmiş DQMV ətrafındakı rayonları işğaldan azad eləməkdir. O zaman Xankəndini işğalçı-separatçı ünsürlərdən təmizləməyə ehtiyac qalmayacaq. Əfsus ki, atəşkəs tez bərpa olundu, yoxsa ordumuz qısa zamanda azı, bir rayonu azad edə bilərdi. İkinci yandan, Azərbaycan Ordusu hələ quldur yuvası Xankəndinə-zada zərbə endirməyib Saakyan ağır iqtisadi itkilərdən danışır, gör endirsəydi nə olardı?

Yeri gəlmişkən, bu həmin Bako Saakyandır ki, 4 günlük müharibə zamanı gizlənməyə siçan deşiyi axtarırdı. Hətta atəşkəs bərpa olandan sonra da onun qorxudan ağarmış rəngi günlərlə yerinə gəlməmiş, Ermənistan KİV-inin diqqətini çəkmişdi. Erməni nəşrlərindən birinin şərhçisi Azərbaycan dövləti içində bu oyuncaq dövlətciyin başçısını belə sir-sifətə və surətə görə sərt tənqid edərək, bu ovqatın erməni əhaliyə neqativ təsir etdiyini yazmışdı.

Yəni, "prezident" Saakyanın sifəti o zaman əsl erməni sifəti, əsl erməni görkəmi idi ki vardı - qorxaq, yazıq, miskin! Ermənilər öz qarşılarında güc görəndə beləcə, həmişə əjdahadan dovşana dönürlər. Di gəl ki, bu yazıq erməni yenə özünü əjdaha kimi hiss etməyə başlayıb, "DQR dövləti"ndən, onun "iqtisadiyyatı"ndan dəm vurur, "nazirləri"nə tapşırıqlar verir.

Bəh-bəh. Əlbəttə ki, arxasındakı Rusiyadan, onun liderі Putindən, Rusiyanın erməni əsilli XİN başçısı - Lavrovda təzə nəfəs, dəstək, qarant aldığı üçün şellənir! Eləcə də apreldə Azərbaycanın odsaçan raket zərbəsinin alovunda qovrulmaqdan zorla canını qurtarmış Ermənistan silahlı qüvvələrinin hazırkı baş qərargah rəisi Movses Akopyanın Azərbaycanı hədələməsi eyni qəbilən olan "igidlik" nümunəsidir. Saakyan kimi, Akopyan da indi eyni səbəbdən özünü şir kimi hissi edir...

İşğal altında olan, Saakyan kimi quldurbaşılarının sex kimi fırlatdıqları Dağlıq Qarabağda hansı vəziyyətin hökm sürdüyünü, oradakı olan-qalan girov əhalinin hansı acınacaqlı durumda olduğunu isə bu yaxınlarda Bakı Sülh Platformasına qoşulan qarabağlı gənc publisist, ictimai fəal Lusine Nersisyan öz müsahibəsində aydın şərh eləmişdi. Acı gerçəyi dilə gətirdiyi, bunu həm də Azərbaycan mediasına dediyi üçün də o, qanunsuz rejimin qəzəbinə tuş gəldi və həbsə salındı.

Gözlənilən idi. Separatçı rejimə, onun Ermənistanda hakimiyyəti 18 ildir zəbt eləmiş Qarabağ klanı timsalında arxa-dayağına həqiqət yox, yalan lazımdır. Bədbəxt erməni xalqına yedizdirmək üçün böyük yalan! Nəyin sayəsində ki, təkcə Ermənistan adlı qondarma dövlət deyil, Dağlıq Qarabağdakı ikinci saxta erməni "dövləti" də öz virtual mövcudluğunu saxlayır.

**Hələ ki saxlayır. Çünki günün birində erməni xalqı da böyük YALAN-dan bezəcək. Bezəcək və əlahəzrət həqiqətə sığınmalı olacaq - bu həqiqət nə qədər sərt olsa da. Proses başlayıb. Bax, o zaman bako saakyanların, serj sərkisyanların, movses akopyanların yazıq simasını bir daha görəcəyik - təbii ki, o vaxtadək onlar layiqli cəzalarına çatdırılıb məhv edilməsələr...**

# "Human Right Watch" Nardaran məhbuslarının azadlığını tələb etdi - reaksiyalar

**"Human Right Watch" beynəlxalq insan haqları təşkilatı yanvarın 25-də barələrində hökm oxunan Nardaran məhbusları ilə bağlı bəyanat yayıb. Bəyanatda Azərbaycan hakimiyyətinin ünvanına sərt tənqidlər yer alır, ağır cəzalara məruz qalan 18 nəfərin işinə xitam verilməsi və onların dərhal azadlığa buraxılmaları tələb olunur.**

AzadlıqRadiosunun məlumatına görə, təşkilatın Avropa və Mərkəzi Asiya üzrə direktor əvəzi Jane Buchanan bildirib ki, Azərbaycan hakimiyyəti bu şəxslərin işgəncələrə məruz qalması barədə iddiaları qulaqardına vurub və araşdırmayıb, beləliklə özünün beynəlxalq öhdəliklərini pozub. Təşkilatın mətbuat üçün açıqlamasında deyilir ki, kəndə reyd aydın olmayan və mübahisəli səbəblərə görə zorakılıqla nəticələnib, iki polis nəfəri və 7 mülki şəxs atışmada həlak olub. Məlumatda deyilir ki, müttəhimlərə 8 ay müddətində vəkil xidmətinə çıxış verilməyib. Döyülmə şikayəti ilə bağlı prokurorluq orqanları tərəfindən aparılan araşdırma isə səthi olub və xəsarət yerləri sağalandan sonra keçirilib.

Onlara qarşı terror, hakimiyyətin zorla ələ keçirilməsinə cəhd və qanunsuz odlu silah saxlamaq da daxil bir çox ittihamlar irəli sürülüb.

"Human Right Watch" bildirir ki, Azərbaycan BMT-nin İşgəncələrə Qarşı Konvensiyası və Avropa İnsan Haqları Konvensiyası da daxil bir çox müqavilələri imzalayıb və öhdəliklərinə əməl etməlidir.

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov** "Yeni Müsavat"a açıqlamasında son zamanlar "Human Right Watch"un səlahiyyətlərini aşdığını bildirdi: "Onlar bu bəyanatları ilə Azərbaycanın daxili işlərinə qarışır, dövlətimizə nəyi necə etməsi üçün yol göstərirlər. Bu onların funksiyalarına, gördükləri işlərə yaraşmır. Nardaran hadisələrinin arxasında onların dediklərinin əksi olaraq, nə dini, nə də siyasi amil dayanır. İlk növbədə, bu hadisələrin kökündə cinayət var. Hüquq-mühafizə orqanları aldıqları siqnal əsasında ora gediblər, araşdırma aparmaq istəyiblər, həmin şəxsləri məsuliyyətə cəlb etməyə çalışıblar. Orada polisləri qumbara ilə qarşılayıblar. "Human Right Watch"un bu bəyanatını hazırlayan şəxslərə demək istəyirəm ki, Amerika və digər Avropa ölkələrində belə hadisələr baş verəndə nə edirlər? Onlar üçün mahnı oxuyur, şeir söyləyirlər? Hər gün telekanallarda görürük



**Bəxtiyar Sadıqov:** "Hansı əsaslarla bu qərarı şübhə altına alırsınız? Siz kimsiniz?"



**Mirvari Qəhrəmanlı:** "Onların qəbul etdiyi bu bəyanatla..."

ki, polis necə rəftar edir, hətta dinc nümayişə çıxanlara qarşı zorakılıqlar edilir. Bu insanlarda isə külli-miqdarda silah-sursat aşkarlanıb, qanun keşikçilərini onlar qətlə yetiriblər. Burada siyasi motiv nədir? Bir məsələ Avropa dövlətlərində baş verəndə başqa cür, biz də isə baş verəndə tamam başqa cür yanaşılır. Onların bu mövqeyi qeyri-obyektiv, Azərbaycana qarşı qərəzli yanaşdıqlarının sübutudur. Onlara sərf edir ki, ölkəmizdə sabitlik pozulsun, hüquq-mühafizə orqanlarına itaətsizlik göstərilsin, Azərbaycanda anarxiya baş alıb getsin. Ona görə çalışırlar ki, caniləri, hüquq-mühafizə orqanları əməkdaşlarını öldürənləri azadlığa buraxdırsınlar. Hansı dövlət bunu edər? Mən ancaq bu bəyanata təəssüf edə bilərəm. Əgər olan bu məsələni başqa cür, obyektiv qiymətləndirsəydilər, o zaman verilən sifarişləri düzgün icra etmədilər. Heç olmasa, vicdanları ilə hərəkət etsinlər. O insanların ailələri, yaşamaq hüquqları yoxdur? Uzun araşdırmadan, şahidlərin ifadələrindən sonra Azərbaycan məhkəməsi belə qərar çıxarır, sizlər hansı əsaslarla bu qərarı şübhə altına alırsınız? Siz kimsiniz? Bu işi araşdırmamısınız, hadisə ilə yaxından tanış deyilsiniz, cinayətkarın özü ilə görüşməmisiniz, məhkəmə proseslərində iştirak etməmisiniz, amma indi deyirsiniz ki, onları buraxın. Yaxşı olar ki, nə etdiklərini bilib, Azərbaycanla diktə ilə danışmayaydılar. Biz cinayətkarları məhkəmə qaydasında cəzalandırmağı yaxşı bacarırıq".

**Deputat Azərbaycandan xarici təşkilatlara məlumat ötürən qüvvələrin olduğunu da qeyd etdi:** "Təəssüf doğuran haldır ki, adı azərbaycanlı olan hüquq müdafiəçi, siyasi partiya üzvləri ölkəmiz əleyhinə iş aparırlar. Onların bir qismi xaricə gedib, Azərbaycanın taleyüklü məsələsi müzakirə olunan ölkəmizdə demokratiya, insan haqlarının guya olmaması ilə bağlı əleyhimizə işlər görürlər. Azərbaycanda da belə insanlar var və əl altından informasiya ötürməklə məşğuldurlar. Bunlar Azərbaycan xalqına qarşı xəyanətdir, ölkəmizdə sabitlik yaratmaq istəyənlərin ruhuna hörmətsizlikdir. Azərbaycan bu tipli beynəlxalq təşkilatların dedikləri ilə oturub-duran deyil".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bunları dedi:** "Doğrudur, "Human Right Watch" məhkəmələrin monitorinqini aparmayıb, proseslərdə iştirak etməyib. Hüquq müdafiəçilərinin yazdıqlarının əsasında öz mövqeyini bildirib. Yerli hüquq müdafiəçilərinin dediklərini qəbul edirlər. Bunun əsasında tələb edirlər ki, bu şəxslər azadlığa buraxılsın. "Human Right Watch" sadəcə beynəlxalq hüquq müdafiə təşkilatıdır. Məsələyə öz yanaşma tərzləri var. Amma düşünmürəm ki, onların qəbul etdiyi bu bəyanatla həmin şəxslər azadlığa buraxılsınlar".

❑ **Cavanşir ABBASLI**

# "Azərbaycanın adının diktatura rejimləri ilə yanaşı çəkilməsi reallıqdan uzaqdır"

## **Ekspert:** "55 partiyanın qeydiyyatdan keçdiyi, müxalifətin olduğu ölkəni necə diktatura adlandırmaq olar?"

**Son vaxtlar bir sıra beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanın adı demokratiyanın olmadığı ölkə olaraq qeyd edilir. Ölkəmizin adını Cibuti, Zimbabve kimi diktatura rejiminin hökm sürdüyü ölkələrlə yanaşı yazılır. Məsələn, "The Economist Intelligence Unit" beynəlxalq təşkilatı 2016-cı ilin demokratiya indeksini açıqlayıb.**

Yeni sənəd dünya ölkələrinin təxminən yarısının demokratik hesab edilə biləcəyini, amma "tam demokratik" ölkələrin sayının azaldığını-20-dən (2015) 19-a (2016) düşdüyünü göstərir. Hətta ABŞ "tam demokratik" ölkələr sırasından çıxıb, "qüsurlu demokratik ölkələr"in siyahısına düşüb. Sənədin müəllifləri bunu ABŞ-da hökumətə və seçki rəsmilərinə etimadın azalması ilə izah edirlər. Azərbaycan demokratiyanın səviyyəsinə görə 165 ölkə arasında 148-ci yeri tutur, Zimbabve (140), Qambiya (143), Cibuti (145) kimi Afrika ölkələrindən, Bəhreyn (146), Birləşmiş Ərəb Əmirliklərindən (147) sonra gəlir. Azərbaycandan sonra Əfqanıstanın, Afrikanın Burundi və Sudan respublikalarının və s. adı çəkilir. Qafqaz ölkələrindən Gürcüstan demokratiyanın dərəcəsinə görə 78, Ermənistan 120-ci yeri tutub. Türkiyə 97, Rusiya 134, İran 154-cü yerdədir.

Bəs əslində reallıq necədir, Azərbaycanda demokratiya, diktatura, yoxsa avtoritar quruluşdur?

**Gənc Demokratlar İnstitutunun rəhbəri, siyasi ekspert Yeganə Hacıyeva** qeyd etdi ki, Azərbaycan prinsip etibarı ilə demokratik quruluşlu respublikadır. Azərbaycanın adının Şərqi Afrikanın Cibuti kimi geridə qalmış, insanlar arasında kastaların hələ də mövcud olduğu, diktatura rejimli bir ölkə ilə yanaşı çəkilməsi əlbəttə ki, reallıqdan uzaqdır və açıq-aşkar ölkəmizə qarşı bir ədalətsizlikdir, qərəzdir: "Öncəliklə onu qeyd edim ki, demokratiya cəmiyyətlərə ixrac olunmur, cəmiyyətlərin milli, mənəvi, mental və məişət xüsusiyyətlərinin əsasında formalaşan bir prosesdir. Tarixə nəzər salsaq görürük ki, Azərbaycan islam ölkələrindən ilk demokratik quruluş qurmuş, qadına, milli, irqi və dini azlıqlara indi özünü demokratiyanın beşiyi hesab edən bir çox ölkədən daha öncə səsvermə hüququ tanımış ilk müsəlman ölkəsidir. Günümüzdə belə müsəlman ölkələrinin mütləq çoxluğunda cinsi, irqi, milli və dini azlıqlar diskriminasiyaya uğrayır və fiziki olaraq yaşamaq uğrunda mübarizə aparırlar. Azərbaycanda belədirmi? Qətiyyən.



Yeganə Hacıyeva

Ölkəmizin müstəqilliyinin bərpasından sonra da bu demokratik adət-ənənələr davam etmiş və bu ölkədə heç kim milli, dini, cinsi, irqi diskriminasiyaya uğramamışdır. Misal olaraq göstərmək istəyirəm ki, qonşularımız olan Rusiyadan, Gürcüstandan, Ermənistandan fərqli olaraq Azərbaycandan Avropa İnsan Haqları Bürosuna və ya Məhkəməsinə hər hansı bir milli, dini diskriminasiya epizodu üzrə müraciət daxil olmamışdır. Bu özü yüksək demokratik təsisatların mövcudluğunun göstəricisidir. Bu gün Azərbaycanda dövlət qeydiyyatından keçmiş 55 partiya var. Müxalifət partiyaları var və hakimiyyəti sərt tənqid edirlər. Diktatura rejimi olan ölkələrdə buna rast gəlmək olarmı? Xeyr".

**Ekspert onu da dedi ki, sırf insan haqları üzrə ixtisaslaşmış təşkilatların hesabatlarındakı demokratiya "indeksləri" yarımçıq və etibarsızdır:** "Beynəlxalq təşkilatlarda üzün müddətli fəaliyyət göstərmiş biri kimi mən bu hesabatları yarımçıq və oradakı göstəriciləri isə etibarsız hesab edirəm. Demokratiya indeksi uzun müddətli, cəmiyyətin müxtəlif sahələrində baş verən (əlillərlə, gender məsələri ilə, dini, milli, irqi məsələlərlə bağlı) proseslərin mütəmadi olaraq müşahidəsi əsasında alınmış nəticələrin formalaşdırdığı bir göstərici olmalıdır. Medianın monitorinqi əsasında formalaşdırılmış rəy, hər hansı bir siyasi təşkilat üzvünün mübahisəli həbsi və ya hər hansı bir reket jurnalistin epizodik həbsi bir ölkədə demokratiyanın pozulmasının göstəricisi üçün əsas ola bilməz. Odur ki, sırf Azərbaycanla bağlı bu cür təşkilatların hesabatlarını qərəzli və sifarişli hesab edirəm. Azərbaycan haqqında belə neqativ fikirlər həmin təşkilatların donorlarının bağlı olduğu biznes dairələrinin sifarişi əsasında formalaşdırılır".

❑ **Etibar SEYİDAĞA**

**Yanvarın 27-də Daxili İşlər Nazirliyində 2016-cı ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

# Nazir münaqişəli ailələrin qeydiyyatı ilə bağlı göstəriş verdi

## Ramil Usubov: "Asayişin mühafizəsi və təhlükəsizlik tədbirlərinin təmini ilə bağlı planlaşdırılmış bütün təşkilati tədbirlər vaxtında, yüksək səviyyədə yerinə yetirilməlidir"



Nazirliyin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, iclası giriş sözü ilə açan nazir, general-polkovnik Ramil Usubov bildirib ki, Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, həmçinin, asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası tam təmin edilib. Qeyd olunub ki, ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqedə olub, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı azalaraq 277-dən 271-ə enib.

Hesabat məruzəsi ilə çıxış edən daxili işlər naziri deyib ki, sistemli şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu və mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə yüksəlib. Ölkəmizdə ictimai asayişin qorunmasında böyük rolu olan Əlahiddə Çevik Polis Alayı qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirib, habelə xüsusi təyinatlı bu nizami polis hissəsinin əməkdaşları tərəfindən müxtəlif cinayətlərə görə 804 nəfər, həmçinin inzibati xəta törətmiş 28 min şəxs saxlanılıb.

General-polkovnik qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin icrası daim ciddi nəzarətdə saxlanılıb, bu sahədə mühüm vəzifələr keçən ildə də tam və ardıcıllıqla yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 3.248, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 2.164 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub.

Prezident Administrasiyasının Hüquq-Mühafizə Orqanları ilə İş Şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

İclasa yekun vuran daxili işlər naziri 2016-cı ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir yerlərdə münaqişəli ailələrin vaxtında uçota götürülməsini, barələrində zəruri profilaktik tədbirlərin keçirilməsinə nəzarətin, əvvəllər məhkum olunmuş şəxslərlə profilaktikanın, eləcə də, yol hərəkətinə nəzarət tədbirlərinin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin, xüsusən güclü təsirə malik narkovasitələrin aşkarlanması işinin gücləndirilməsini, həmçinin, istintaq və təhqiqat aparatının cinayətkarlığa qarşı mübarizədə aparıcı rolunun, cavabdehliyinin və peşəkarlığının, aidiyyatı baş idarə və idarələr tərəfindən ərazi polis orqanlarına idarəçilik təsirinin artırılmasını tələb edib.

**Qeyd olunub ki, 2017-ci ildə qarşıda çox mühüm vəzifələr durur. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsi, xidməti fəaliyyətdə mövcud olan nöqsan və çatışmazlıqların tam aradan qaldırılması üçün şəxsi heyət daha böyük əzmlə çalışmalı, peşəkarlığını yüksəltməlidir. Cari ildə Bakı şəhərində keçiriləcək "IV İslam Həmrəyliyi Oyunları" və "2017 Formula 1 Azərbaycan Qran Pri"si kimi beynəlxalq əhəmiyyətli idman yarışları zamanı asayişin mühafizəsi və təhlükəsizlik tədbirlərinin təmini ilə bağlı planlaşdırılmış bütün təşkilati tədbirlər vaxtında, yüksək səviyyədə yerinə yetirilməlidir.**

# "Dəyanətin son bir neçə ili xəyanətlər içində keçdi"

## Yaxın dostu onun aldığı zərbələrdən danışır, anası oğlunun ölümünü qəbul edə bilmir, ekspertizanın nəticələri isə bir ay sonra açıqlanacaq



Dəyanət Rzayev

**"Biz ailəsi olaraq oğlumla bağlı ekspertizanın nəticəsini gözləyirik". Bu sözləri musavat.com-a açıqlamasında iki gün öncə intihar etmiş psixoloq Dəyanət Rzayevin anası Şərqiyyə Rzayeva bildirdi. Onun sözlərinə görə, oğlunun qətlə yetirilməsinə inanmır. Çünki onun evinin qapısını açıb, içəri girən, onu bu vəziyyətdə görən özü olub: "Mən burda yox idim. Xəstə idim. Son bir neçə gündə isə danışmamışdıq. Əvvəl də tez-tez zəng edirdim. Son bir neçə gündə isə özümü pis hiss edirdim. Uşaqları məktəbə aparıb-gətirəndən sonra dedim ki, Dəyanətə baş çəkim. Çünki ondan xəbər yox idi, zənglərə cavab vermirdi. Açarım var idi, açdım, o mənzərəni gördüm". (ağlayır)**

Ş.Rzayeva dedi ki, oğlunun heç bir borcu olmayıb və guya maddi problemlərə görə intihar etməsi inandırıcı deyil. Müsahibimizin sözlərinə görə, oğlu heç zaman kreditlə nəsə almaz, heç kimdən borc götürməzdi: "Deyirdi ki, nəyim varsa budur. Mənə deyirdi ki, mebelimiz yaxşıdır, gedib kreditlə Türkiyənin mebellərindən almaq lazım deyil. Hər gördüyünə əl uzatsın, almaq istəsin... Yox idi belə cəhətləri. Oğlum acgöz deyildi. Həmişə deyirdi ki, dünyanın malı dünyada qalacaq. Heç vaxt heç kimlə bəhsə girməzdi. "Filankəsdə nəsə var, məndə də olsun" prinsipi ilə yaşamazdı. Uşağım gözütox idi. İki evi vardı. Birində özü, o birində ailəsi, uşaqları yaşayırdı".

Müsahibimizin sözlərinə görə, mərhum psixoloq heç vaxt onunla şəxsi problemləri, qayğıları ilə bağlı müzakirə aparmazdı. Amma Ş.Rzayeva iddia etdi ki, oğlunun bu həyatda bir düşməni belə olmayıb: "Çox zərərsiz biri idi. Heç kimə bir pisliyi keçməmişdi. Dərdi var idisə, içinə atırdı, heç vaxt başqasına demirdi. Mən də anası olaraq onun şəxsi işlərinə qarışmamışam".

Ş.Rzayevadan onun ölümü ilə bağlı daha çox qətl, ya intihar versiyasına inanması barədə soruşanda isə müsahibimiz "mən oğlumun ölümünü qəbul edə bilmirəm, onda qala hansısa versiyanı" dedi. O, son əminlik üçün ekspertizanın nəticələrini gözlədiklərini bildirdi.

Bu arada "Yeni Müsavat"ın istintaq orqanlarından əldə etdiyi məlumata görə, D.Rzayevin meyitinin ekspertiza nəticələri isə bir ay sonra açıqlanacaq.

D.Rzayevin adının hallanmasını istəmədiyi dostlarından biri isə dedi ki, o, son zamanlar orta yaş sindromuna tutulmuşdu. Hər şeydən sarsılır və baş verən ən xırda neqativ hadisə belə onu ruhdan salırdı. Dostunun dediyinə görə, uzun illərdir fasiləsiz konsultasiya aparan psixoloqun özü də mənəvi cəhətdən yorulmuşdu. "Onlardan mənfi enerjini alıb, müsbət enerji verir və yüklənirdi" deyən dostunun sözlərinə görə, onun özünün də konsultasiyaya ehtiyacı var idi: "İşi çox idi, dayana bilmirdi. Son 7-8 il ərzində yadıma gəlmir ki, nə zamansa istirahətə, tətilə çıxsın. Amma onun maddi problemləri yox idi. Yeni binada evi vardı. Bir əlavə evi vardı, təmir edirdi. O qədər pasiyenti var idi ki, bəzən onları qəbula yazmağa çatdırmırdı. Dəyanət çox nadir, ixtisaslaşmış psixoloq idi. Sertifikatları var idi. Bu sahə üzrə Rusiyada təhsil almışdı".

**Dostu dedi ki, D.Rzayev əsasən dost bildiyi insanların xəyanətindən əziyyət çəkirdi. Belə ki, hazırda gündəmdə olan bir çox psixoloqlar onun şinelindən çıxmış, onun yanında peşəkarlaşmışdı. Amma onların çoxu peşənin incəliklərini mərhum psixoloqdan öyrənəndən sonra onun yanından ayrılırdılar. Müsahibimiz bu ayrılıqların bir çox hallarda qalmaqalla baş tutduğunu dedi:** "Dəyanət bunu çox ağrılı qəbul edirdi. Onu uzun müddət içində yaşayırdı. Adam var ki, öz sahəsində hər şeyi bilir və bunu başqaları ilə bölüşmür. Amma o, öyrətməyə çalışırdı. O, ən yaxşı xəstəsini başqa həkimə verirdi. Hər dəfə söz verirdi ki, etməyəcəm. Hər yerdə yeniləri çağırırdı. Onun son bir neçə ili xəyanətlərlə keçdi. Bu da intihara səbəb deyildi. Hazırda onun intiharının səbəblərini bilmirəm. İzah da tapa bilmirəm. Həyatında qarşısıalınmaz problemi yox idi".

❑ Sevinc TELMANQIZI

# "Baş mühasibi deyirdi ki, görülən işlər Vidadi Zeynalovun göstərişidir"

## "Rabitə işi" məhkəməsində şahidlər dindirilir; "İcra hakimiyyətləri bizi məcbur edirdilər ki, binaları üzləyək"

**Yanvarın 27-də Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**



Vidadi Zeynalov

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesi şahidlərin ifadə verməsi ilə davam etdirilib.

Cəlilabad telefon qovşağının rəisi Zaur Məmmədov məhkəməyə şahid qismində gətirilib. İstintaqa ifadəsini təsdiq edən Z.Məmmədovun həmin ifadəsi elan edilib.

O, istintaqa ifadəsində deyib ki, Cəlilabad telefon qovşağında görülən işlər nazirlik tərəfindən 163 min manat pul ayrılıb. Sitat: "Aztelekom" MMC-nin baş mühasibi Oqtay Rüstəmov deyirdi ki, görülən işlər Vidadi Zeynalovun göstərişidir. Tikinti işlərinə ayrılan pulların 30-35 faizinin geri qaytarılacağını, bu pulun 10 faizinin "Aztelekom"un rəhbəri Məmməd Məhəmmədova da çatacağını bildirirdi".

Amma məhkəmədə Zaur Məmmədov istintaqda öz xətti ilə yazdıqlarını təsdiqləmədiyini, belə ifadə vermədiyini deyib.

Hakim: "Harada əsgərlikdə olmağınızı, təhsil almağınızı da müstəntiq yazıb? Bu sizin xəttinizdir. Özünüz də imzanızla təsdiq etmisiniz".

Zaur Məmmədov sonradan sözünü dəyişərək istintaqdakı ifadəsini təsdiq etdiyini deyərək yalan danışmasının izahatını belə verib: "Mən onları yazmışam. Amma bunlar eşitdiklərimdir. Qiymətlərdə fərq olduğunu eşitmişdim. İstintaqda yazdıqlarım da eşitdiklərimdir".

Şahidin bu dedikləri ilə bağlı Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq aparat rəhbəri Vidadi Zeynalov da izahat verib.

O deyib ki, təkcə Cəlilabadda yox, əksər rayonlarda nazirliyə məxsus inzibati binaların üzlənməsi üçün icra hakimiyyətləri onlara müraciət edib: "İcra hakimiyyətləri bizi məcbur edirdilər ki, binaları üzləyək. Qonaq gələcəyini, binaların təmirsiz olduğunu və görünüşü pozduğunu deyirdilər. Bu işlərlə bağlı göstərişlər verilib ki, binalar üzlənilsin, təmir edilsin. Amma pulların kimə və hara çatması haqda deyilənlər haqda məlumatsızam. Ayrılan pulların 30-35 faizinin bizə çatması, onun 10 faizinin mənim tərəfimdən Məmməd Məhəmmədova verilməsi halı olmayıb. Görən bu 10 faiz ümumi ayrılan puldan götürülürdü, yoxsa qazancdan? Bu mənə də aydın deyil".

Digər şahid Ağstafa telefon qovşağının rəisi Mahmudov Mirəsgər olub.

Onun istintaqa ifadəsində hər ay 1500 manat pulu "Aztelekom" MMC-nin rəhbəri Məmməd Məhəmmədova baş mühasib Oqtay Rüstəmov vasitəsi ilə verdiyini deməsi aydın olub. Amma M.Mahmudov məhkəmədə bunu təsdiq etməyib.

Məmməd Məhəmmədov da şahidə sual verib: "Sən məni nə vaxtsa görmüsən? Mənə pul vermisən? Kabinetimdə olmusan?".

Şahid: "Xeyir görməmişəm. Sizə pul verməmişəm. İstintaqda dediyimi təsdiq etmirəm. Oqtay Rüstəmova da pul verməmişəm".

Hakim Əfqan Hacıyev Məmməd Məmmədovun suallarına gülərək münasibət bildirib: "Həmin vaxt onun hünəri nə idi sizin kabinetə yaxınlaşsın".

**Məhkəmə prosesi fevralın 1-də davam edəcək.**

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ İlkin MURADOV



# Dəm pəncərəsi

**Samir SARI**

**Qışda pəncərəni açıq qoymaq da bu köçkünlərdə, eləcə də əhalinin kasıb təbəqəsində nə şakərdir, türkün sözü, bir türlü anlamış deyiləm. İllah da açıq qoyacaqlar.**

Elə olmasa, o boyda deputat, nazir və sair və ilaxır məmurlar bunu dilə gətirməz, həyəcan təbili çalmazdılar.

Məqsəd nədir, bilinmir. Əcəba, onları buna (yəni soyuq havada pəncərəni açıq qoymağa) nə vadar edir, anlayan, bilən yoxdur.

Deyək ki, hökumətin müftə verdiyi qazdan, işıqdan bolabol yandırırsan, a köçkün qardaş, ev isti olur, tablaşmaq olmur, nədən pəncərəni açıq qoyursan, qazı, elektrik sobasını söndür, içərinin havasını tənzimlə, ta niyə pəncərəni açırsan?

Kimə deyirsən? Bu sadə həqiqəti heç kim anlamaq istəmir. İçərini isidib fin hamamına döndərirlər, sonra alınlarından puçur-puçur tər damcılayanda durub pəncərəni (bəzi hallarda isə hətta qapını) açırlar ki, içəri bir az sərinləsin.

Eşitdiyimə görə, bəzi israfçı köçkünlər müftə enerjiylə işləyən qaz və elektrik sobalarının yaratdığı buxarxana mühitinə dözməyəndə durub qışda kondisioneri də yandırırlar ki, sərin külək vursun. Nə veclərinə, elektrikə pul vermirlər axı.

İndi bu yerdə fasilə edib, nəfəs dərib, "bunlar zarafat idi" yazmasam, buna inanan xeyli oxucu olacaq yəqin ki.

Məsələ isə belədir: qışda isti otaqda oturub sərinləmək üçün pəncərəni açıq qoymaq söhbəti, yumşaq desək, hətta çox yumşalda-yumşalda pambığa döndərərək söyləsək, yalandır, uydurmadır, iftiradır.

Belə bir fakt harda qeydə alınıb? O deyilən hərarət (yəni otağı pəncərəni açıq qoymağa vadar olacaq qədər isitmək) yalnız oliqarxların şəxsi və kommersiya xarakterli saunalarında ola bilər. Başqa harada otaqları o cür qızdırmaq mümkündür ki?

Həm də neçə illərdir köçkünlərin enerjidaşıyıcılarının istehlakına dair limitləri var, bir otaqda lampanı (mətbəxdə qaz plitəsinin bir gözünü) yanılı qoyduqlarında limiti aşırlar və istifadə etdikləri enerjinin pulu ödəyirlər. Köçkün dəli deyil ki, evini saunaya dönəcək qədər qızdırsın, sonra da durub qapı-pəncərəni açsın.

Ona görə də bir ağasaqqal adam bu iddialarla çıxış edən rəsmi şəxslərə deməlidir ki, başqa söz, başqa obrazlı ifadə tapın danışın, camaatı güldürməyin.

Budur, bax, parlament sədrinin birinci müavini Ziyafət Əsgərov deyib ki, Azərbaycan böhrandan yan keçdi.

Biz buyuq. Bütün dünya böhranın düz ortasıyla getdi, o tərəfə keçməyə çalışdı, nə qədər dövlət o böhranın çirkabına, zir-zibilinə bulaşdı, amma biz yolumuzu azacıq çəpəki saldıq, böhranın böyrüylə fırlanıb getdik.

Bir göl düşünün. Bir var, gölün o tərəfinə keçmək üçün suya kəllə vurasan, ya da qayığa-filana oturub qan-tərə bata-bata avar çəkəsən, bir də var, gölün qırağıyla sələn-sələn, yaşılbaş sonalara tamaşa edə-edə, gölün o üzünə gedəsən. Düzdür, bu halda yolun bir az uzanacaq, vaxt çox gedəcək, zato (söz budur e) gölə kəllə vuranla, avar çəkənlə sənin riskin eyni deyil. Kəllə vuranın batmaq ehtimalı böyükdür, avar çəkənin isə həm batmaq, həm də çox əziyyət çəkmək riski var.

Ağlı olan belə məsələlərdə riskə getməz. Allah kəssin risklərdən gələn şampanı. Təcrübə göstərir ki, bəzən şampan içmək üçün qeyri-qanuni riskli işlər görənlərin də masasının üstünə axırda şampan qoyurlar. Məsələn, deyirlər, o vaxt MTN-nin (Mahmudovun Torbatikmə Nazirliyi) reket generalları bəzi höcət "qurban"larına tələb edilən şeyi (lazmi ifadə, xərac) vermədikləri təqdirdə seçim imkanı yaradırmışlar, deyirmişlər, seçin, ya şampan butulkası, ya da "Sarıkız" şüşəsi. İbrətamizdir ki, "Sarıkız" şüşəsi şampan butulkasından qat-qat yığcam olsa da, "qurban"lar onu da seçmirmişlər (bizimkilərə də bir şey bəyəndirmək olmur), istəniləni verirmişlər, Allah da qapılarını açırmış.

İşə baxın, söhbət pəncərəni açıq qoymaqdan başladı, qapı açmağa gəldi.

# Məktəbinə "Yoxlama" gələn direktor öldü

## Vəfat edən məktəb rəhbərinin qızı danışdı: "Atamın ölümündə günahkar Azər İsmayılovdur, onu məhkəməyə verəcəyik"; ATV açıqlama yaydı: "Bizə irad bildirilməyib"

**Bir müddət öncə ATV-də yayımlanan "Yoxlama" verilişinin aparıcısı Azər İsmayılov Xətai rayonu Zaur Məmmədov adına 171 saylı məktəbdə olub və məktəb rəhbərliyinin razılığı olmadan çəkiliş aparıb.**

Baku.ws xəbər verir ki, çəkiliş yayımlandıqdan sonra məktəb direktoru Telman Qardaşovun səhhətində problem yaranıb. Vəziyyəti ağırlaşan direktor yanvarın 27-də dünyasını dəyişib.

Xatırladaq ki, yanvarın 11-də ATV-nin yoxlama verilişi sözügedən məktəbdə yoxlama aparıb və ciddi nöqsanlar aşkar edib.

Musavat.com məsələni aydınlaşdırmaq üçün 171 saylı məktəb ilə əlaqə saxlayıb.

Özünü məktəbin qapıçısı kimi təqdim edən şəxs kollektivin mərhum direktorun evinə getdiyini bildirib: "Mən məktəbin qapıçısıyam. Direktorun ölüb-ölmədiyini dəqiq bilmirəm. Məlumatı eşidən kimi məktəbin bütün kollektivi Telman bəygilə getdi. Hamı oradadır, 1 saat sonra əlaqə saxlasanız, dəqiq məlumat verərəm. İndidən deyim ki, jurnalistlər buraya gəlməsin. İçəri heç kimi buraxmırıq. Dəqiq məlumat gözləyirik. Bir azdan əlaqə saxlayın".

Məsələ ilə bağlı proqramın aparıcısı Azər İsmayılovla da əlaqə saxladıq. O, direktorun ölümü barədə danışmaq istəmədiyini bildirdi: "ATV-dən rəsmi açıqlama yayılıb. Mən əlavə nə isə deyə bilmərəm. Mənim demək istədiyim hər şey artıq deyilib. Xəbər portalları direktorun ölümü ilə bağlı yazılan xəbərlərin başlığında mənim və proqramımın adını hallandırır. Bunu normal qarşılayıram. Çünki mərhum biz çəkiliş etdikdən sonra mətbuatda açıqlamalar vermişdi. Deyəcək başqa sözüm yoxdur".



**ATV-dən verilən açıqlamada isə deyilir:** "Xətai rayonu 171 saylı orta məktəbin direktoru Telman Qardaşovun ölüm xəbəri bizi dərindən kədərləndirdi. Hər insan ölümü kimi bu ölüm hadisəsi də məyusedicidir.

Səmimi qəlbdən Telman Qardaşovun ailəsinə və yaxınlarına başsağlığı verir, səbr diləyirik. Ünvanımıza yönəldilən ittihamı isə kökündən qərəzli və absurd hesab edir, mərhumun oğlunun kədərini nəzərə alıb səbirlə qarşılayırıq. Bəli, 05.01 2017-ci il tarixdə sözügedən məktəbdə çəkiliş aparmışıq və 11.01.2017-ci il tarixdə o veriliş efirdə yayımlanıb. Hər şey ictimaiyyətin gözü qarşısında baş verib. Verilişin efir gününə qədər ünvanımıza yönəldilən şər və böhtanlar da, yalanlar da...

Veriliş efirə getdikdən sonra isə bütün həqiqətlər ortaya çıxdı.

Biz öz işimizi görmüşük. Nə Təhsil Nazirliyindən, nə Bakı şəhər Təhsil İdarəsindən, nə də digər qurumlardan ünvanımıza irad bildirilməyib. MTRŞ isə açıqlamasında verilişdə heç bir qanunauyğunsuzluğun olmadığını bildirib. Məlum verilişin çəkilişindən və efir günündən bu qədər vaxt keçdikdən sonra belə bir üzücü hadisənin baş verməsini kanalımızla əlaqələndirmək bütün məntiqi yanaşmalara ziddir. İctimaiyyətə bəyan edirik ki, bu cür söz-söhbətin, dedi-qodunun tərəfi deyilik və qətiyyən də olmaq istəmirik".

Musavat.com saytının əməkdaşı mərhumun evində də olub.

Məsələ ilə bağlı danışan mərhum direktorun yaxınları bütün günahı ATV telekanalının əməkdaşı Azər İsmayılovda görürlər.

Mərhum direktorun qızı müsavat.com-a bunları deyib: "Atamın vəfatına səbəbkar olan Azər İsmayılovdur. O gəlib qanunsuz şəkildə çəkiliş aparmasaydı, bunu efirə verməsəydi, atam indi sağ idi. Onu məhkəməyə verəcəyik. Hər şeyə görə cavab verməlidir".

Onu da öyrəndik ki, dünən günorta saatlarında məktəbə 2 nəfər valideyn gəlib. Onlar mərhum direktorla mübahisə ediblər.

**Mübahisənin səbəbini öyrənə bilmədik. İddia edilir ki, direktor bu mübahisədən sonra dünyasını dəyişib.**

**❑ Məhəmməd TÜRKMƏN**
**❑ Könül İBRAHİM**

# İki deputatın söz savaşına həmkarlarından reaksiyalar gəldi

## Elman Məmmədov: "Burada başqa məqsəd yoxdur"
## Fərəc Quliyev: "Qaçqınkom"da bu cür halların olduğunu deyirsə..."

**Prezident İlham Əliyevin məcburi köçkünlərə 36 manat aylıq vahid müavinətin təyin edilməsi ilə bağlı verdiyi fərmana reaksiyalar müxtəlifdir.**





Mövqelərin bir qismi bundan ibarətdir ki, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin səlahiyyətlərini azaltmaq, qurum daxilindəki korrupsiya hallarını aradan qaldırmaq üçün belə fərman verilib. Digər bir mövqe də bununla bağlıdır ki, məcburi köçkünlərə edilən güzəştləri mərkəzləşdirmək üçün belə addım atılıb. "Qaçqınkom"un ləğv edilməsi üçün belə fərmanın imzalandığı barədə fikirlər də var.

Artıq fərmanla bağlı parlament daxilində də mövqelər fərqlənir. Deputat Çingiz Qənizadənin fərmana münasibət bildirərkən, "Qaçqınkom" daxilində korrupsiya hallarının olması ilə bağlı fikirlər səsləndirməsi onu həmkarı, zəngilanlı deputat İmamverdi İsmayılov ilə üz-üzə qoyub. Günlərdir iki deputat arasındakı "söz savaşı" səngimək bilmir.

Həmkarlarının iki deputatın savaşına mövqelərini aldıq.

**Xocalılı deputat Elman Məmmədov** deyilən fikirlərlə razı deyil: "Sizin qəzetə də bu barədə açıqlama vermişəm. Bu fərmanın verilməsində yeganə məqsəd dövlət büdcəsindən məcburi köçkünə ayrılmış vəsaitin heç kimin qarışacağı olmadan birbaşa həmin məcburi köçkünün özünə çatdırılmasıdır. Burada başqa məqsəd yoxdur. Doğrudur, cəmiyyət daxilində istər rəsmi, istərsə də qeyri-rəsmi səviyyədə neqativ halların olması ilə bağlı fikirlər səslənib. Aidiyyəti qurumlar arasında köçürmə əməliyyatları gedirdi, yəni qaz, işıq və su ilə bağlı xərcləri "Qaçqınkom" aidiyyəti qurumlara köçürürdü. Bu zaman insanlar bəzi şeylər düşünürdülər. Bu versiyaların aradan qaldırılması, vəsaitin birbaşa məcburi köçkünə nəğd pulla çatması üçün cənab prezident bu fərmanı imzaladı. Yerinə imzalanmış çox müsbət bir fərmandır. Bu qərarı alqışlayıram. Artıq məcburi köçkün əmindir ki, dövlətimiz ayda ona 36 manat pul verir və o, nə cür istəsə, həmin məbləğdən istifadə edə bilər, müvafiq qurumların fəaliyyətini gözləmədən. Çünki həmin təşkilatların o pula müdaxiləleri yoxdur. Nə qədər qaz, işıq, su sərf etsən, özün ödəyəcəksən".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** iki həmkarı arasındakı qarşıdurmaya münasibət bildirmək istəmədiyini söylədi: "Hər kəsin fikir bildirmək haqqıdır və bu baxımdan onlar barədə nəsə demək istəmirəm. Fərmanda bir çox məsələlər var. Orada açıq şəkildə göstərilib, hətta bunu məcburi köçkün deputatlar da deyiblər. Məcburi köçkünlər arasında ərazi dəyişiklikləri olub. Həmin ərazilərdə ödəmələrdə müəyyən anomal hallar yaranıb. Bu baxımdan ödəmələri məcburi köçkünlərin özlərinin ödəməsi daha münasib sayılıb. Digər tərəfdən zorla öz torpaqlarından çıxarılandan sonra məcburi köçkünlərin bir qismi işlə təmin olunub, dövlət idarələrində çalışırlar. Mənzillə təmin olunanlar da var. Bunlar əhalidən heç də fərqlənmirlər. Doğru olaraq müavinətlər onlara verilməyəcək. Amma imkanı zəif olanlar, iş yeri və evlə təmin olunmayanların müavinətləri kəsilmir. 36 manat kartlar vasitəsilə onların özlərinə veriləcək. Əgər deputat "Qaçqınkom"da bu cür halların olduğunu deyirsə, ondan soruşmaq lazımdır ki, bunu əsaslandırsın".

**❑ Cavanşir ABBASLI**



# Dəm pəncərəsi

Samir SARI

**Qışda pəncərəni açıq qoymaq da bu köçkünlərdə, eləcə də əhalinin kasıb təbəqəsində nə şakərdir, türkün sözü, bir türlü anlamış deyiləm. İllah da açıq qoyacaqlar.**

Elə olmasa, o boyda deputat, nazir və sair və ilaxır məmurlar bunu dilə gətirməz, həyəcan təbili çalmazdılar.

Məqsəd nədir, bilinmir. Əcəba, onları buna (yəni soyuq havada pəncərəni açıq qoymağa) nə vadar edir, anlayan, bilən yoxdur.

Deyək ki, hökumətin müftə verdiyi qazdan, işıqdan bolabol yandırırsan, a köçkün qardaş, ev isti olur, tablaşmaq olmur, nədən pəncərəni açıq qoyursan, qazı, elektrik sobasını söndür, içərinin havasını tənzimlə, ta niyə pəncərəni açırsan?

Kimə deyirsən? Bu sadə həqiqəti heç kim anlamaq istəmir. İçərini isidib fin hamamına döndərirlər, sonra alınlarından puçur-puçur tər damcılayanda durub pəncərəni (bəzi hallarda isə hətta qapını) açırlar ki, içəri bir az sərinləsin.

Eşitdiyimə görə, bəzi israfçı köçkünlər müftə enerjiylə işləyən qaz və elektrik sobalarının yaratdığı buxarxana mühitinə dözməyəndə durub qışda kondisioneri də yandırırlar ki, sərin külək vursun. Nə veclərinə, elektrikə pul vermirlər axı.

İndi bu yerdə fasilə edib, nəfəs dərib, "bunlar zarafat idi" yazmasam, buna inanan xeyli oxucu olacaq yəqin ki.

Məsələ isə belədir: qışda isti otaqda oturub sərinləmək üçün pəncərəni açıq qoymaq söhbəti, yumşaq desək, hətta çox yumşalda-yumşalda pambığa döndərərək söyləsək, yalandır, uydurmadır, iftiradır.

Belə bir fakt harda qeydə alınıb? O deyilən hərarət (yəni otağı pəncərəni açıq qoymağa vadar olacaq qədər isitmək) yalnız oliqarxların şəxsi və kommersiya xarakterli saunalarında ola bilər. Başqa harada otaqları o cür qızdırmaq mümkündür ki?

Həm də neçə illərdir köçkünlərin enerjidaşıyıcılarının istehlakına dair limitləri var, bir otaqda lampanı (mətbəxdə qaz plitəsinin bir gözünü) yanılı qoyduqlarında limiti aşırlar və istifadə etdikləri enerjinin pulu ödəyirlər. Köçkün dəli deyil ki, evini saunaya dönəcək qədər qızdırsın, sonra da durub qapı-pəncərəni açsın.

Ona görə də bir ağasaqqal adam bu iddialarla çıxış edən rəsmi şəxslərə deməlidir ki, başqa söz, başqa obrazlı ifadə tapın danışın, camaatı güldürməyin.

Budur, bax, parlament sədrinin birinci müavini Ziyafət Əsgərov deyib ki, Azərbaycan böhrandan yan keçdi.

Biz buyuq. Bütün dünya böhranın düz ortasıyla getdi, o tərəfə keçməyə çalışdı, nə qədər dövlət o böhranın çirkabına, zir-zibilinə bulaşdı, amma biz yolumuzu azacıq çəpəki saldıq, böhranın böyrüylə fırlanıb getdik.

Bir göl düşünün. Bir var, gölün o tərəfinə keçmək üçün suya kəllə vurasan, ya da qayığa-filana oturub qan-tərə bata-bata avar çəkəsən, bir də var, gölün qırağıyla sələn-sələn, yaşılbaş sonalara tamaşa edə-edə, gölün o üzünə gedəsən. Düzdür, bu halda yolun bir az uzanacaq, vaxt çox gedəcək, zato (söz budur e) gölə kəllə vuranla, avar çəkənlə sənin riskin eyni deyil. Kəllə vuranın batmaq ehtimalı böyükdür, avar çəkənin isə həm batmaq, həm də çox əziyyət çəkmək riski var.

Ağlı olan belə məsələlərdə riskə getməz. Allah kəssin risklərdən gələn şampanı. Təcrübə göstərir ki, bəzən şampan içmək üçün qeyri-qanuni riskli işlər görənlərin də masasının üstünə axırda şampan qoyurlar. Məsələn, deyirlər, o vaxt MTN-nin (Mahmudovun Torbatikmə Nazirliyi) reket generalları bəzi höcət "qurban"larına tələb edilən şeyi (lazmi ifadə, xərac) vermədikləri təqdirdə seçim imkanı yaradırmışlar, deyirmişlər, seçin, ya şampan butulkası, ya da "Sarıkız" şüşəsi. İbrətamizdir ki, "Sarıkız" şüşəsi şampan butulkasından qat-qat yığcam olsa da, "qurban"lar onu da seçmirmişlər (bizimkilərə də bir şey bəyəndirmək olmur), istənilənı verirmişlər, Allah da qapılarını açırmış.

İşə baxın, söhbət pəncərəni açıq qoymaqdan başladı, qapı açmağa gəldi.

# Məktəbinə "Yoxlama" gələn direktor öldü

## Vəfat edən məktəb rəhbərinin qızı danışdı: "Atamın ölümündə günahkar Azər İsmayılovdur, onu məhkəməyə verəcəyik"; ATV açıqlama yaydı; "Bizə irad bildirilməyib"

**Bir müddət öncə ATV-də yayımlanan "Yoxlama" verilişinin aparıcı Azər İsmayılov Xətai rayonu Zaur Məmmədov adına 171 saylı məktəbdə olub və məktəb rəhbərliyinin razılığı olmadan çəkiliş aparıb.**

Baku.ws xəbər verir ki, çəkiliş yayımlandıqdan sonra məktəb direktoru Telman Qardaşovun səhhətində problem yaranıb. Vəziyyəti ağırlaşan direktor yanvarın 27-də dünyasını dəyişib.

Xatırladaq ki, yanvarın 11-də ATV-nin yoxlama verilişi sözügedən məktəbdə yoxlama aparıb və ciddi nöqsanlar aşkar edib.

Musavat.com məsələni aydınlaşdırmaq üçün 171 saylı məktəb ilə əlaqə saxlayıb.

Özünü məktəbin qapıçısı kimi təqdim edən şəxs kollektivin mərhum direktorun evinə getdiyini bildirib: "Mən məktəbin qapıçısıyam. Direktorun ölüb-ölmədiyini dəqiq bilmirəm. Məlumatı eşidən kimi məktəbin bütün kollektivi Telman bəygilə getdi. Hamı oradadır, 1 saat sonra əlaqə saxlasanız, dəqiq məlumat verərəm. İndidən deyim ki, jurnalistlər buraya gəlməsin. İçəri heç kimi buraxmırıq. Dəqiq məlumat gözləyirik. Bir azdan əlaqə saxlayın".

Məsələ ilə bağlı proqramın aparıcısı Azər İsmayılovla da əlaqə saxladıq. O, direktorun ölümü barədə danışmaq istəmədiyini bildirdi: "ATV-dən rəsmi açıqlama yayılıb. Mən əlavə nə isə deyə bilmərəm. Mənim demək istədiyim hər şey artıq deyilib. Xəbər portalları direktorun ölümü ilə bağlı yazılan xəbərlərin başlığında mənim və proqramımın adını hallandırır. Bunu normal qarşılayıram. Çünki mərhum biz çəkiliş etdikdən sonra mətbuatda açıqlamalar vermişdi. Deyəcək başqa




sözüm yoxdur".

ATV-dən verilən açıqlamada isə deyilir: "Xətai rayonu 171 saylı orta məktəbin direktoru Telman Qardaşovun ölüm xəbəri bizi dərindən kədərləndirdi. Hər insan ölümü kimi bu ölüm hadisəsi də məyusedicidir.

Səmimi qəlbdən Telman Qardaşovun ailəsinə və yaxınlarına baş sağlığı verir, səbr diləyirik. Ünvanımıza yönəldilən ittihamı isə kökündən qərəzli və absurd hesab edir, mərhumun oğlunun kədərini nəzərə alıb səbirlə qarşılayırıq. Bəli, 05.01 2017 ci il tarixdə sözü gedən məktəbdə çəkiliş aparmışıq və 11.01.2017-ci il tarixdə o veriliş efirdə yayımlanıb. Hər şey ictimaiyyətin gözü qarşısında baş verib. Verilişin efir gününə qədər ünvanımıza yönəldilən şər və böhtanlar da, yalanlar da...

Veriliş efirə getdikdən sonra isə bütün həqiqətlər ortaya çıxdı.

Biz öz işimizi görmüşük. Nə Təhsil Nazirliyindən, nə Bakı şəhər Təhsil idarəsindən, nə də digər qurumlardan ünvanımıza irad bildirilməyib. MTRŞ isə açıqlamasında verilişdə heç bir qanunauyğunsuzluğun olmadığını bildirib. Məlum verilişin çəkilişindən və efir günündən bu qədər vaxt keçdikdən sonra belə bir üzücü hadisənin baş verməsini kanalımızla əlaqələndirmək bütün məntiqi yanaşmalara ziddir. İctimaiyyətə bəyan edirik ki, bu cür söz-söhbətin, dedi-qodunun tərəfi deyilik və qətiyyən də olmaq istəmirik".

Musavat.com saytının əməkdaşı mərhumun evində də olub.

Məsələ ilə bağlı danışan mərhum direktorun yaxınları bütün günahı ATV telekanalının əməkdaşı Azər İsmayılovda görürlər.

Mərhum direktorun qızı müsavat.com-a bunları deyib: "Atamın vəfatına səbəbkar olan Azər İsmayılovdur. O, gəlib qanunsuz şəkildə çəkiliş aparmasaydı, bunu efirə verməsəydi, atam indi sağ idi. Onu məhkəməyə verəcəyik. Hər şeyə görə cavab verməlidir".

Onu da öyrəndik ki, dünən günorta saatlarında məktəbə 2 nəfər valideyn gəlib. Onlar mərhum direktorla mübahisə ediblər.

Mübahisənin səbəbini öyrənə bilmədik. İddia edilir ki, direktor bu mübahisədən sonra dünyasını dəyişib.

❑ Məhəmməd Türkmən
❑ Könül İbrahim

# İki deputatın söz savaşına həmkarlarından reaksiyalar gəldi

**Elman Məmmədov:** "Burada başqa məqsəd yoxdur"
**Fərəc Quliyev:** "Qaçqınkom"da bu cür halların olduğunu deyirsə..."

**Prezident İlham Əliyevin məcburi köçkünlərə 36 manat aylıq vahid müavinətin təyin edilməsi ilə bağlı verdiyi fərmana reaksiyalar müxtəlifdir.**

Mövqelərin bir qismi bundan ibarətdir ki, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin səlahiyyətlərini azaltmaq, qurum daxilindəki korrupsiya hallarını aradan qaldırmaq üçün belə fərman verilib. Digər bir mövqe də bununla bağlıdır ki, məcburi köçkünlərə edilən güzəştləri mərkəzləşdirmək üçün belə addım atılıb. "Qaçqınkom"un ləğv edilməsi üçün belə fərmanın imzalandığı barədə fikirlər də var.

Artıq fərmanla bağlı parlament daxilində də mövqelər fərqlənir. Deputat Çingiz Qənizadənin fərmana münasibət bildirərkən, "Qaçqınkom" daxilində korrupsiya hallarının olması ilə bağlı fikirlər səsləndirməsi onu həmkarı, zəngilanlı deputat İmamverdi İsmayılov ilə üz-üzə qoyub. Günlərdir iki deputat arasındakı "söz savaşı" səngi-





mək bilmir.

Həmkarlarının iki deputatın savaşına mövqelərini aldıq.

Xocalılı deputat Elman Məmmədov deyilən fikirlərlə razı deyil: "Sizin qəzetə də bu barədə açıqlama vermişəm. Bu fərmanın verilməsində yeganə məqsəd dövlət büdcəsindən məcburi köçkünə ayrılmış vəsaitin heç kimin qarışacağı olmadan birbaşa həmin məcburi köçkünün özünə çatdırılmasıdır. Burada başqa məqsəd yoxdur. Doğrudur, cəmiyyət daxilində istər rəsmi, istərsə də qeyri-rəsmi səviyyədə neqativ halların olması ilə bağlı fikirlər səslənib. Aidiyyəti qurumlar arasında köçürmə əməliyyatları gedirdi, yəni qaz, işıq və su ilə bağlı xərcləri "Qaçqınkom" aidiyyəti qurumlara köçürürdü. Bu zaman insanlar bəzi şeylər düşünürdülər. Bu versiyaların aradan qaldırılması, vəsaitin birbaşa məcburi köçkünə nəğd pulla çatması üçün cənab prezident bu fərmanı imzaladı. Yerinə imzalanmış çox müsbət bir fərmandır. Bu qərarı alqışlayıram. Artıq məcburi köçkün əmindir ki, dövlətimiz ayda ona 36 manat pul verir və o, cür istəsə, həmin məbləğdən istifadə edə bilər, müvafiq qurumların fəaliyyətini gözləmədən. Çünki həmin təşkilatların o pula müdaxiləleri yoxdur. Nə qədər qaz, işıq, su sərf etsən, özün ödəyəcəksən".

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev iki həmkarı arasındakı qarşıdurmaya münasibət bildirmək istəmədiyini söylədi: "Hər kəsin fikir bildirmək haqqıdır və bu baxımdan onlar barədə nəsə demək istəmirəm. Fərmanda bir çox məsələlər var. Orada açıq şəkildə göstərilib, hətta bunu məcburi köçkün deputatlar da deyiblər. Məcburi köçkünlər arasında ərazi dəyişiklikləri olub. Həmin ərazilərdə ödəmələrdə müəyyən anomal hallar yaranıb. Bu baxımdan ödəmələri məcburi köçkünlərin özlərinin ödəməsi daha münasib sayılıb. Digər tərəfdən zorla öz torpaqlarından çıxarılandan sonra məcburi köçkünlərin bir qismi işlə təmin olunub, dövlət idarələrində çalışırlar. Mənzillə təmin olunanlar da var. Bunlar əhalidən heç də fərqlənmirlər. Doğru olaraq müavinətlər onlara verilməyəcək. Amma imkanı zəif olanlar, iş yeri və evlə təmin olunmayanların müavinətləri kəsilmir. 36 manat kartlar vasitəsilə onların özlərinə veriləcək. Əgər deputat "Qaçqınkom"da bu cür halların olduğunu deyirsə, ondan soruşmaq lazımdır ki, bunu əsaslandırsın".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017

**İsrail İrana qarşı son günlərdə açıq siyasətə keçib. Günlər öncə İran xalqına müraciəti yayılan İsrailin baş naziri Benyamin Netanyahu indi də rəsmi Tehranla bağlı ABŞ başda olmaqla, Qərb dövlətlərinə mesaj ünvanlayıb.**

# İsrail İrana qarşı açıq siyasətə başlayır - Azərbaycanın maraqları da təhlükədə?

## ABŞ müttəfiqlik təklifinə nə deyəcək? **Ekspert:** "Tramp nüvə anlaşmasının üstündən xətt çəksə, vəziyyət yenidən bölgənin əleyhinə dəyişəcək"


Benyamin Netanyahu

"İran yəhudi dövləti üçün böyük təhlükə mənbəyidir". Axar.az xəbər verir ki, bunu İsraildəki xarici ölkə səfirləri qarşısında çıxışı zamanı Netanyahu söyləyib. O, ABŞ prezidenti Donald Trampın dövründə beynəlxalq ictimaiyyətin İrandan gələn təhdidlə bağlı susmayacağına inandığını bildirib.

Qeyd edək ki, İsrail bundan öncə dəfələrlə ABŞ-ı İranla nüvə razılaşmasını ləğv etməyə çağırıb. Tel-Əvivin fikrincə, bu razılaşma İranın nüvə silahına çatmaq imkanlarını daha da artırır. Üstəlik, İran sanksiyaların ləğvi sayəsində gəlirlərini artırıb ki, bu da ona Yaxın Şərqdəki dayaqlarını gücləndirməyə şərait yaradıb.

Politoloq Elxan Şahinoğlu İsrailin Amerikaya müttəfiqlik təklif etdiyini bildirdi: "Netanyahu İranı yəhudi dövləti üçün böyük təhlükə mənbəyi sayaraq, Trampın İrandan gələn təhdidlərlə bağlı susmayacağını bildirib. Belə görünür ki, İsrail Amerika, xüsusilə, Qərbə İrana qarşı birgə müttəfiqlik təklif edir. Tramp seçkiqabağı vədlərinin yerinə yetirilməsiylə məşğuldur, ölkəsini Sakit Okean Ticarət İttifaqından çıxartdı, Meksika ilə divar tikintisinin anonsunu verdi. Tramp andiçmə mərasimində dediyi kimi, ilk öncə Amerikanı düşünür və onun addımları da buna köklənib. O, Barak Obamanın etdiklərinin üstündən xətt çəkir və onun fərmanlarını geri çevirir, hətta Fələstinə ayrılan pulun verilməyəcəyi bildirilib. Ancaq Tramp Obamanın uzun illər gərgin danışıqlar nəticəsində İranla nüvə razılaşmasının üstündən niyə xətt çəkəcəyi məsələsi müəmmalı qalır. Axı hazırda İran nüvə silahı hazırlamır. Tramp İranla bağlı verdiyi vədi də yerinə yetirib Amerikanın nüvə razılaşmasındakı imzasını geri çəkərsə, bu dünyada və Avrasiya bölgəsində növbəti qorxunc durum yaradacaq. Netanyahu ölkəsinin maraqlarından çıxış edərək İrana qarşı sanksiyaların yenidən sərtləşdirilməsini istəyir, o Tehranın vədlərinə inanmır və İranın gələcəkdə nüvə silahına yiyələnəcəyini proqnozlaşdırır. O da bəllidir ki, Tramp Böyük Britaniya ilə yanaşı, İsraillə də sıx ittifaqı bərpa etmək istəyir. Obamanın dövründə İsrail hakimiyyətinə münasibət tənqidi idi, Ağ Ev sahibi Netanyahunu Vaşinqtonda görmək istəmirdi. Tramp isə əksinə, İsraillə münasibətləri yenidən üst səviyyəyə qaldırmaq istəyir, hətta səfirliyi Tel-Əvivdən Qüdsə köçürmək istəyir ki, bu da dünyada narahatlıq doğurur. Çünki Qüdsün bir hissəsi mübahisəlidir və gələcəkdə yaranacaq Fələstin dövlətinə veriləlidir. Əslində səfirliyin köçürülməsi qərarı ABŞ-ın keçmiş prezidenti Bill Klintonun vaxtında verilib, sadəcə heç bir prezident İsrail-Fələstin danışıqlarında tərəfsizliyə kölgə salmamaq üçün səfirliyi köçürməyə risk etməyib. Ancaq indi əgər Tramp bu vədini də yerinə yetirəcəksə, tək fələstinlilərin və İslam dünyasının deyil, tərəfdaş Avropa İttifaqının da narazılığına səbəb olacaq".

Politoloq İran məsələsindəki Rusiya faktoruna da toxundu: "Putin Trampla yaxınlaşmaq istəyir. Ağ Evin yeni sahibi də beynəlxalq terrorçulara qarşı mübarizədə Kreml sahibi ilə əməkdaşlıq edəcəyini bildirib. Ancaq Tramp İranla nüvə anlaşmasının üstündən xətt çəkərsə, bu Moskvanın da ciddi narahatlığına səbəb olacaq. O zaman bu qərar Tehranı həqiqətən nüvə silahı əldə etməyə həvəsləndirə bilər. Bu isə bölgə ölkələrindən heç birinin, o cümlədən Rusiyanın maraqlarına cavab vermir. Digər tərəfdən, İrana qarşı raket zərbələri yenidən gündəmə gələcək ki, bu da beynəlxalq gündəmi yenidən məşğul edəcək. Halbuki, gündəm onsuz da ağırdır, İraq, Suriya və Liviya kimi ölkələrdə müharibələr gedir və beynəlxalq aləm hələ heç bu məsələləri həll edə bilmir. Netanyahu İran xalqına müraciətində deyir ki, o İran rejiminin əleyhinədir, İran xalqını isə dost adlandırır, hətta bu cür cümlələr işlədib: "Siz iftixarlı bir tarixin sahibisiniz. Sizin zəngin mədəniyyətiniz var. Lakin təəssüflər olsun ki, bir dini istibdad vasitəsilə zəncirlənibsiniz. Arzu edirəm elə bir gün gəlsin ki, iranlılarla israillilər bir daha azad şəkildə Tehranda, İsfahanda və ya İyerusalim və Tel-Əvivdə bir-birləri ilə görüşə bilsinlər". Netanyahu faktiki İran xalqına göndərdiyi video müraciətdə iranlıları rejimə qarşı inqilaba çağırıb. Onun "İranda dəyişiklik təşnəsi olan cavan və igid iranlı tələbələrin 2009-cu ildə Tehran küçələrində güllələ tuş gəlməsini unutmayacağam və heç vaxt gözəl Neda Ağa Sultanın küçə ortasında aldığı güllə nəticəsində verdiyi son nəfəslərini yaddan çıxarmayacağam" ifadəsi də bundan xəbər verir. Başqa sözlə, Netahyahu İran rejimi ilə xalqı arasında bərabərlik işarəsi qoymadığını bildirib. Bu Netanyahuya ona görə lazımdır ki, hakimiyyətdən narazı olan İran əhalisinin bir hissəsi rejimə qarşı daha fəal mübarizə aparsın. Netahyahunun müraciətindəki cümlələr isə ondan xəbər verir ki, o İranda baş verən bütün proseslərdən xəbərdardır. Sirr deyil ki, İsrail xəfiyyəsi hətta İranda da güclüdür. Təsadüfi deyil ki, İranda nüvə çalışmaları var gücü ilə davam edəndə bu işdə rol alan iranlı alimlər ard-ardına müəmmalı şəkildə evlərinin qarşısında qətlə yetirilirdilər".

E.Şahinoğlu İranla münasibətlərin kəskinləşməsinin ölkəmizə müsbət heç nə vəd etmədiyini də söylədi: "Nüvə məsələsi ilə bağlı Amerika ilə İran arasında münasibətlər gərgin olanda Tehrandan Azərbaycana ciddi təhdidlər var idi. Tehranda bəziləri deyirdi və yazırdı ki, guya Amerika və İsrail İrana qarşı hücumlarda Azərbaycan ərazisindən istifadə edəcək, hətta Amerikanın və İsrailin hərbi təyyarələrinin artıq Azərbaycandakı bazalarda yerləşdirilməsinə dair yalan xəbərlər də yayılırdı. Halbuki, bu bizim maraqlara cavab vermirdi, indi də vermir. Dəfələrlə Azərbaycan rəsmiləri iranlı həmkarlarının sakitləşdirməyə çalışsalar da, Tehran buna inanmırdı. Aydın idi ki, Amerika və İsrail həqiqətən İrana zərbələr endirərsə, Azərbaycan ciddi humanitar böhranla üz-üzə qala bilərdi, çünki on minlərlə İran vətəndaşı Arazın bu tayına keçəcəkdi. Hazırda nüvə məsələsi gündəmdə deyil, Azərbaycanla İran arasında ortaq layihələr reallaşır, müəssisələr tikilir. Ancaq Tramp nüvə anlaşmasının üstündən xətt çəkərsə, vəziyyət yenidən bizim və bölgənin əleyhinə dəyişəcək".

❑ **Cavanşir ABBASLI**



# "AŞ PA-da korrupsiyaya qarşı komissiyanın yaradılması ermənipərəst deputatları pis vəziyyətə salacaq"

## Qurumun daxilində xüsusi komissiyanın yaradılması məntiqli və səmimidirmi; **"Hüquq müdafiəçisi Əvəz Həsənov:** "AŞPA-nın korrupsiyaya uğraması barədə mülahizə yeritmək düzgün deyil"

**Yanvarın 24-də Strasburqda başlanan Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası başa çatıb. Sessiyada AŞPA-nın prezidenti və vitse-prezidenti, Avropa İnsan Haqları Məhkəməsinin hakimləri vəzifəsinə seçkilər keçirilib. Parlament üzvləri Bolqarıstanda prezident və Makedoniyada parlament seçkilərinin monitorinqinin nəticələrinə dair hesabatları müzakirə edib qiymətləndiriblər. AŞ PA deputatları qarşısında Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti üzrə komissarı, Kipr prezidenti və Rumıniya Prezidenti çıxış edib. Həmçinin Avropada jurnalistlərə hücum və media azadlığı, Qəzzada humanitar böhran, Ukraynada demokratik təsisatların fəaliyyəti müzakirə olunub.**

AŞPA-nın qış sessiyasında qurumun daxilində korrupsiya hallarının araşdırılması məqsədilə komissiya yaradılıb.

Qeyd edək ki, AŞ PA-nın bir sıra rəsmilərinin adları indiyə qədər rüşvət almaqda çəkilib. Adı vaxtaşırı korrupsiya və rüşvətdə çəkilən beynəlxalq təşkilatın indi korrupsiyaya qarşı komissiya yaratması məntiqli və səmimidirmi?

Hüquq müdafiəçisi Əvəz Həsənov bildirdi ki, AŞ PA-nın korrupsiyaya uğraması barədə mülahizə yeritmək düzgün deyil. Bu qurumun ayrı-ayrı üzvləri korrupsiya əməlində ittiham oluna bilər. Lakin bunu bütün quruma aid etmək ədalətli olmazdı: "O üzdən də AŞ PA onun adına səslənən korrupsiya ittihamlarını dəqiqləşdirmək üçün tədqiqatın aparılmasını istəyir və mən əminəm ki, bunu kifayət qədər şəffaf edərək günahı olan deputatları cəzalandıracaqlar. Çünki onlar üçün AŞPA-nın reputasiyası hansısa deputatın reputasiyasından və mənafeyindən daha üstündür.

Hesab edirəm ki, Azərbaycan tərəfi də bu araşdırma komissiyası ilə açıq işləməli, ölkəmizin AŞ PA nümayəndə heyətinin nüfuzunun qorunmasında maraqlı olmalıdır".

AMİP katibi Əli Orucov isə qeyd etdi ki, AŞ PA kimi nüfuzlu və mötəbər bir qurumun adının korrupsiya, rüşvət qalmaqallarında hallanmışı xoşagələn hal deyil. Belə bir vəziyyətin ortaya çıxmasına isə AŞ PA-nın ayrı-ayrı deputatları səbəb olublar. İndi belə görünür ki, AŞ PA rəhbərliyi də qurumun nüfuzuna zərər vuran korrupsiya ittihamlarının araşdırılması və tədbir görülməsini istəyirlər: "Müasir dünyamızın az qala həsəd apardığı və nümunə götürdüyü, etalon olaraq qəbul etdiyi Avropa yetkililərinin rüşvətə bulaşması faktlarının zaman-zaman ortaya çıxması bu qanunsuzluğun da artıq transmilli xarakteri aldığının göstəricisi sayılmalıdır. Eyni zamanda bu hal korrupsiyalaşmış rejimləri daha da həvəsləndirir. Məhz bunun nəticəsidir ki, avtoritar rejimlər uzun müddət hakimiyyətlərini qoruya bilir, özləri isə toxunulmaz qalırlar. Korrupsiya hallarının araşdırılması məqsədi ilə komissiyanın yaradılması zənn etmirəm ki, bu neqativ halları aradan tamam qaldıra biləcək. Məncə, daha ciddi və sərt cəza üsulları tətbiq edilməlidir. Rüşvətə meylli avropalı parlamentarilər daha çox qeyri-demokratik rejimlərdən bəhrələnirlər. İnsanların az-çox ümid bəslədikləri, inandıqları və xilas yeri kimi baxdıqları beynəlxalq qurumlardakı belə neqativ vəziyyətin yaranması son ümidləri də alt-üst edir ki, bu də nəticə etibarı ilə radikalizm meyllərini gücləndirir.

Hər halda ümid edək ki, nəhayət AŞ PA-da bu sahədə vəziyyətin artıq kritik həddə gəlib çatdığını anlayıblar və görüləcək tədbirlər də məntiqə uyğun və səmimi olacaq". Partiya rəsmi hesab edir ki, əks halda AŞ PA-nın özünün heç mənası qalmaya bilər.

Burada bir maraqlı məqama da diqqət yetirmək lazımdır ki, AŞ PA-da zaman-zaman Azərbaycan əleyhinə qərarlar qəbul etdirmək cəhdləri üçün erməni lobbisinin bir sıra AŞ PA- üzvləri ilə aldıqları faktlar var. Ekspertlər hesab edir ki, AŞ PA-da korrupsiya ilə məşğul olanlar əsasən ermənipərəst parlamentilər və Rusiyanın nəzarətində olan sosialist qurun təmsilçiləridir. Hansı ki, onlar zaman-zaman ermənilərin xeyrinə, Azərbaycan dövlətinin əleyhinə qərarlar çıxarılması üçün dəridən-qabıqdan çıxıblar. Bu baxımdan, AŞ PA-da korrupsiya faktlarını araşdıran komissiyanın yaradılması ermənipərəst deputatları pis duruma sala bilər.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017



# Alternativ faktlar

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud qatıq qəhvəyi də ola bilər

**Amerikanın təzə prezidenti Tramp əsl bizim adamdır. Təkcə qohumbazlıq və sairə bazlıqları ilə dünyada ala itdən məşhur olmasına görə deyil. Hakimiyyətinin ilk günlərində Meksika ilə sərhəddə hasar tikmək qərarını açıqladı, hazırda qızğın iş gedir. Azərbaycanda hasarlama prosesi çoxdan vardır. Hətta Qobustanda qəsəbəni iki yerə bölmüşdülər, qobustanlı şairlər hasarın üstündən bir-birinə baxıb "ayrılıq, Araz çayı, Təbriz" temalarında şeirlər qoşurdular. O cümlədən bir çox yerdə dənizə girməyimiz, dənizə baxmağımız uca hasarlar üzündən qadağan edilibdir. Hasarlarımız o dərəcə hündürdür ki, quş üstündən uçsa qanad çalar. Yayda Fatmayı, Goradil tərəflərə gedəndə şəxsən mən özümü Texasa qanunsuz girmək istəyən meksikalı kimi hiss edirəm. Yol qırağındakı dükandan sombrero da almışdım, tam obraz yaranmışdı. (O hasarlar həm də Ermənistanın "dənizdən dənizə Böyük Ermənistan" xülyasına qarşı tikilib. Haranı alsalar da, Abşerondan dənizin üzünü görə bilməyəcəklər! Müsbət şeyləri də görməliyik.)**

Başqa bir detal da var. Tramp ABŞ prezidentləri arasında bir növ anti-rekorda imza atıbdır. Bu, ilk prezidentdir ki, hakimiyyətə gəldiyi anda nə az, nə çox - 62 məhkəmə iddiası ilə üzbəüzdür. Bunların çoxunu Trampın əleyhinə qaldırıblar, bir neçəsində də deyəsən bunun özü kimisə məhkəməyə veribdir.

Eynilə bizim ölkədir. Bizdə də hamı qanun qarşısında bərabərdir. Şah qanun deyil, qanun şahdır. Məsələn, bir prezident var idi, ona qarşı hətta 300 adam iddia qaldırmışdı. Düzdür, evtikmə şirkətinin prezidenti idi, tikilməmiş binadan xəyali mənzillərin hərəsini azı 3 real adama sırımışdı, ancaq nə dəxli? Əsas vəzifənin adıdır.

Trampın mətbuat katibi Şon Spayser isə elə birinci brifinqdə gopa basdı, jurnalistlər onun yalanını tutdular. Bu haqda Tramp administrasiyasına, konkret yazsam Trampın müşaviri Kellien Konueyə sual verəndə isə belənçik cavab gəldi: "O, yalan deməyib, alternativ faktları söyləyib". Əla mövqedir. Klassik azərbaycanlı məntiqidir. Bizdə yalan danışanlar həmişə bunu "bu da mənim mövqeyimdir, bəyənmirsən, özün bil, ancaq hörmətlə yanaş" donuna bürüyürlər. Misal üçün, qatıq ağdır, ancaq onlar "qatıq qaradır" deyərək bunu da qarşı tərəfin mövqeyi, Kələ xanım demişkən, "alternativ fakt" adlandırarlar. Yanıb-tökülərsən bu həyasızlığa - başqa nə edəcəksən? Alternativ fikirdir axı. Sənin isə qabaqcadan boynuna qoyublar ki, demokratsan, gərək alternativ goplara da dözümlü yanaşasan. Həri.

Bu arada deputatxana spiker müavini Ziyafət müəllimin "Azərbaycan böhrandan çıxa bildi" sözlərini oxudum, məncə, burda yalana bənzər nəsə (alternativ fikir kimi yazıram, yoxsa mən Ziyafət müəllimin daima həqiqəti deməsinə şübhə eləməkdən vaz keçməyə məcbur olduğumu bəyan etməyə mütəəssirəm) vardı. Axı biz heç böhran görmədik! Ziyafət müəllim nəyi deyir görəsən? Azərbaycanda heç bir böhran olmayıb, olmayıbsa, bəs indi nədən çıxırıq? Neft-qaz satırıq, pambıqçılıq inkişaf edir, dövlət büdcəsindən təkcə Soğanverdilər-Dəlməmmədli-Kətəlparaq-Mıxlıqovaq kəndlərini birləşdirən müasir işıq dirəkləri və müasir asfalt örtüyü, həmçinin müasir qrabel və müasir bitumla müasir şəkildə örtülən müasir yola ayrılan pul bütün erməni lobbisinin pulundan 17 dəfə çoxdur. Hətta bekarçılıq idi, manatı atdıq hovuza, dedik üzməyi öyrənsin. İndi Bakıda ayda 60 manatdan az pul alan üzgüçülük hovuzu yoxdur, manat isə müftə üzdü. Bəs böhran nədə olub? Görünür deputatlar özləri nəsə böhran yaşayıblar. Ar olsun. Xalqdan, dövlətdən uzaq düşmək lazım deyil.

Cocuq Mərcanlıya böyük qayıdışı da üstünə gəlsən, lap bayram-bayrama qarışıb. *(İnşallah, Böyük Mərcanlıya da cocuqların qayıdışı olacaqdır)*. Hökumət kəndin indi azad olunduğunu desə də, hamı bilir ki, Cocuq Mərcanlı hələ 1994-cü ilin qışından bizim əlimizdədir. Bəs indi azad olması nə söhbətdir? Deməli, yazımızı diqqətlə oxumamısınız. Alternativ fakt elə budur də. İnanmırsan, cəhənnəmə inan, hörmət elə. Hörmət eləmirsən, başa salarıq. Başa düşməzsən, təkrar başa salarıq. Təkrar zülmün anasıdır. O qabaqlar biliyin anası idi. İndi alternativi çıxıb, öyrənmək lazımdır.

# "Üçlü vətəndaşlığı" olan cinayətkarın işində kritik gəlişmə

**İşğal altındakı Dağlıq Qarabağa qanunsuz səfərlər edib, separatçı rejimi təbliğ etdiyi və onu "müstəqil dövlət" adlandırdığı üçün Azərbaycanın qanuni sorğusu əsasında Belarusda saxlanılan yəhudi bloqqer, üçlü vətəndaşlığa (İsrail, Rusiya, Ukrayna) malik Aleksandr Lapşnin işi yekunlaşmaq üzrədir. Xəbər verildiyi kimi, yanvarın 26-da Minsk Şəhər Məhkəməsi onun Belarus Baş Prokurorluğu tərəfindən Bakıya ekstradisiyası haqda qərarından verdiyi apelyasiya şikayətini təmin etməyib.**



# İrəvan və havadarları şokda - Bakıdan prinsipial qərar...

## Lapşinin Azərbaycana verilməsi qətiləşir - yəhudi blogger ekstradisiyanın bir addımlığındadır; İsrailin nüfuzlu nəşri cinayətkarın Bakıya gətirilməsi üçün artıq Minskə təyyarə göndərdildiyini də yazıb; sayılı günlər qalır...

**Bu, o deməkdir ki, A.Lapşin ölkəmizə ekstradisiyanın bir addımlığındadır. Niyə bir addımlıqda? Ona görə ki, formal olaraq, 10 gün müddətində onun ən son instansiyaya - Belarus Ali Məhkəməsinə də apelyasiya şikayəti vermək hüququ var. Ancaq artıq aydındır ki, Belarus rəhbərliyi bloqqeri Azərbaycana təhvil verməkdə qətiyyətlidir. Əgər bundan vaz keçmək istəsəydi, vaxtı uzatmaz, elə Minsk Şəhər Məhkəməsinin qərarı ilə bunu edərdi. Deməli, rəsmi Bakı və Minsk məsələdə sonadək getməkdə qərarlıdır.**

Yada salaq ki, ötən ay bloqqer Belarusda saxlandıqdan sonra İsrail XİN-i məsələ ilə bağlı dərhal hərəkətə keçmiş, Bakıya təsir və təzyiq etmək üçün hətta Rusiya xarici işlər naziri Sergey Lavrov açıq şəkildə, bir qədər də ultimativ tonda Lapşinin Azərbaycana təhvil verilməsinin əleyhinə çıxmışdı. Eyni zamanda bloqqer və anası bağışlanmaq üçün Azərbaycan prezidenti İlham Əliyevə yazılı müraciət etmişdi...

***

Bu arada İsrailin nüfuzlu "Haaretz" qəzeti diplomatların Lapşinin ekstradisiyası ilə bağlı rəsmi Bakıya əngəl olmaq cəhdlərinin hələlik nəticə vermədiyini, əməkdaşlıq davam etdirilsə də nəyəsə nail olunacağına artıq inanmadıqlarını yazıb (virtualaz.org). Nəşrin bildirdiyinə görə, hətta İsrailin Moskvadakı səfiri Gary Koren Rusiyanın xarici işlər nazirinin müavini Sergey Ryabkovla görüşüb, Moskvanın Bakıya təsir göstərməsini istəyibmiş.

Lakin bütün bunlara baxmayaraq, yanvarın 18-də Belarusun baş prokurorunun müavini A.Lapşinin ekstradisiyası haqda sərəncam imzalayıb. Bloqqerin vəkili də sərəncama etirazını bildirərək, məhkəməyə müraciət edib. Minsk Şəhər Məhkəməsinin qərarı isə artıq bəllidir. Bunun ardınca Belarusun Ali Məhkəməsinə müraciət göndərilib. Ali Məhkəmə məsələyə fevralın 4-də baxacaq.

"Haaretz" qəzeti isə İsrail rəsmilərinə istinad edərək, bloqqeri Bakıya aparacaq təyyarənin artıq Minskə endiyini yazıb. Beləcə, son günlərədək nikbin olan İsrail rəsmiləri indi başqa ovqatdadırlar. Onlar ümid edirdilər ki, Lapşinin Azərbaycan prezidentindən yazılı üzr istəməsi kifayət edəcək ki, məsələ bağlansın. Ancaq göründüyü kimi, Bakı məsələyə gözlənildiyindən də prinsipial yanaşır, "Haaretz"in bir İsrail rəsmisindən aldığı bilgiyə görə, hətta Bakı təklifi rədd edib.

Xatırladaq ki, Azərbaycana təhvil verilərsə, Lapşini 8 ilə qədər həbs cəzası gözləyir. Yəhudi bloqqerin sonrakı taleyinin necə olacağı hələlik dəqiq bilinmir. Onun İlham Əliyev tərəfindən bağışlanması istisna deyil. Ancaq iş ondadır ki, Azərbaycanda əfv prosedurunun öz qaydaları var. Öncə Lapşinə məhkəmə cəzası kəsilməli və ardınca məhkəmə qərarı qanuni qüvvəyə minməlidir. Bundan ötrü isə vaxt lazımdır.

***

A.Lapşinin Azərbaycana ekstradisiyasından isə təbii ki, ən çox Ermənistan təlaş keçirir. Bu da məntiqlidir. Lapçin Bakıya gətirilsə və daha sonra əfv edilsə belə, bu, İrəvanın Qarabağ təbliğatına sanballı zərbə olacaq, Qarabağa bundan sonra qanunsuz səfər etmək istəyən başqa xarici vətəndaşlar üçün çəkindirici presedentə çevriləcək. Həm də münaqişə tarixində Azərbaycanın xeyrinə ilk belə presedent olacaq. Bu mənada Ermənistan və erməni lobbisinin A. Lapşin ətrafında beynəlxalq səviyyədə israrla yaratmaq istədikləri, Azərbaycanı şantaj etməyə yönəlik hay-küy iflas olmuş sayıla bilər.

Erməni tərəfini bu xüsusda təlaşlandıran həm də odur ki, Azərbaycan dost-müttəfiq olan digər MDB və qeyri-MDB ölkələri (Qazaxıstan, Qırğızıstan, Ukrayna, Özbəkistan, Türkiyə və s.) də Azərbaycanın sorğusu əsasında bənzər qərarlar verə bilər. Rusiya Ermənistanın yiyəsi olduğu üçün yəqin ki, bu sırada istisnadır. Lavrovun Lapşinə dəstəyi buna şübhə yeri qoymadı. Yeri gəlmişkən, yəhudi bloggerin Bakıya verilməsi həm də Rusiya XİN başçısının pərt edilməsi, Lavrovun sözünün saya salınmaması anlamına gələcək ki, bu da az əhəmiyyət daşımır və Azərbaycan dövlətinin öz qürurunu, ərazi bütövlüyünü hər şeydən üstün tutduğunu göstərir.

Bundan əlavə, insident son illər işğal altındakı Azərbaycan ərazilərində turizmi inkişaf etdirmək istəyən Ermənistana ciddi zərbə olardı. Məhz bu səbəbdən rəsmi Bakı məsələyə milli təhlükəsizlik maraqları çərçivəsində baxır və İsraillə möhkəm tərəfdaşlıq münasibətlərinə rəğmən, bu ölkənin bloqqerinin təqib olunmasını dayandırmaq barədə israrlı xahişlərini yerinə yetirmir.

**Təkrar edirik, Azərbaycan üçün bloggerin Bakıya ekstradisiyası onu gözləyən cəza müddətini çəkməsə belə, çox mühümdür. Rəsmi Bakı bu ekstradisiyaya nail olduqdan sonra bloggerin barəsində əfv qərarı çıxarıb onu İsrailə təhvil də verə bilər ki, bu da Azərbaycanın məsələdə qazandığı siyasi-təbliğati dividentlərə kölgə salmayacaq.**

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017

# İşğalçı ölkə həm qorxur, həm də hədələyir

## Hərbi ekspert: "Ermənistan görür ki, o, gec-tez rüsvayçılıqla işğal altında saxladıqları ərazilərdən geri çəkilməli olacaq, başqa yolu yoxdur"

**"Ermənistan tərəfi yenə çox narahatdır. Bu dəfə də onlar, "Rusiya Azərbaycana "İsgəndər" raket kompleksini sata bilər" kimi həm yoxlayıcı, həm də özlərinin narahatlığını ifadə edən bir fikir dövriyyəyə buraxıblar".**



**Hərbi ekspert Üzeyir Cəfərov** bunu bəzi erməni ekspertlərin son zamanlar ortaya atdığı yeni iddia və Rusiyanı şantaj açıqlamalarını "Yeni Müsavat"a şərh edərkən söylədi.

Qeyd edək ki, **erməni politoloq Hrant Melik-Şaxnazaryan** "Rusiya Azərbaycana "İsgəndər" raket kompleksini sata bilər" - iddiası ilə çıxış edib. Azərbaycanın Rusiyadan yeni silahlar aldığını deyən erməni ekspertin sözlərinə görə, bu məsələdə "müttəfiqi Ermənistanın maraqlarına qarşı çıxış edən"

Moskvanın da maraqları var və "bu baxımdan, "İsgəndər" raket kompleksinin Azərbaycana verilməsi istisna deyil". Bəlkə də erməni tərəf bununla qabaqlayıcı tədbir görüb Rusiyanı Azərbaycanla imzalaya biləcəyi silah müqaviləsindən çəkindirmək istəyir.

**Ü.Cəfərov isə hesab edir ki, əslində bu tip silahlar hazırda Azərbaycana lazım deyil**: "Məgər biz kiməsə qarşı hücum etməyə hazırlaşırıq və ya bizim yaxın-uzaq qonşuluğumuzda yerləşən hansısa dövlətə qarşı ərazi iddiamızmı var? Belə bir niyyətimiz olmayıb və yoxdur. Sadəcə, bizim ən müasir silah-sursatı almaqda yeganə məqsədimiz ərazi bütövlüyümüz bərpa etmək, milyonlarla qaçqın və köçkünlərimizi əzəli ata-baba torpaqlarına qaytarmaqdır. İkincisi də, hətta nəzəri baxımdan fikirləşsək ki, həqiqətən də ölkəmiz Rusiyadan "İskəndər" operativ-taktiki kompleksini almaq istəsə, guya biz Ermənistandan qorxuruq, ya icazəmi alacağıq? Rusiya indiyə qədər ölkəmizin müdafiəsi və təhlükəsziliyi üçün bizə nə qədər silah-sursat lazım olubsa, satıb və bu iş hazırda da bəzi avadanlıq və texnikalarla bağlı davam edir". **Hərbi ekspert onu da təsdiqlədi ki, biz ermənilərdən fərqli olaraq, leqal şəkildə Rusiyadan yeni silahlar aldığımızı hər zaman çəkinmədən demişik və deyirik:** "Nəzərə alsaq ki, bu məsələdə Rusiya tərəfi öz hərbi-sənayesinin məhsullarını real alıcıya satmaqda çox maraqlıdır, necə ki, satır. Yenə təkrarlayıram ki, əgər lazım olarsa, çox rahat şəkildə "İsgəndər" raket kompleksini də ala bilərik. Sual olunur ki, Ermənistan tərəfinin narahatlığı bəs, nədən irəli gəlir? Rusiyanın müttəfiqi və forpostu, vassalı olan Ermənistan nədən narahatdır? Diqqət yetirmisinizsə, ötən ilin 21 sentyabr tarixində Ermənistan hərbi paradda "İsgəndər" raketlərini nümayiş etdirdikdən sonra qulaqlarımız az qala tutulurdu ki, "Xandostu amandır, qoyma gəldi..." məsələsində olduğu kimi bunlar az qala dünyaya meydan oxuyurdular. Biz onda da dedik ki, bu, sadəcə erməni-rus blefidir və "tamaşa" çox tezliklə sona çatdı. Azərbaycan yeni nəsil silah-sursat aldığını bəyan etməklə yanaşı, o silahları da nümayiş etdirdi və sanki "qurbağa gölünə daş atıldı".

Ermənistan isə həm qorxur, həm də hədələməkdə davam edir. Bu arada Ermənistan silahlı qüvvələrinin Baş qərargah rəisi, general Movses Akopyan "Yerkir Media" telekanalına müsahibə verərək Azərbaycanı "dəqiq zərbələrlə" hədələyib. General Akopyan regionda hərbi-siyasi balansın dəyişkənliyini qeyd edib və bir sıra amillərdən asılı olduğunu bildirib. Onun sözlərinə görə, 2016-cı ildə Ermənistan silahlı qüvvələri "hərbi-siyasi xarakterli" silahlar almağa nail olub. "Kim yeni müharibə başlamağa cəhd edirsə bilməlidir ki, onlar üçün hədəfləri 15 metr dəqiqliyi ilə vuran raketlərimiz hazırlanıb. Xüsusən Azərbaycanın siyasi xadimləri bu təhlükəni hiss etməlidir, çünki məhz onlar müharibəyə başlamağa cəhd edirlər"-Akopyan bildirib.

**Movses Akopyan lovğalanmağı davam etdirərək deyib ki, yeni silahların alınması 2017-ci ildə də davam etdiriləcək.** "Əmin edə bilərəm ki, rəqibin hədəfləri müharibəyə hazırlıq ərəfəsində məhv ediləcək, onlar təmas xəttinə doğru irəliləməyə cəhd edən kimi vurulacaq"-Akopyan bildirib.

Akopyan onu da deyib ki, ötən ilin sentyabrında İrəvanda paradda nümayiş etdirilən "İsgəndər" raketləri Ermənistanın mülkiyyətidir. "Bu, bizim silahdır, onu nə vaxt hara atmağı özümüz müəyyən edirik"-o bildirib. Virtualaz.org xəbər verir ki, bu, həmin Movsesdir ki, ötən ilin aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin Baş qərargah rəisinin müavini idi və Azərbaycan ordusunun dəqiq zərbəsindən canını güclə qurtara bilmişdi. İşğal altındakı Xocavənd rayonunda general Movses Akopyanın və digər yüksək rütbəli erməni komandirlərinin cəmləşdiyi qərargaha Azərbaycan ordusunun TOS-1A "Solntsepyok" ağır odsaçanından necə dəqiq zərbə endirdiyinə dair görüntülər internetdə var.

**Ü.Cəfərovun sözlərinə görə, İrəvanın narahatlığı başadüşüləndir:** "İşğalçı görür ki, o, gec-tez rüsvayçılıqla işğal altında saxladıqları ərazilərdən geri çəkilməli olacaq, bunun başqa yolu yoxdur. Azərbaycan siyasi-hərbi rəhbərliyi yanvarın 23-də bu haqda bir daha bütün dünyaya bəyan etdi ki, Qarabağa heç vaxt müstəqillik verilməyəcək və bu haqda düşünənlər yaxşı-yaxşı götür-qoy etsinlər. Həm Ermənistana, həm də havadarlarına ünvanlanmış mesajlar yəqin ki, adreslərinə çatıb".

**Ekspert deyir ki, bu günlərdə nazir Elmar Məmmədyarovla onun rusiyalı həmkarı Sergey Lavrov arasında keçirilən görüş ona rəsmi Moskvanın bir növ üzrxahlıq niyyəti təsirini bağışladı:** "Rusiya fərqindədir ki, məhz Lavrovun son bəyanatından sonra ən sıravi vətəndaşımızdan tutmuş Azərbaycanın ali siyasi rəhbərliyinə kimi bu münasibətə kəskin etiraz səsləndirdilər. Bu da Moskvanı narahat etməyə bilməzdi. Məhz ona görə də, görüşün detalları açıqlanmasa da, yəqin ki, bu narahatçılığı aradan qaldırmaq üçün sərgilənən bir təcili təmas idi məncə. Ən sonda isə, fikrimcə, Rusiyanın ən böyük narahatçılığqlarından biri də Azərbaycan kimi böyük silah alıcısını itirmək qorxusu idi ki, onlar çalışırlar ki münasibətlər gərginləşməsin".

**Ermənilərin "İsgəndər"lə bağlı narahatlığ həm də Azərbaycan rəhbərliyinin Rusiyadan yeni silahlar alınacağı barədə bəyanatından sonraya təsadüf edb ki, bu da düşmənin narahatlığının göstəricisidir. Ancaq paralel olaraq düşmən "böyük müharibə" riskinin olduğunu nümayiş etdirməklə Azərbaycana qarşı silah embarqosunun tətbiqinə nail olmağa çalışır...**

❑ Cavid TURAN



# Britaniya baş naziri Trampı dəyişə biləcəkmi...

## Elxan Şahinoğlu: "O, Tereza Meyi diqqətlə dinləyəcək, Böyük Britaniya ilə müttəfiqliyi gücləndirmək istəyəcək, ancaq Ağ Ev sahibi öz bildiyini edəcək"

**ABŞ-a səfər edən Böyük Britaniyanın baş naziri Tereza Mey bir sıra maraqlı açıqlamalar verib. "Azadlıq" radiosunun məlumatına görə, Tereza Mey Trampla danışıqlardan əvvəl respublikaçıların Filadelfiyada keçirilən toplantısında etdiyi geniş nitqdə ABŞ prezidentinin siyasətinə şərik olduğu məqamları vurğulayıb, lakin fərqli məqamları da gizlətməyib.**

Trampı Rusiya prezidenti Vladimir Putinlə ehtiyatlı olmağa çağıran baş nazir deyib ki, ABŞ daim dünyanın yükünü iftixarla çəkir və Britaniya bu yükə şərik olması ilə fəxr edir. Xanım Mey xatırladıb ki, hər iki dünya müharibəsinə ABŞ-ın müdaxiləsi son qoyub. O deyib ki, BMT-nin islahatlara ehtiyacı olsa da, ABŞ-ın və Qərbin yaratdığı bu təsisat bu gün də əhəmiyyətini saxlayır. Tereza Mey eyni sözləri NATO-ya da aid edib və deyib ki, alyans Qərbin müdafiəsində məhək daşıdır.

Britaniya baş naziri çıxışında deyib ki, Britaniya və ABŞ bundan sonra "dünyanı öz təsəvvürlərinə uyğun şəkildə formalaşdırmaq məqsədilə" müharibələr kimi keçmişin səhvlərini buraxmayacaqlar. Bununla belə, xanım Mey əlavə edib ki, "biz təhlükələr real olanda müdaxilədən çəkinərək bir kənarda dayanmamalıyıq".

Bundan başqa, Britaniya baş naziri Rusiya və Avropa arasında gərginliyə vurğu edib, ABŞ prezidentini dolayısı ilə də olsa Putindən çəkindirməyə, ona inanmamağa, eyni zamanda Avropanı müdafiə etməyə çağırıb.

Baş nazirin bu açıqlamaları ilk növbədə Trampın hakimiyyətə gəldikdən sonra ABŞ-ın "dünya polisi" rolundan imtina edəcəyi ilə bağlı narahatlığı ifadə edir. Eyni zamanda yeni prezidentin NATO-nun fəaliyyətini tənqid etməsi, başqa ölkələrin daxili işlərinə müdaxilə etməmək və nəhayət Rusiya ilə münasibətləri yumşaldacağı ilə bağlı narahatlıq Britaniya hökumətində də ciddi narahatlıq var. Çünki İkinci Dünya Müharibəsindən sonra ABŞ faktiki olaraq Avropanın himayəçisi kimi çıxış edib. Eyni zamanda dünyada Qərbin liderliyini müdafiə edib. İndi isə dünyada müharibə və terrorun geniş yayıldığı, Rusiya ilə Avropa ölkələri arasında böhranın dərinləşdiyi bir vaxtda Trampın mövqeyi Avropa üçün ağır zərbə ola bilər. Bu həm də dünyada Qərbin siyasi rolunu zəiflədə bilər.

**Siyasi şərhçi Elxan Şahinoğlu**nun fikrincə, Britaniya ABŞ üçün mühüm əhəmiyyətli müttəfiqdir. ABŞ-ın yeni prezidentinin Ağ Evdə ilk olaraq Böyük Britaniyanın baş naziri Tereza Meyi qəbul etməsi də ekspertə görə, bunun işarəsidir: "Bunun obyektiv səbəbi var. Böyük Britaniya ABŞ-ın strateji müttəfiqidir. Böyük Britaniya Avropa İttifaqında olduğu illərdə belə Amerikanın maraqlarının qoruyucusu kimi çıxış edib. ABŞ-ın o zamankı prezidenti Corc Buş İraqa müdaxilə qərarı verdikdə onu Avropa ölkələrinin liderlərindən məhz Böyük Britaniyanın baş naziri Toni Bler dəstəklədi. Bundan əvvəl isə 1980-ci illərdə ABŞ prezidenti Ronald Reyqan ilə Böyük Britaniyanın baş naziri Marqaret Tetçer arasında sıx əlaqələr var idi".

**Barak Obama dövründə iki ölkə arasında strateji müttəfiqlik bir qədər arxa plana keçsə də, E.Şahinoğluna görə, Ağ Ev Trampın dönəmində iki ölkə münasibətlərinin yenidən yüksək səviyyəyə çatacaq. Baş nazirin dəvəti də buna işarədir, ancaq istənilən halda münasibətlər yüksək səviyyədə olmayacaq:** "Təsadüfi deyil ki, Barak Obama prezident olduğu gün Ağ Evdəki iş otağından Böyük Britaniyanın əfsanəvi baş naziri Uinston Çörçilin büstünü götürdü. Tramp isə əksinə Ağ Evə yerləşdiyi birinci gün həmin büstü yerinə qaytardı. Tramp bununla Londona işarə etdi ki, Böyük Britaniya ilə yenidən tamhəcmli strateji əlaqələr qurmaq istəyir. Buna baxmayaraq, Vaşinqtonla Londona arasında fikir ayrılıqları tam mənada ortadan qaldırmaq asan olmayacaq. Məsələn Trampın NATO-ya münasibəti tənqididir və ya Ağ Ev sahibi Rusiya ilə yaxınlaşmaq istəyir. London əksinə NATO-ni beynəlxalq təhlükəsizliyin vacib elementi sayır və Rusiyaya qarşı sanksiyaların yumşalmasını istəmir. Londonla Moskva arasındakı münasibətlər soyuqdur. Bunun iki səbəbi var. Birinci səbəb Londonda qətlə yetirilən Litvinenko olayıdır ki, Böyük Britaniya hökuməti Moskvadan şübhəlidir, ikinci səbəb Krımın işğalıdır. Ona görə də böyük ehtimalla Böyük Britaniyanın baş naziri Tereza Mey Trampa Rusiya ilə münasibətlərdə ehtiyatlı olmağa çağıracaq. Ancaq Donald Tramp o şəxslərdən deyil ki, kənar şəxsin fikrini qəbul etsin. Bəli, o Tereza Meyi diqqətlə dinləyəcək, Böyük Britaniya ilə müttəfiqliyi gücləndirmək istəyəcək, ancaq Ağ Ev sahibi öz bildiyini edəcək".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017

# "Mənim 10 Leylim olub"

## Mənsum İbrahimov: "Dedi ki, "bunun nəyi yaxşıdır, canına qəsd etdi, bədbəxt oldu"

**"Yeni Müsavat"ın qonağı xalq artisti, professor Mənsum İbrahimovdur. Onunla görüşüb, müsahibə almaq bizim üçün çox rahat oldu, bəlkə də bu, özünün dediyi kimi "rahat insan" olması ilə bağlıdır. Sosial şəbəkə üzərindən "qəzetimizə müsahibə verməyə razısızmı?" sualıma tez bir zamanda cavab yazıb razılaşmışdı. Beləliklə uzun illərin "Məcnu"nu, xalqın sevimlisi xanəndə Mənsum İbrahimovla işlədiyi Milli Konservatoriyada görüşüb, söhbətləşdik.**



***- Necəsiz? Konservatoriyada işləriniz necə gedir?***

- Yaxşıdır. Dərslər bitib, amma qış imtahan sessiyası gedir, tələbələrimiz artıq imtahan verir. Yəni, burda qızğın iş gedir. İşləyən üçün həmişə iş var.

***- Tələbələrinizdən razısızmı?***

- Mən tələbələrimin böyük əksəriyyətindən çox razıyam. Bizim məhsulumuz ifaçıdır, biz ifaçı yetişdiririk, nə yetişdirdiyimizi də insanlar görür. Şükür Allaha ki, mənim tələbələrimin bir çoxu artıq mənim iş yoldaşımdır, fəxri ad alanları var, Opera və Balet Teatrının, Dövlət Televiziyasının solistləridir və arxası da gəlir. Yəni, bu gün gəncliyimiz çox yaxşıdır, gözəl səslər var. Gördüyünüz Milli Konservatoriyanın bu yeni binasında hər cür şərait var. Mədəniyyətimiz, sənətimiz üçün yeni leylilər, məcnunlar, xanəndələr yetişdiririk.

***- Fəxri ad alan tələbələriniz kimlərdir?***

- Təyyar Bayramov əməkdar artistdir, bir neçə tələbəm var ki, onlar prezident təqaüdçüləridir, gənc leylilər, məcnunlar, Şah İsmayıllar, artıq teatrın solistləridir. Təsəvvür edin ki, mən sonuncu tamaşada bir anlıq dönüb ətrafıma baxıb gördüm ki, "İbn Sənan"ı da oxuyan, "Leyli"ni də oxuyan da mənim tələbəmdir. Təbii ki, bu, müəllim üçün qürurverici işdir ki, ətrafında yetişdirdiyin tələbələr oxuyur.

***- Başqa həmkarlarınızdan fərqli olaraq gənc yaşlarınızdan fəxri adlar almağa başlamısız, bildiyim qədər Xalq artisti adına 45 yaşınızda layiq görülmüsüz. Maraqlıdır, bəzi sənətkarlarımız şikayətlənir ki, nə qədər istedadlı olmaqlarına, dövlət tədbirlərində kifayət qədər iştirak etmələrinə baxmayaraq fəxri ada layiq görülmürlər. Fəxri ad almaq üçün sadaladıqlarımızdan başqa nə çatmır?***

- Bu, həmişə ağrılı problem olub, gündəmdə, mətbuatda da xeyli müzakirə olunub. Fəxri ad almaq yaşla əlaqədar ola da, olmaya da bilər. Əsas sənətkarın göstərdiyi fəaliyyətdən gedir söhbət. Fəxri adı niyə verirlər, əlbəttə ki, çəkilən zəhmətə, mədəniyyətdə göstərilən xidmətə görə. Bilirsiz ki, opera janrı musiqimizin ən ağır janrıdır. Və 32 ildir ki, tələbə vaxtımdan Opera və Balet Teatrının solistiyəm. Demək olar ki, aparıcı rolların hamısında mən oxuyuram. 136 dəfə "Məcnun"u oxumuşam, təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində, Parisdə, Qətərdə, İstanbulda, Ankarada, Tacikstanda. Bu, elə-belə say deyil. Təsəvvür edin ki, 3 saatlıq tamaşada mikrofonsuz obraz yaradırsan, oxuyursan və hər tamaşadan sonra 3 gün fiziki cəhətdən yorulur, özünə gələ bilmirsən. Ona görə də bu məsələ yaşla deyil. Ola bilsin ki, sənin 70 yaşın var, amma özün üçün oxumusan, toya getmisən.

***- Bəs siz toylara gedirsizmi?***

- Mən özümü toy müğənnisi hesab etmirəm. Təbii ki, pis baxmıram bu işə. Çox az hallarda yarım saatlıq proqramla gedirəm, hansı ki, orda bizim sənətimizə, mədəniyyətimizə hörmət var.



***- Əsasən hansı bölgə toylarında muğama tələbat var?***

- Bölgə söhbəti yoxdur. Şükürlər olsun ki, muğam müsabiqələrindən sonra bu gün bütün bölgələrdə muğama tələbat var. Əvvəllər müasir toylarda heç vaxt muğam ifası, xanəndə görə bilməzdiz, bəzən yaraşdırmırdılar özlərinə və saire. Amma bu gün demək olar ki, müasir Bakı toylarının 99 faizində yarım saatlıq bir muğam, xanəndə ifası var. Bu da çox gözəl bir haldır və təbliğatın nəticəsində belə oldu. Əslində muğam bizim öz musiqimizdir, onu kənardan gətirməmişik ki, dədə-babamızın musiqisidir. Sadəcə bir ara buna diqqət yox idi. Amma Heydər Əliyev Fondunun, dövlətin təbliğatı nəticəsində sanki xalqımız yenidən öz musiqisinə sahibləndi.

***- Bəs Opera və Balet teatrında vəziyyət necədir? Tamaşaçılar operaya baxmağa gəlirmi? Bəzən bildirirlər ki, bu cür tamaşalara daha çox elit təbəqənin nümayəndələri gedir.***

- Bir dövr, təxminən 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində maraq yox idi. Həmin dövr ümumiyyətlə çətin bir dönəm idi, müstəqil dövlətimiz yeni yaranırdı, maddi çətinliklər var idi. Ona gör də münasibət də yaxşı deyildi. Amma şükürlər olsun ki, 20 ildir ki, opera teatrında tamaşaçı problemi yoxdur. Ona görə ki, teatra çoxlu sayda gənc nəsil gəldi, maraq artdı, yeni səslər oldu. Və hər bir yeni səs özünə yeni tamaşaçı gətirdi. Hətta bəzən olur ki, "Leyli və Məcnun" tamaşası zamanı dostlarım zəng edib deyir ki, "bilet tapa bilmirik". Bu, məni çox sevindirir. Tamaşaya gələnlərin də çoxu gənclər və xaricilər, səfirliklərin nümayəndələridir. Onlar bizim mədəniyyətimizə maraq, diqqət göstərirlər.

***- Bu yaxınlarda çoxsaylı sənətkarlarımız teatrı tərk etdi. Bunu sizin dediyini o gənclərin gəlişi ilə əsaslandırmaq olarmı? Hətta tərk edənlər arasında sizin "Leyli"niz Nəzakət Teymuraova da var idi.***

- Xeyr. Çünki hər dövrdə leylilər, məcnunlar olub. Onların arasında orta yaşlı da, gənc ifaçılar da olub. Ona görə ki, bu zəncir qırılmamalıdır. Təsəvvür edin ki, gənc nəsil gəlmir, təkcə biz oxuyuruq. Bəs sonra? Bunun arxası olmalıdır... Nəzakət xanım 20 il fəaliyyət göstərdi. Və tamaşalarımın çoxunda Nəzakət xanımla birgə ifa etmişəm. O, öz adını qızıl hərflərlə "Leyli" obrazına yazdırmış gözəl ifaçılığa, mədəniyyətə malik sənətkardır. Onun pedaqoji fəaliyyətində sıxlıq olduğuna görə sənətkardır da, dedi ki, "20 il işləmişəm, bəsdir". Təbii ki, hər kəs də buna hörmətlə yanaşdı.

***- Bəs hazırda yeni "Leyli"niz kimdir?***

- Mənim səhnədə 10 "Leyli"m olub. Ötən il bir türk sənətçi oldu. Hazırda 5-6 "Leyli"miz var. Onlar arasında Gülyanaq və Gülyaz Məmmədovalar, Gülüstan Əliyeva, öz tələbəm Arzu Əliyeva var. Son iki tamaşanı Arzu Əliyeva ilə oxumuşam... Son dövrlər mən tamaşa az oxuyuram. Daha çox çalışıram ki, gənclər oxusunlar. Hər kəsin bir dövrü var. Amma həm tamaşaçı, həm də rəhbərlik istəyir ki, ifa edim, çünki tələbat var. Lakin yavaş-yavaş diqqəti gənclərə yönəldirəm, onlara dəstək oluram, yeni ənənə belə olmalıdır. Akif müəllimə də təklif edirəm, onlar da gənclərin arasından leylilər, məcnunlar seçirlər. Məqsədimiz də odur ki, savadlı, təhsilli, yaxşı ifaçılar olan yeni nəsil gəlsin.

***- Akif Məlikovdan söz düşmüşkən, bu yaxınlarda od püskürmüşdü ki, "60 yaşında "Məcnun" olmur" deyə.***

- (gülür)

***- Hazırda teatrda 60 yaşlı "Məcnun" varmı?***

- (gülümsəyərək) Yox.

***- Soso Pavliaşvili Bakıya gəlişinə etiraz edən sənətkarlardan biri də siz idiz. Sənətkarların bu cür məsələlərdə öz mövqelərini bildirməsi ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanır. Amma ermənipərəst müğənnin gəlişinə etirazlar səslənib, yazılar dərc olunsa da yenə də gəldi, konsertini keçirdi, qazancını alıb getdi. Bu sizə necə təsir etdi?***

- Mən hesab edirəm ki, o sə-

### "Mən səsimi çıxartmayım, o birisi çıxartmasın, bəs kim etsin?"

nətçi Azərbaycana gəlirsə mənim dövlətimə, ölkəmə, torpağıma hörmət etməlidir. Çünki biz bütün dövlətlərə, ölkələrə hörmətlə yanaşırıq, yalnız mənfur qonşularımızdan başqa. Çünki onlar buna layiq deyil. Axı bizim torpaqlarımız işğal olunub və biz haqlıyıq. Mənim torpağıma gedib konsert verirsən, buna görə bizdən icazə almalısan, əgər icazə yoxdursa getməməlisən. Buna baxmayaraq gəldisə də, hər halda bizim etirazımız lazım idi. Biri də var ki, heç kim səsini çıxartmasın. Niyə səsimizi çıxartmamalıyıq? Mən də bu torpaqda doğulmuşam, onun nümayəndəsiyəm, qarabağlıyam. Mən səsimi çıxartmayım, o birisi çıxartmasın, bəs kim etsin? Mən hesab edirəm ki, biz düz etdik.

***- Amma bəzi sənətkarlar bildirdilər ki, biz siyasətə qoşulmuruq və saire.***

- Yox, axı bu, siyasət deyil. Bu başqa bir şeydir. Biz siyasətçi olub nə demişik ki? Ən böyük siyasətimiz elə bizim sənətimizdir. Hər kəs öz sahəsində iş görməlidir. Mənim torpağım işğal olunub. Mən siyasətə qarışmayım, torpağım işğal olunsun? Elə birinci biz sənətkarlar səsimizi ucaldırıq. Mən muğam qrupumun adını "Qarabağ" qoymuşam. Bu, təkcə Azərbaycan üçün deyil, daha çox xarici ölkələr üçündür. Xaricdə konsert verəndə yazılır ki, "Azərbaycandan "Qarabağ" qrupu gəlir". Bu, musiqiçi siyasətidir və bütün konsertlərimizin sonunda "Qarabağ Şikəstəsi" oxuyuruq. Mən də öz işimdə bunu təbliğ edirəm ki, "ay dünya, bu torpaq mənim torpağımdır". "Vətəni sevirəm" deməklə vətən sevgisi olmur ki, bunu əməldə etmək lazımdır.

***- Uzun illərdir ki, "Leyli və Məcnun"u ifa edirsiz. Necə düşünürsüz, hazırda həyatda da leyli və məcnunlar varmı?***

- Əlbəttə var. Tarix boyu həyat məhəbbətin üzərində bərqərar olub. Məhəbbət bir qədər geniş məfhumdur. O məhəbbət Leyli və Məcnunun dövründə də olub, bu gün də var, sabah da olacaq. Bircə faktı deyim, 90-cı illər hadisəsində İlhamla Fərizənin müsibəti bəs nə idi? Ona başqa nə ad vermək olar? Hərdən yaxınlarımıza deyirik ki, "sənin uğrunda canımdan keçərəm", "qurban olum sənə" və saire. Amma hansısa an gələndə "bunu edə bilərəm?" deyə düşünürük. Çünki can şirin şeydir. Amma elə dəyərlər var ki, insan düşünmür. Vətən, valideyn, övlad... Fərizə canına niyə qəsd etdi, yaşaya bilərdi də. Bir dəfə bir tanınmışla bu barədə danışırdıq. Dedi ki, "bunun nəyi yaxşıdır, canına qəsd etdi, bədbəxt oldu". Baxdım gördüm ki, nə qədər dayaz fikirli adamdır. Ona sual verdim ki, "Bəs niyə Mübariz İbrahimov vətən uğrunda canını qurban verdi? Getməyəydi də, məgər onun canı şirin deyildi?" Millətin bu qəhrəmanları olmasa millət kimi formalaşmaz. Baxın, Mübariz İbrahimovdan sonra aprel döyüşlərində nə qədər gənclərimiz qəhrəman oldu.

***- Bəs dediyiniz böyük məhəbbətlə sevdiyiniz xanım olub?***

- Ailə qurduğum xanımla bir kənddə böyüyüb, bir məktəbdə oxumuşuq. O vaxt nə telefon, nə də mobil telefon var idi. Üstəlik Qarabağ bölgəsi idi, oranın öz adət-ənənələri var idi, görüşmək, danışmaq yox idi. Sadəcə aramızda bir münasibət yaranıb. Universitetdə oxuyana qədər "sevirəm" sözünü dilimizə də gətirməmişik. Amma nəticə o olub ki, bu gün artıq 30 ildir ki, ailəliyik, 4 övladımız var. Təbii ki, o "Məcnun" kimi səhraya düşməmişəm (gülümsəyir), amma həmişə demişəm ki, tanrının yaratdığı nə varsa hamısının məcnunuyam.

***- Görkəminiz yaşınıza uyğun gəlmir, yəni nisbətdə gəncsiz. Bunu nəyə borclusuz?***

- Vallah, xüsusi nə pəhrizim var, nə idmanla məşğulam. Sadəcə hərəkətdə çox oluram, işim çox olur. Bir də ki, bir şey var, insanın içərisində paxıllıq varsa bu onun üzünə də yansıyır. Həmişə deyirəm ki, paxıl insanlar xəstə insanlardır və özlərini incidirlər, başqa heç kimi yox. Şükür ki, məndə o hiss yoxdur. Mən niyə müəllim işləyə bilirəm, ona görə ki, başqalarının uğuruna sevinə bilirəm. Eyni zamanda rahat adamam, şükür etməyi xoşlayıram, hətta çətin günlərimdə belə. Bizim gənclik dövrümüzdə tanınmaq, seçilmək qat-qat çox çətin idi. Daşlı-kəsəkli yollarda yıxılmaq, sürünmək. İndi deyirlər ki, siz fəxri adları tez almısız. Bilirsiz mən o yollarda nə əziyyətlər çəkmişəm? 5-6 il teatrda "Zeyd"dən başqa oxumağa qoymayıblar.

***- Sonda xanəndəmizin arzularını eşitmək istərdik***

- Çox sevinirəm ki, bu gün ölkəmizdə stabillik, əmin-amanlıq var. Görürsüz də dünyada nələr baş verir. 90-cı illərdə camaat küçələrdə avtomatla gəzirdi. Bu gün isə ölkəmizdə hər kəs rahatdır, rahat yatır, övladlarından narahat deyil. Bunları Allah bizə çox görməsin. Və ən böyük arzumdur Qarabağ azad olunsun.

***- Bu məsələnin həlli ilə bağlı pozitiv düşünürsüzmü?***

- Bəli. Heç mən onunla barışa bilmərəm, başqa yolu da yoxdur. Mən o torpaqda doğulmuşam. Qarabağsız Azərbaycanın gələcəyini görə bilmirəm.

Sonda xalq artisti Mənsum İbrahimov bizim üçün canlı ifalar da etdi. Xüsusən də bir çox sənətkarların ifa edə bilmədiyi üçün uzaq qaçdığı "Raftam ke raftam" mahnısını xanəndənin ürəkləri riqqətə gətirən ifasında dinləmək bizim üçün başqa aləm oldu. Müsahibənin video variantını müsavat.com saytımızdan izləyə bilərsiz.

**❑ Xalidə GƏRAY**
**❑ Məğrur SALMANOV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT

N 19 (6633) 28 yanvar 2017

# Qarabağda birgəyaşayışın mümkünlük "test"i

## Azərbaycan rəhbərliyinin Qarabağa qayıdış qərarı və Bakı ermənilərinin İrəvandan imtina edib ölkəmizə gəlməsi Ermənistanı fakt qarşısında qoyub; mövcud durumu şərh edən ekspertlər mümkün gözləntilərdən də danışdılar...

**2016-cı ilin aprelində dördgünlük müharibə zamanı işğaldan azad olunan Cəbrayıl rayonunun Çaxırlı inzibati ərazi vahidliyində yerləşən Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı verilən qərar ölkə gündəminin əsas müzakirə mövzularındandır. Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncamından sonra Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşları ərazidə təmizlik, təhlükəsizlik və kəşfiyyat işlərinə başlayıb.**

Kəndin ərazisi mina və partlamamış silah sursatlardan təmizlənilir. Müşahidəçilər hesab edir ki, ölkə başçısının sərəncamı işğal olunmuş ərazilərimizin vazkeçilməzliyi ilə bağlı rəsmi Bakının prinsipial mövqeyinin sübutu olmaqla yanaşı, həm də təbliğat müharibəsində Ermənistana ciddi cavabdır. Qeyd edək ki, ötən il Serj Sərkisyan hakimiyyəti "aprel müharibəsində" işğaldan azad olunmuş ərazilərin "geri qaytarılması" ilə bağlı absurd bir tələb irəli sürəcək qədər həyasızlıq göstərirdi. İrəvan danışıqların bərpası üçün bunu şərt olaraq irəli sürsə də, rəsmi Bakının sərt mövqeyi qarşısında susmağa vadar oldu. Azərbaycan rəhbərliyinin məhz keçən il düşmən təhdidindən azad olunan ərazilərin bir hissəsinin bərpası haqda qərar verməsi Qarabağla bağlı dəyişilməzi mövqenin növbəti dəfə təsdiqi hesab edilir.

Diqqətçəkən odur ki, təbliğat müharibəsində Bakıya elə ermənilərin özləri də yardımçı olmaqda davam edir. Belə ki, Sərksiyan hakimiyyətinin yaramazlıqlarından, "Qarabağ kartı"ndan hakimiyyəti saxlamaq metodu kimi istifadə olunmasından bezikən ermənilər Azərbaycanda yaşamaq üçün davamlı müraciətlər edirlər. Ermənistan rəhbərliyi "Meridian" qeyri-hökumət təşkilatının sədri, jurnalist Suzanna Caqinyanın İrəvanı nümayişkəranə şəkildə tərk edərək Azərbaycana gəlməsi və burada işləməyə başlaması Sərkisyanın yalanlarından bezən digər erməniləri də analoji qərara həvəsləndirib. Elə bu günlərdə daha bir erməni qadın Bakıya gəldi və burada qalmaq istəyini bildirdi. Bu kimi faktlar isə Sərkisyanın "dünya yığılsa da, Qarabağ ermənilərini Azərbaycanla birgə yaşamağın mümkünlüyünə inandıra bilməz" iddiasının alt-üst olması deməkdir.

Paralel olaraq erməni və azərbaycanlılardan ibarət Sülh Platformasının üzvlərinin artması, buraya dünyanın müxtəlif ölkələrində yaşayan erməni fəalların qatılması və hətta təhdidlərə rəğmən Ermənistanın işğalçı siyasətinə qarşı çıxaraq Azərbaycanın mövqelərini müdafiə etmələri İrəvanın iddialarına tutarlı cavabdır. Beləliklə, Azərbaycan rəhbərliyi nəinki işğaldan azad olunmuş ərazilərə qayıdışı təmin edir, üstəlik, Sərksiyan rejimindən canını qurtarmağa çalışanlara da yaşayış imkanı yaratmağa hazır olduğunu bildirir ki, bu da həm Ermənistan, həm də Qarabağ ermənilərinə ciddi mesajdır.

**Politoloq Arzu Nağıyev** də "Yeni Müsavat"a bildirdi ki, Cocuq Mərcanlıya qayıdış ilk növbədə aprel qələbəsinin davamı kimi başa düşülməlidir: "Bu, bir başlanğıcdır və sona qədər davam etdiriləcək bir prosesdir. Məlumdur ki, aprel döyüşlərində 2 min hektardan artıq ərazimiz erməni işğalından azad edilib və artıq bu yerlərdə yaşayışın bərpası məsələsi həll edilməlidir. Çünki bu gün hər bir vətəndaşımızın əsas məqsədlərindən biri işğal edilmiş ərazilər azad edildikdən sonra soydaşlarımızın öz doğma torpaqlarına qaytarılmasını təmin etməkdir. Bildiyimiz kimi, bu gün Cocuq Mərcanlı kəndində tikinti işlərinə start verilib, 50 ev, eyni zamanda məktəb binası tikiləcək,Tərtər rayonunda da aprel döyüşlərində azad edilmiş ərazilərdə binalar inşa olunur, tikinti işləri aparılır. Təbii ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycan üçün prioritet olaraq qalır və ərazilərimizin işğaldan azad edilməsi üçün bütün mümkün imkanlardan istifadə etməyə, sonuncu terrorçunun da ərazilərimizdən çıxarılması üçün hərbi əməliyyatlar keçirməyə hazırıq".

**A.Nağıyevin fikrincə, bütün bu proseslər ermənilər üçün bir dərs olmalıdır:** "Onlar və havadarları başa düşürlər ki, ərazilərimizdə ikinci bir erməni dövləti yaranmayacaq, işğalçıların son nəfərinədək Azərbaycan ərazilərindən çıxarılmasına nail olunacaq və böyük qayıdış davam edəcək. Bu təbii ki, ermənilərdə qıcıq da yaradır, hətta qorxu hissini artırır desək, yanılmarıq. Onlar məğlub olduqlarını etiraf etməsələr də, artıq özləri haqqında yaratdıqları mifin sındığı ilə çoxdan razılaşıblar. Belə olmasaydı, Ermənistandan Azərbaycana son vaxtlar bu qədər erməni millətindən olan şəxslər gəlməzdi. Təzada baxın ki, biz öz torpaqlarımıza qayıtmaq arzusu ilə mübarizə aprırırq, ermənilər isə öz torpaqlarından aclıq və səfalətdən qaçırlar. Belə faktlar bu gün böyük əhəmiyyət kəsb edir və bir təbliğat kimi də istifadə edilməlidir".

Ermənistan ordusunda özbaşınalıqların sayının getdikcə artması, işğal altındakı ərazilərdə döyüş postlarına çıxmaqdan imtinaya görə əsgərlərin intihar etməsi, yaxud yüksək komandanlıq tərəfindən güllələnməsi də ondan xəbər verir ki, Azərbaycanın son zamanlar yürütdüyü siyasət öz bəhrəsini verməyə başlayıb. Artıq düşmən əsgəri özgə torpaqlarında ölməkdən açıq şəkildə imtina edir. Elə ermənilərin açıqladığı statistika da bunu deyir. Belə ki, 2016-cı ildə Ermənistan silahlı qüvvələrində qətllər, intiharlar və başqa hadisələr səbəbindən ölüm halları əvvəlki illərə nisbətən artıb (Virtualaz.org). "Mən həmişə hesab edirdim ki, sərhəddə vəziyyət nə qədər gərgindirsə, hərbi hissələrdə də bir o qədər diqqətli və səfərbər olurlar. Ancaq əksi oldu", - deyə "Yurnalistlər insan hüquqları naminə" ictimai təşkilatının sədri Janna Aleksanyan bildirib. Onun sözlərinə görə, Ermənistan Müdafiə Nazirliyi bütün xalqın əsgərlərin həyatı ilə yaşadığı keçənilki aprel eskalasiyası günlərində cəmiyyətin məlumatlandırılması işinin öhdəsindən də gələ bilməyib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə mövzunu şərh edərkən dedi ki, Azərbaycan Ermənistanla isti müharibə aparmaqla yanaşı, informasiya müharibəsi də aparır: "Bu baxımdan "Dağlıq Qarabağ Azərbaycan ərazisidir" deyən ermənilərin Bakıya gəlişlərinə, o cümlədən üzvlərinin sayı hər keçən gün artan Sülh Platformasının fəaliyyətinə müsbət baxıram. Belə baxanda biz Dağlıq Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşı kimi qəbul edirik. Onlara da ona görə muxtariyyət statusu verməyə hazırlaşırıq ki, vətəndaşımız olaraq Azərbaycanda həyatlarını davam etdirsinlər. İndi biz bunun əksinə siyasət aparsaq, "yox ermənilər gəlməsinlər və o birilər də getsinlər" və ya başqa şüarlar irəli sürsək, bu, informasiya müharibəsində İrəvanın xeyrinə işləyəcək. Onda deyəcəklər ki, "gördünüz, ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya bilməzlər". Biz bu tezisin doğru olmadığını sübut etmək üçün Azərbaycanın ərazi bütövlüyünü qəbul edən erməniləri öz tərəfimizə çəkməli və onlarla işləməliyik".

**Ekspert hesab edir ki, informasiya müharibəsində başqa bir amil də bizim xeyrimizə işləyir:** "Erməni saytlarından biri Ermənistanın demoqrafik vəziyyəti ilə bağlı maraqlı statistika açıqlanıb. 2016-cı ilin avqust və sentyabr ayında Ermənistandan Avropaya köçənlərin sayı 9 ilin ən yüksək göstəricisidir. Əgər 2008-ci ildə hər ay Ermənistandan Avropa ölkələrinə köçənlərin sayı 385 nəfər idisə, keçən ilin avqust ayında 1110, sentyabr ayında isə 1185 nəfər ölkəni tərk edib. Köçənlərin əksəriyyəti 18-34 yaşlarında olan gənclərdir". **E.Şahinoğlunun sözlərinə görə, ən maraqlısı odur ki, ötən il bir qrup silahlının İrəvan yaxınlığında polis məntəqəsini ələ keçirməsi hadisəsi köçün artmasına səbəb olub:** "Serj Sərkisyanın hakimiyyətdə olduğu 2008-2015-ci illər arasında Ermənistanı 300 minə yaxın insan tərk edib. Keçmiş prezident Robert Köçəryanın prezident olduğu 1998-2008-ci illərdə isə Ermənistanı 135 min insan tərk etmişdi. Bu rəqəmlər onu göstərir ki, Köçəryanla müqayidəsə Sərkisyanın hakimiyyəti dövründə Ermənistanı tərk edənlərin sayı iki dəfə artıb. Ermənistan vətəndaşlarını ölkələrini tərk etməyə iki başlıca səbəb vadar edir: birinci səbəb ağırlaşan iqtisadi və sosial durumdur. İnsanlar yaxın gələcəkdə vəziyyətin yaxşılığa doğru dəyişəcəyinə inanmırlar. Bunun üçün resurs yoxdur. Ermənilər inandıqları və etibar etdikləri hakimiyyətı formalaşdırsalar belə, həmin hakimiyyət əlindəki resursla vətəndaşlarının həyatını müsbətə doğru dəyişə bilməyəcək".

**Politoloqa görə, erməni köçünün ikinci səbəbi cəbhə bölgəsindəki ağır vəziyyətdir:** "Ermənistanla Azərbaycan arasında sülh olmadığına görə Dağlıq Qarabağ ətrafında vəziyyət gərgin olaraq qalacaq, Ermənistan ordusu hər gün itki verir. Müharibə və lokal toqquşmalar ehtimalı yüksəkdir. Ona görə də erməni gənclər Ermənistandan kənarda - Dağlıq Qarabağda ölmək perspektivindənsə ölkəni tərk etməyə üstünlük verirlər. Bu iki səbəb Azərbaycanı işğalçı Ermənistana qarşı təzyiqi artırmağa həvəsləndirir".

**E.Şahinoğlu əlavə etdi ki, belə bir vaxtda Azərbaycan prezidentinin Cocuq Mərcanlı kəndinin məskunlaşdırılması qərarını müsbət qiymətləndirir:** "Bu qərar həm də haqqında danışdığım informasiya müharibəsinin tərkib hissəsidir. Kənd sakinlərinin doğma yerlərinə qayıtmaq istəklərini bildirmələri vacibdir. Cocuq Mərcanlı kəndinin sakinləri qayıdış qərarlarıyla illərdir dillərdə dolaşan "şəhərlərdə məskunlaşan məcburi köçkünlər geri qayıtmayacaqlar" fikrinin doğru olmadığını sübut etdilər. İndi hakimiyyətdən iki məsələnin həlli tələb olunur. Prezidentin kəndin yenidən qurulması üçün ayırdığı 4 milyon manatdan faydalı şəkildə yararlanmaq lazımdır. Kənd lazımi infrasturkturla yenidən elə yüksək səviyyədə qurulmalıdır ki, erməni separatçılarının nəzarətindəki yerlərlə fərq açıq görünsün və Ermənistandakı, o cümlədən Dağlıq Qarabağ kəndlərində yaşayan ermənilərin beynində "bizim niyə belə şəratimiz yoxdur" sualı dolaşsın. Kəndlilərin əkin sahələrindən qazanc əldə etmələri üçün də bütün imkanlar səfərbər olunmalıdır. İkinci məsələ Cocuq Mərcanlı kəndinin təhlükəsizliyin gücləndirilməsidir. Doğrudur, Lələtəpə nəzarətimizdədir, ancaq qarşı tərəf başqa təxribata əl ata bilər. Ona görə də Cocuq Mərcanlıya hər hansı mərminin düşməsi halında qarşı tərəf bundan beş dəfə çox itki verməlidir ki, bir də kəndimizə qarşı təxribat etmək ağlına gəlməsin. Bir sözlə Cocuq Mərcanlı Dağlıq Qarabağa qayıdışımızın nümunəsi olmalıdır. Bu erməni separatçılarına ciddi mesajdır".



**Ermənistanın danışıqlardan birtərəfli qaydada imtinası şəraistində rəsmi Bakının atdığı addımlar Ermənistan hakimiyyətini fakt qarşısında qoyub. Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasında da Azərbaycanın ərazi bütövlüyü növbəti dəfə təsdiqləndi, Azərbaycanın Dağlıq Qarabağ ərazisinin separatçı qüvvələrin nəzarətində olduğu bildirildi. Eyni zamanda Azərbaycan nümayəndə heyəti işğalçı Ermənistanın Kəlbəcər girovlarını azad etməməsinə, həmçinin ötən il şəhid olan əsgərimizin nəşini qaytarmadığına görə düşməni ittiham edib, bu mövqeyə beynəlxalq dəstək alıb. Ümumilikdə il işğalçı ölkə üçün heç də yaxşı başlamayıb. Sonrakı gedişat Bakının atacağı növbəti addımlarla yanaşı, həmsədr dövlətlər və beynəlxalq qurumların işğalçı ölkəyə münasibətdə necə davranacağından asılıdır. Hər halda beynəlxalq aləm Azərbaycanın vətəndaşı olmuş ermənilərin Bakıda yaşamaq istəyinə uzun müddət fakt qarşısında qalan Ermənistan kimi susqun qala bilməyəcək və bir gün Qarabağda da birgəyaşayışın mümkünlüyünü etiraf edib işğala son verilməsinin zəruriliyini dilə gətirməyə vadar olacaqlar. Rəsmi Bakının həyata keçirdiyi birgəyaşayış "test"i sorğu-suala yer qoymur...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017



# Həcc varlıların ziyarətinə çevrilir - qiymət 8 min manata yaxınlaşır

## Bu il cəmi 600 azərbaycanlı müqəddəs məkana yollanacaq

**Azərbaycanda 2017-ci il Həcc ziyarəti qiymətləri açıqlanıb və ziyarət üçün sənəd qəbulu başlayıb. Məlum olub ki, bu il Həcc ziyarətində bir sıra yeniliklər var. QMİ-dən APA-ya verilən məlumata görə, bu il əvvəlki illərdən fərqli olaraq vahid ziyarət qiymətləri olacaq və zəvvarlar yalnız təyyarə ilə ziyarətə gedə biləcəklər.**

Bu il bir nəfərlik ziyarət paketinin qiyməti 3850 ABŞ dolları təşkil edir. Kvota da dəyişilib, məlum olub ki, bu Azərbaycandan Həcc ziyarəti üçün 600 nəfərlik kvota nəzərdə tutulur. Yeri gəlmişkən, ötən il bu rəqəm 1400 nəfər idi. Yəni bu il bir az da azalacaq.

Qeyd edək ki, Azərbaycanda bir qayda olaraq hər il Həcc ziyarəti ilə bağlı hansısa "yeniliyin" şahidi oluruq. Bu il də fərqlənməyib. Və göründüyü kimi, bu il qiymətlər və kvota dəyişib. Əvvəlcə ondan başlayaq ki, Azərbaycanda Həcc kvotası ilk dəfə 8 il əvvəl - 2009-cu ildə azaldılıb. Həmin vaxta qədər Azərbaycandan 6 min insan ziyarətə gedib. Ancaq 2009-cu ilin yayında gözlənilmədən kvota 6 min nəfərdən 2 minə endirildi. Bu qərarı Şeyxülislam elan etsə də, sonradan məlum oldu ki, hökumətin qərarı olub. Sonrakı illərdə bu rəqəm yenidən tədricən artdı və ildə 4 min nəfərə çatdı. Və yenidən gözlənilmədən 4 dəfə azaldıldı. Son olaraq ziyarətə 1400 nəfərin getdiyi bildirilirdi.

Bu il isə kvota 600 nəfərə, yəni 8 il əvvəlkindən nə az, nə çox - 10 dəfə azalıb. Bu bir tərəfdən, son illərdə ölkədəki iqtisadi vəziyyətlə əlaqədardırsa, digər tərəfdən də din sahəsində davam edən vəziyyətlə bağlıdır. Hər halda kvotanın ilk günlərdə endirilməsi rəsmi qərarla olub.

Amma Azərbaycan vətəndaşlarını ən çox narahat edən Həcc qiymətlərinin bahalaşması oldu. Yəni yerli manatla hesablandıqda bu il Həcc ziyarətinə getmək istəyənlər 3850 dolların indiki kursu ilə hesablasaq 7500 manat civarında pul ödəməli olacaqlar. Məsələ ondadır ki. dollarla hesabladıqda əslində Həcc ziyarəti qiymətlərində elə də ciddi dəyişiklik yoxdur. Hətta ilk devalvasiyadan əvvəlki qiymətlərə baxdıqda ucuzlaşma var. Çünki bir zamanlar azərbaycanlılar Həcc ziyarətinə 5 min manatdan çox pul ödəyirdilər. Ancaq indi kəskin devalvasiya olub və dolların bahalaşması nəticəsində qiymətlər iki dəfə bahalaşıb.

Yeri gəlmişkən, əvvəlki illərdə 3500-4500 dollar arasında dəyişirdi. Aradakı fərq isə otellərə görə idi. Ancaq bu ildən o fərq ləğv olunub və yalnız bir qiymətə ziyarət təşkil olunacaq. Qiymətlər isə manatla ödənməklə.

QMİ Həcc ziyarətində ildən ilə qiymətlərin bahalaşmasını adətən Səudiyyə Ərəbistanında qiymətlərin bahalaşması, otel kirayəsi qiymətinin artması ilə izah edir. Bu məsrəflər dollarla ödəndiyi üçün QMİ də bir qayda olaraq hesablaşmanı, qiymətləri dollarla hesablayır. QMİ-nin elan etdiyi məlumatlara əsasən, bu məbləğə zəvvarların nəqliyyat, mehmanxana, viza xərcləri, torpaqbasdı vergisi, çadırların icarə haqqı daxildir.

Bundan başqa, son illərdə Həcc ziyarəti zamanı bir sıra yeniliklər tətbiq olunmağa başlayıb. Bunlar, zəvvarların məcburi həyat sığortası, hotellərdə gündə isti yemək və qəlyanaltı daxil olmaqla 2 dəfə yemək, Mina və Ərəfatda isə qəlyanaltıların təklif olunması, habelə Müzdəlifə və Ərəfata zəvvarların dəmiryol qatarı ilə çatdırılması kimi xidmətlər daxildir.

Hər halda qiymətlər indi çox adamı məyus edir və ziyarət azərbaycanlılar üçün bahalı məsələyə çevrilir. Həm manatın dəyər itirməsi. Buna paralel, əhalinin gəlirlərinin azalması, iqtisadi vəziyyətin pisləşməsi fonunda azərbaycanlıların 8 min manata yaxın *(sentyabra qədər devalvasiyanın artımından asılı olacaq)* pul ödəməsi xeyli çətindir.

**Ancaq onu da nəzərə almaq lazımdır ki, hətta indiki dollarla olan qiymətlər belə digər ölkələrlə müqayisədə baha hesab olunur. Nisbətən daha ucuz qiymətə ziyarət də təşkil etmək mümkündür, amma görünür, həm idarədə bu məsələdə təşəbbüskarlığın olmaması və daha az gəlirlə bu işi görməyə həvəssiz olmaları səbəbindən bu işə qol qoyan yoxdur. Digər tərəfdən, Həcc ziyarətinin təşkilinin yalnız rəsmi qurumlara tapşırılması səbəbindən bu ziyarəti təşkil etmək imkanları faktiki olaraq yoxdur. Bu isə rəqabətin olmaması, daha az qazancla bu işi görmək istəyənlərə imkan tanınmamasına səbəb olur.**

❑ **KƏNAN**

# Dollar manatın "nəfəsini kəsir"- Elman Rüstəmov bankirləri topladı

## Ekspertlər manatın hansı həddə qoruna biləcəyinə aydınlıq gətirirlər, hökumət manatın tam "üzməsinə" çalışır...




**Milli valyutanın ucuzlaşması davam edir. Yanvarın 27-də keçirilən hərracda dolların məzənnəsi 1,9165 manat səviyyəsində formalaşıb. Həmçinin Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bank rəhbərlərini Mərkəzi Banka yığıb və görüş keçirilib. Elman Rüstəmov Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının rəhbərləri ilə görüş keçib. Bank sistemindən daxil olan məlumata görə, görüşdə bəzi məsələlər müzakirə edilib, eyni zamanda E.Rüstəmov tərəfindən bank rəhbərlərinə bir sıra göstərişlər verilib.**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov** görüş barədə modern.az-a açıqlama verib. O bildirib ki, bu, Elman Rüstəmovun kommersiya banklarının rəhbərləri ilə ilk görüşü deyil: "Bu görüşlər mütəmadi xarakter daşıyır. Son vaxtlar milli valyutanın "üzən məzənnə" siyasətinə tam keçilməsi üçün işlər aparılır. Prosesi yekunlaşdırmaq üçün müəyyən danışıqlar gedir, banklarda olan vəziyyət araşdırılır". **V.Əhmədov bildirib ki, bu cür görüşlər Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) tərəfindən də keçirilir:** "Hər iki qurum iqtisadi vəziyyəti stabilləşdirmək istəyir. Çünki bank sistemində, manat-dollar münasibətlərində problemlər qalmaqdadır".

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində Mərkəzi Bankın yenidən tam üzən məzənnəyə keçidlə bağlı verdiyi açıqlama gülüş doğurur: "Çünki neçənci dəfədir ki, bununla bağlı qərar verilib, yəni bu, birdəfəlik olmalı idi. Ya üzən məzənnəyə birdəfəlik keçid olur, ya olmur. Dəfələrlə bildirmişik ki, Azərbaycanda institusional olaraq tam "üzən məzənnə"yə keçid üçün imkanlar yoxdur. Tam "üzən məzənnə"nin əsas məsələ ondan ibarət olmalıdır ki, bazarda kifayət qədər oyunçu olsun. Valyuta alan və satan oyunçular olmalıdır. Azərbaycanda isə dollar satan bir oyunçu var. Neft Fondu Mərkəzi Bank vasitəsi ilə büdcə qarşısındakı öhdəliklərini yerinə yetirmək üçün valyuta hərracına vəsait çıxarır. Çıxarılan valyuta manata çevrilib büdcəyə transfert olunur. İkinci bir oyunçu yoxdur ki, bu "üzən məzənnə" rejiminə uyğun olaraq bir dəyişiklik olsun. Bundan başqa, alıcılar da məlumdur, alıcılar ölkədə fəaliyyət göstərən banklardır. Alıcı, satıcı məlumdursa, hər hərraca çıxarılan valyutanın həcmi məlumdursa, bu, "üzən məzənnə" demək deyil. "Üzən məzənnə" 24 saat onlayn olan məzənnə rejiminə deyilir. Rusiyada bu, fəaliyyət göstərir, Türkiyədə biz bunu görürük. Türk lirəsinin, rublun da məzənnəsinin hər saat dəyişdiyini, bahalaşdığını, yaxud ucuzlaşdığını görürük. "Üzən məzənnə" bu deməkdir. Rusiyada onlarla şirkət, şəxs hər gün valyuta bazarında əməliyyatlar həyata keçirir, dollar alıb-satır. Türkiyədə isə minlərlə bu cür şirkət və fiziki şəxslər var. Oyunçu sayının çox olması üzən məzənnə rejiminin təmin olunmasının əsas şərtidir. Azərbaycanda bu, yoxdur. Məzənnənin adını nə qoymaqdan asılı olmayaraq, Mərkəzi Bank tənzimləyici rolunu oynayır və inzibati şəkildə məzənnəni müəyyən edir. Sadəcə, toplantıdan çıxan nəticə ondan ibarətdir ki, Mərkəzi Bank bir həddə qədər manatın ucuzlaşmasını gözlədikdən sonra müəyyən qədər də məzənnəni stabil tutmağa çalışacaq. Ən azı, yaxın aylarda bir stabillik yaratmağa çalışacaq".

**Ekspertin sözlərinə görə, məzənnənin çox kəskin oynaması iqtisadiyyata çox böyük ziyan vurur:** "İş adamları önünü görə bilmir, mal gətirə bilmir. Manatla qiyməti formalaşdıra bilmirlər. Gətirdikləri malın manatla dəyərini müəyyən edib bazara buraxarkən, sonradan məzənnənin artmasından itirirlər. Yəni bu nöqteyi-nəzərdən ola bilər ki, görüş müəyyən həddən sonra stabilləşmənin yaranacağına bir işarədir. Mərkəzi Banka ayrılmış 7,5 milyard manat vəsaitin tamamının manatın məzənnəsinə xərclənəcəyi isə gözlənilmir. Çünki Mərkəzi Bankın ayrı öhdəlikləri və xərcləri də var. Bu, ölkə daxilindəki öhdəliklərdir. Həm ölkədən xaricdəki bəzi öhdəlikləri var ki, həmin vəsaitdən onun üçün də xərclənəcək. Hətta Əmanətlərin Sığortalanması Fonduna da dövlətin kredit tranşı verəcəyi gözlənilir. Bəzi dövlət şirkətlərinə Mərkəzi Bankın kredit xətlərinin açılması gözlənilir. Yəni bir çox sahələr üzrə xərclənəcək. Amma ayrılmış vəsaitin bir hissəsi də manatın məzənnəsinin stabilləşməsinə xərclənə bilər. Ona görə də ola bilər ki, yaxın gələcəkdə müəyyən həddən sonra manatı saxlamaq üçün vəsait xərcləyəcəklər. Bu hədd isə iki manat da ola bilər, bir qədər çox da ola bilər. İki manat psixoloji həddir. Ola bilər ki, bu həddə stabilləşmə yaşansın. Son hərracda dollar daha bir qəpik bahalaşdı. Ola bilər ki, müəyyən həddə, məsələn, iki manatlıq həddə çatdıqdan sonra həmin ehtiyatlardan istifadə edərək bir neçə aylıq məzənnəni sabitləşdirsinlər".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017

# Hökumət məcburi köçkünlərlə bağlı qərarını geri götürə bilərmi...

## Rəşad Həsənov: "“Məcburi köçkünlərin sayğacları sökməsini, bu qərara etiraz etməsini doğru saymıram"

**Hökumətin kommunal ödənişlərlə bağlı qərarı məcburi köçkünlərın narazılığına səbəb olub. Paytaxt Bakıda bir çox ünvanlarda məcburi köçkünlər etiraz aksiyaları keçirərək sayğacların quraşdırılmasına etiraz ediblər. Yanvarın 26-da Yasamal rayonunda, Şərifzadə küçəsi, Akademik Mirqasımov adına Respublika Kliniki Xəstəxanasıyla üzbəüz binada, eləcə də Rabitə və Nəqliyyat kollecinin beş mərtəbəli iki yataqxanasında məskunlaşan məcburi köçkünlər etiraz aksiyası keçirib. Onlar sayğaclaşmaya etiraz əlaməti olaraq yolu bağlamağa cəhd ediblər. Bildiriblər ki, kommunal qiymətlərin qaldırıldığı bir vaxtda onlar, işığın və qazın pulunu ödəyə bilməyəcəklər.**

Yataqxana sakinləri işsizlikdən dolanışıqlarının ağır olduğunu işıq pulunu ödəmək imkanında olmadıqlarını əsas gətirərək sayğac quraşdırılmasına etiraz ediblər. Sakinlər ilə “Azərişıq” nümayəndələri və onlarla birlikdə gələn şəxslər arasında narazılıq yaranıb.

Ötən 25 il ərzində hökumət bu sosial qrupla maksimum ehtiyatlı davranmağa, onları narazı salmamağa çalışıb. Xüsusən də siyasi proseslərdə müxalifətin aktiv olduğu dövrdə məcburi köçkünlərin müxalif düşərgəyə keçməməsi üçün yumşaq siyasət yürütməyə çalışıb. Lakin birdən-birə bu sosial təbəqə ilə bağlı verilən qərar onların narahatlığına səbəb olub. Bəs, görəsən hökumət qərarı geri götürə bilərmi?

“Yeni Müsavat”a açıqlamasında məsələyə münasibət bildirən **Ümid Partiyasının sədri İqbal Ağazadə** bunu hökumətdə olan maddi sıxıntı ilə əlaqələndirdi: “Hökumət etiraf etməsə də ciddi maliyyə sıxıntısı var. Qəbul olunan bu qərarların tək səbəbi odur. Başqa heç bir səbəb yoxdur. O qədər böyük bir maliyyə sıxıntısı var ki, hökumət bu yolla onun bir qismini qapatmağa çalışır. Bu məsələnin sosial gərginliyə səbəb olacağını indidən proqnozlaşdırmaq mümkün deyil. Ancaq hər halda onu demək olar ki, qaçqınların vəziyyəti dözülməzdir. Məcburi köçkünlərin yaşadıqları ərazilərin əksəriyyətinə qaz verilmir. Buna görə də mənzillərin qızdırılmasında elektrik enerjisindən istifadə edirlər. Hökumət o qərarı verərkən bunu da düşünməli idi”.

**İqtisadçı ekspert Rəşad Həsənov** isə “Yeni Müsavat”a açıqlamasında bu qərarın məcburi köçkünlərin xeyrinə olduğunu diqqətə çatdırdı: “Məcburi köçkünlərin sayğacları sökməsini, bu qərara etiraz etməsini doğru hesab etmirəm. Çünki hazırki mexanizm daha təkmil və mütərəqqi mexanizmdir. Əvvəlki variantda bəhs olunan sosial qrupun müdafiəsindən söhbət getsə də, eyni zamanda dövlət vəsaitinin təyinatında kənar istifadə olunması və mənimsənilməsi üçün də kifayət qədər imkanlar yaranırdı. O zaman aidiyyatı qurumlar da ya-



ranış vəziyyətdən öz mənafeləri üçün istifadə edir, yığım səviyyəsinin az olmasını bu kimi arqumentlərlə əsaslandırırdılar. Son nəticədə itirən azərbaycanlı vergi ödəyicisi idi. Bugünkü mexanizm sözügedən neqativ halların məhdudlaşdırılmasına imkan yaradır. İnsanlar bunu anlamalıdır ki, hazırda qəbul olunan qaydada kommunal xidmətlərin dəyərinin nağd şəkildə vətəndaşlara ödənilməsi son nəticədə onların xeyrinədir. Onlar bu kommunal xidmətlərdən səmərəli şəkildə istifadə edərək bəzi hallarda həmin vəsaitlərdən əlavə məqsədləri üçün də istifadə edə bilərlər. Bildiyiniz kimi, bu yaxınlarda Tarif Şurası elektrik enerjisinin bir ailə üçün orta sərfiyyatını təxminən 250 kv/s götürmüşdü. Amma nəzərə almaq lazımdır ki, qaçqın və məcburi köçkünlər üçün bir nəfərə bir aylıq norma 150 kv/s-dır. Azərbaycanda orta statistika ailənin 4 nəfərdən ibarət olduğunu nəzərə alsaq, belə bir ailəyə 600 kv/s elektrik enerjisi verilir. Bu qədər enerjini ailə qənaətli şəkildə istifadə edirsə, onun 400 kv/s-nı istifadə edib, 200-ü artıra bilər. Nəticədə 250 kv/s elektrik enerjisinin pulu vətəndaşın birbaşa cibində qalır və onu digər məqsədlərinə yönəldə bilir".

**Rəşad Həsənov bunun məcburi köçkünlərin istifadə etdikləri kommunal xidmətlərin keyfiyyətinə də təsir göstərəcəyini vurğuladı:** “Digər bir məqam odur ki, pulunu birbaşa ödədiyi üçün məcburi köçkün həmin kommunal xidmətin keyfiyyətini tələb edir. Bildiyimiz ki, məcburi köçkünlərin kütləvi şəkildə məskunlaşdığı ərazilərdə istifadə etdikləri kommunal xidmətlərin keyfiyyəti minimum həddə idi. Onlara çox keyfiyyətsiz və yarıtmaz kommunal xidmətlər təklif olunurdu. Bəzi hallarda onlara qaz verilmirdi. Hazırda isə kommunal xidmətlərin pulunu nağd şəkildə cibindən ödəyən məcburi köçkün həmin xidmətlərin keyfiyyətini də tələb edəcək. Onlar bunu başa düşməlidirlər. Ola bilər ki, bu hansısa kommersiya qurumlarının maraqlarına uyğun gəlmir və ya prosesi hansısa formada sabotaj etməyə cəhd göstərirlər. Ancaq bu doğru deyil. Hazırki mexanizm daha təkmildir və onların səlahiyyətlərini artırır.

Əvvəlki mexanizmdə “Qaçqınkom” vəsaiti aidiyyəti qurumlara ödəyirdi, bununla da məsələ bitmiş hesab olunurdu. Həmin xidmətləri təklif edən qurumlar isə qaçqınlarla elə rəftar edirdilər ki, sanki onların istifadə etdikləri xidmətin pulu ödənilməyib. Halbuki dövlətin pulu bu qurumlara bəlli deyil. Hazırda qəbul olunan qaydaları məcburi köçkünlərə izah olunmasına ehtiyac var".

❑ Nərgiz LİFTİYEVA

# Məcburi köçkün yataqxanalarında vəziyyət: nə “plitka” var, nə pəncərə...

## Onların məskunlaşdığı otaqların bəzilərinin heç nəfəsliyi belə yoxdur, bir qisim isə soyuqdan donmamaq üçün paltarla yatır



**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin toplantısında deputat Hadı Rəcəbli ölkə başçısının məcburi köçkünlərlə bağlı sərəncamından danışarkən ilginc bir iddia ilə çıxış edib. O deyib ki, məcburi köçkünlərin yaşadıqları evlərə gedəndə belə bir mənzərə ilə qarşılaşılaşıblar: “Onlar işıq spirallarından istifadə edirdilər. Sonra isə pəncərəni açıq qoyurdular”.**





Paytaxt Bakıda xeyli sayda məcburi köçkün sovet dövründən qalan yarımçıq tikililərdə, xəstəxana binalarında, universitet yataqxanalarında və sairə bu kimi yerlərdə məskunlaşıblar.

Onların vəziyyətini yaxından öyrənmək üçün bəzi yataqxanalara yollandıq. Müşahidə etdik ki, əksər yataqxanalarda məcburi köçkün ailələri cəmi bir otağa sığınıblar.

Öncə getdiyimiz ünvan Füzuli, Ağdam, Kəlbəcər, Zəngilan, Qubadlı, Laçın, Xocavənd və Cəbrayıl rayonlarından olan 131 ailədən - 481 nəfər məcburi köçkününün məskunlaşdığı “Azərsutikinti” trestin xəstəxanası oldu. Müşahidə etdik ki, məcburi köçkünlərin bir qismi bu tikilinin zirzəmisində məskunlaşıblar ki, orada da nəmişlikdən yaşamaq mümkün deyil. Zirzəmidə pəncərələrin sayı çox azdır. Buna görə də onların çoxunun pəncərəni açıb, təmiz hava almaq imkanları yoxdur. Məcburi köçkünlər məcburiyyətdən bir otaqda həm paltar yuyurlar, həm yemək yeyirlər, həm televizora baxırlar, həm də digər gündəlik işlərini görürlər. Bildirdilər ki, əksər otaqlarda cəmi bir "rozetka" var. Onu da çox istifadə etmək mümkün deyil. Çünki elektrik xətləri köhnə və yararsız vəziyyətdədir.

Məcburi köçkünlər bildirdilər ki, heç bir deputat və digər məmurlar onların halları ilə maraqlanmırlar. Ağdamdan olan məcburi köçkün Şəfiqə Həsənova bildirdi ki, yataqxanada çox çətin vəziyyətdə yaşayırlar: “Qış aylarında nəmişlik olur, yayda isə istidən içəri girmək mümkün deyil. Sonuncu mərtəbədə yaşayanlar yayda zülm çəkirlər, zirzəmidə yaşayanlar isə qışda. Yataqxananın kanalizasiya sistemi də bərbaddır. Demək olar ki, bütün xətlərdən içəri su damır. Yəni belə bir vəziyyətdə hansı pəncərədən, hansı istilikdən söhbət gedə bilər? Uşaqları gecələr paltarla yatırdırıq ki, soyuqlayıb xəstələnməsinlər. Ancaq bununla belə yenə də xəstələnirlər. İllərdir ki, bir qonaq qəbul edə bilmirik. Çünki heç oturmağa yer tapmırıq. Məcburi köçkünlərin bu halını görmürlərmi? Neçə ildir desələr də ki, sizə ev tikiləcək ancaq hələ də bir xəbər yoxdur. Kimsə öləndə zülm çəkirik. Çünki hüzrü yola verməyə şərait də yoxdur. Koridorlar da çox dardır. Burada yanğın baş verərsə, hamımız yanıb külə dönəcəyik. Çünki çıxmağa yer yoxdur”.

Məcburi köçkünlər bildirdilər ki, rayonlarda yaşayan qohumlarının vəziyyəti daha ağırdır. Məcburi köçkün Rəhman Zeynalov bildirdi ki, rayonlarda dövlət tərəfindən verilən evlərdə qohumları yaşayırlar: “Dövlət sağ olsun ki, onlara ev verib, heç olmasa yaşam şəraitləri normaldır. Ancaq orada da işsizlik olduğu üçün əksər camaat gözünü çörək puluna dikib. Hər halda bu dövlət bizimdir və bunu qorumalıyıq. Heç kim dövlətdən artıq nə isə istəmir. Ola bilər ki, çox az sayda məcburi köçkünün maddi durumu yaxşıdır və onlar qazı, işığı necə gəldi istifadə edirlər. Ancaq bunu toplu şəkildə hər kəsə aid etmək olmaz. Başa düşmək olmur ki, Hadı Rəcəbli harda belə hal görüb...”







“Qaçqın bazarı” kimi tanınan əraziyə yaxın yerləşən peşə məktəbində məskunlaşan məcburi köçkünlərin də vəziyyəti oxşardır. Onlar da pəncərələrini kip şəkildə bağlayıb, evdəki istiliyi saxlamağa çalışırlar. Ancaq binanın təmirsiz və şəraitsiz olması buna imkan vermir.

Nizami rayonu ərazisindəki yarımçıq tikilidə yaşayan məcburi köçkünlərin isə vəziyyəti daha acınacaqlıdır. Xatırladaq ki, ötən ilin noyabr ayında məcburi köçkünlərin məskunlaşdıqları yarımçıq tikilidə yanğın baş verməsi nəticəsində ikisi azyaşlı olmaqla bir ailənin 4 üzvü yanaraq külə dönmüşdü. Həmin yanğın baş verən zaman bildirilmişdi ki, otaqlar zirzəmidə və dar olduğu üçün ailənin üzvləri yanğından xilas ola bilməyiblər...

Müşahidə etdik ki, bu gün də həmin tikilidə 18 ailə yaşayır. Tikili yarımçıq olduğu üçün burada pəncərələr, qapılar da nazik taxtalardan, hətta kartondandır. Yarımçıq tikiliyə qaz verilmir, elektrik xətləri isə köhnə və yararsız şəraitdədir. Sakinlər bildirdilər ki, xətlərdə tez-tez qısaqapanma olduğu üçün elektrik qızdırıcıdan istifadə edə bilmirlər.

❑ Əli RAİS
❑ Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 19 (6633) 28 yanvar 2017

# Qar yağacaq, yollar buz bağlayacaq - DYP sürücülərə xəbərdarlıq etdi

**Bakı və Abşeron yarımadasında yanvarın 28-də arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir.**

Arabir güclənən şimal-qərb küləyi əsəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 0-2° şaxta, gündüz 1-3° isti, Bakıda gecə 0°-yə yaxın, gündüz 1-3° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət 80-90 % təşkil edəcək.

Tibbi-meteoroloji xəbərdarlığa əsasən, yanvarın 28-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyi və yağıntılı hava şəraiti fonunda soyuq temperatur diskomfortu əksər insanlar üçün çox əlverişsizdir.

Azərbaycanın rayonlarında hava şəraitinin arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var.

Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° şaxta olacağı gözlənilir.



Yolların buz bağlama ehtimalı var.

Yol polisi havaların kəskin dəyişməsi ilə əlaqədar yolların buz bağlayacağını nəzərə alaraq sürücülərə müraciət edib.

Baş Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, qarlı və şaxtalı havada sürücülərdən son dərəcə diqqətli olmaları tövsiyə olunub.

Yol polisi sürücülərə xüsusi qış təkərlərindən istifadə etməyi, nəqliyyat vasitələrini texniki baxışdan keçirməyi, qış üçün təkər və işıq faralarını uyğun hala gətirməyi, avtomobillərində zəncir, dartı kəndiri və s. lazımi avadanlıqların olmasını təmin etməyi, təqib məsafəsinə diqqət edərək məcbur qalmadıqca ötmə hərəkəti etməməyi, dumanlı hava şəraitində gündüz saatlarında yaxını göstərən faraları yandırmağı məsləhət görüb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# 2 kiloqrama yaxın civəni 100 min manata satarkən yaxalandı

**Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi Bakıda civə alveri ilə məşğul olan şəxslərə qarşı əməliyyat keçirib. DİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, nazirliyin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakinləri Elşən Quliyev və Xəqani Məmmədov 1 kiloqram 730 qram (ağ) və 10 ml (qırmızı) civəni 100 min manata satarkən tutulublar.**

# "Range Rover"lə sərxoş halda DYP-nin maşınını əzən kimdir?

**Bakı şəhəri Xəzər rayonunda Bakı şəhər Dövlət Yol Polisi İdarəsi yol-patrul xidmətinin avtomaşını qəzaya uğrayıb. Avtosfer.az salamnews-a istinadən xəbər verir ki, hadisə Mərdəkan qəsəbəsində yerləşən yanacaqdoldurma məntəqəsinin yaxınlığında baş verib.**

Belə ki, sürətlə hərəkət edən "Range Rover" markalı avtomobil arxadan yanacaq doldurmaq istəyən yol-patrul xidmətinin avtomobilinə çırpılıb. Hadisə vaxtı xəsarət alan olmasa da, avtomaşınlara ciddi ziyan dəyib. Həmçinin "Range Rover" markalı avtomaşının sürücüsünün orta dərəcəli sərxoş olduğu da məlum olub. Yol-nəqliyyat hadisəsi ilə bağlı araşdırmalara başlanılıb və avtomaşınlar cərimə meydançasına aparılıb. Faktı Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov təsdiqləyib.



Kapital Bank

| | |
|---|---|
| Valyuta: | AZN |
| Benefisiarın Bankı: | Kapital Bank ASC Binəqədi filialı |
| Filialın Kodu: | 200156 |
| VÖEN: | 9900003611 |
| SWIFT kod: | AIIBAZ2X |
| Müxbir hesab: | AZ37NABZ01350100000000001944 |
| Benefisiarın adı: | QIZQAYIT DAŞDİYEVA RAFİQ QIZI |
| Hesab № | AZ79AIIB41010019440135169115 |
| VÖEN: | |

Ünvan: Bakı şəhəri, Nəsimi rayonu Asif Məhərrəmov 174
Tel: (012) 562-82-01

# İki uşaq anasına dəstək olaq - Təcili ürək əməliyyatı olunmalıdır

**İki qız anası olan İsmayıllı sakini Daşdıyeva Qızqayıt Rafiq qızı ağır ürək xəstəliyindən əziyyət çəkir. Qaynarinfo.Az-a müraciət edən ailə bildirib ki, Qızqayıt xanım təcili əməliyyat olunmalıdır. Əməliyyat üçün 11 min manat vəsait tələb olunur. Lakin heç bir yerdən gəliri olmayan ailə bu məbləği əldə etməkdə çətinlik çəkir. Ailədə yalnız xəstə xanımın həyat yoldaşı fəhlə kimi çalışdığı üçün vəsaitin toplanması qeyri mümkündür. Ailə kömək üçün bir neçə quruma və təşkilata da müraciət edib.**



Kömək etmək istəyən şəxslər aşağıdakı bank hesabına öz yardımlarını edə bilərlər:

Hesab nömrəsi: AZ79AIIB41010019440135169115

# Azərbaycanda dəhşətli qəza: 11 nəfər yaralandı

**Cəlilabadda ağır yol qəzası baş verib. Avtosfer.az lent.az-a istinadən xəbər verir ki, hadisə yanvarın 26-da saat 7 radələrində Uzuntəpə kəndində olub. "Toyota" markalı pikapla "Ford Tranzit" markalı mikroavtobusun toqquşması nəticəsində xəsarət alaraq xəstəxanaya yerləşdirilən şəxslər (11 nəfər) aşağıdakılardır:**

1977-ci il təvəllüdlü Məmmədov Qurban Barış oğlu
1961-ci il təvəllüdlü Səmədov Əli Daxil oğlu
1994-cü il təvəllüdlü Tağızadə Rəmiş Bəkir oğlu
1988-ci il təvəllüdlü Salmanov Xasay Xansuvar oğlu
1972-ci il təvəllüdlü Poladov İsmayıl Qulu oğlu
1959-cu il təvəllüdlü Məmmədəliyev İbad İbad oğlu
1981-ci il təvəllüdlü Abdurrəhmanov Seyran Salman oğlu
1982-ci il təvəllüdlü Abbasov Rəşad Hüseyn oğlu
1986-cı il təvəllüdlü Talıbov Laçın Fərahim oğlu
1958-ci il təvəllüdlü Səbzəliyev Nazir Xanvəli oğlu
1982-ci il təvəllüdlü Səlimov Bəhruz Məhəmmədəli oğlu

Qəzaya düşən "Toyota Hilux" markalı pikap Azərbaycanda yol tikintisi ilə məşğul olan Türkiyənin "Kolin" şirkətinə məxsusdur və qəzada şirkətin 6 əməkdaşı yaralanıb. Onlar Hacıqabul, Kürdəmir, Bərdə və Saatlı rayon sakinidirlər. "Ford Tranzit" markalı mikroavtobus isə Cəlilabad rayon sakini, 59 yaşlı Nazir Səbzəliyevə məxsus olub.

# Bakıda sürücü piyadanı döyüb

**Bakıda sürücü xuliqanlıq zəminində paytaxt sakinini döyüb. "Report"un Daxili İşlər Nazirliyinin rəsmi saytına istinadən verdiyi məlumata görə, hadisə Nərimanov rayonunun Z.Bünyadov prospektində qeydə alınıb.**

Belə ki, "KİA" markalı avtomobilin sürücüsü xuliqanlıq zəminində paytaxt sakini Bayram Nəcəfovu döyüb.

Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Tural Adıgözəlov saxlanılıb.

Faktla bağlı araşdırmalar davam etdirilir.







# Sələmçi vətəndaşın iki mənzilini necə ələ keçirib...

## Faizlə borc götürdülər, iki mənzil əllərindən çıxdı; qalmaqallı məhkəmə işindən şikayət

**"60 min manat borcun müqabilində iki evi əlimdən aldı". Bu sözləri aldadıldığını iddia edən Elçin Sofiyev deyib. Redaksiyamıza şikayət edən vətəndaş bildirib ki, 2011-ci ildə qayınanası Sofiyeva Simuzər Aslan qızına məxsus olan Şəmsi Bədəlbəyli 106, mənzil 74 ünvanında yerləşən mənzili Rəşidov Rövşən Baba oğlundan faizlə götürdüyü 60 min manatın müqabilində onun adına keçirib. Müqavilə bağlanıb və şərt kəsilib ki, borc ödənildikdən sonra mənzil Simuzər Sofiyevanın adına geri qaytarılacaq.**

Elçin Sofiyev deyir ki, iş adamı olduğu üçün həmişə evi girov qoyub bankdan pul götürüb, vaxtında ödəməsini edib evi girovdan çıxarırmış. Növbəti dəfə banka gedəndə kredit götürmə işi alınmadığından bank vasitəsi ilə faizlə pul götürməsi üçün Rövşən Rəşidova yönləndirilib.

**Tərəflər razılaşıb və Elçin Sofiyev 60 min manat borc alaraq qayınanasına məxsus evi notariusda formal bir alqı-satqı ilə Rövşən Rəşidovun adına keçirdib:** "Sənəddə göstərilir ki, şəhərin mərkəzində yerləşən 110 kvadratmetrlik arxitektur binadakı ev 60 minə satılıb. O evin real qiyməti isə 300-350 min manat idi. Biz 2013-cü ilin noyabr ayına qədər Rövşən Rəşidova hər ay 3500 manat faiz ödədik. Gecikmə olduqda belə əlavə faiz ödəyirdik. Nəhayət, 2013-cü ilin noyabrında qayınanam evi satmaq qərarına gəldi, ev təcili satılmalı idi. O zaman mən Rövşənə dedim ki, sənə 60 min manatın müqabilində 90 min manat faiz vermişəm. Evi Simuzər Sofiyevanın adına keçirt. Rövşən isə razı olmadı, dedi ki, 60 min manatı tam şəkildə gətir, ondan sonra evi qaytarım. Bizim isə o vəsaiti ödəməyə imkanımız yox idi. Evimizdəki əşyalara qədər satmışıq, Rövşənin faizini vermişik. Məcbur qalıb hazırda yaşadığımız evi, Nərimanov 51/53, mənzil 22 -ni onun adına keçirib, qayınanamın evini girovdan azad etməyə qərar verdik. 2013-cü ilin noyabrında evimizi notarial qaydada alqı-satqı müqaviləsi ilə Rövşən Rəşidovun adına keçirdik. Heç bir pul əməliyyatı aparılmadı. Rövşən bizi inandırdı ki, 3 gün sonra qayınanamın evini öz adından çıxaracaq. Əsas gətirdi ki, eyni gündə iki əməliyyatın keçirilməsi diqqət çəkə bilər. Lakin həmin 3 gün uzanıb bir həftə oldu, həftə aya döndü, Rövşən evi qayınanamın adına keçirmədi. Bu günə qədər də hər iki mənzil Rövşənin adındadır".

**Şikayətçinin sözlərinə görə, daha sonra o, Rövşən Rəşidovu çağırıb söhbət edib ki, artıq faizi verə bilmirik:** "Dedik faizi dayandır, bizə aid olan mənzili sataq, sənin 60 min manatını qaytaraq, özümüzə başqa bir ev alaq. Həmin dövrdə bizim mənzilin real qiyməti 200-220 min manat idi. Artıq 2014-cü ilin aprel-may ayları idi. Biz alqı-satqı işi ilə məşğul ikən bizim başımızın qarışmasından istifadə edən Rövşən Rəşidov xəbərsiz şəkildə işi məhkəməyə verib. Mayın 29-da Yasamal Rayon Məhkəməsindən bizə çağırış gəldi. İddia da belə idi ki, guya o bizdən mənzili alıb, lakin biz mənzili boşaltmırıq. Ona zəng vurduq ki, bu nə məsələdir? Rövşən isə bizi əmin etdi ki, narahat olmayın, bu formal xarakterli bir məhkəmədir, sizi heç vaxt evinizdən çıxartmaram. Biz növbəti dəfə ona inandıq. Heç bir iştirakımız olmadan həmin məhkəmələrdə uduzduq. Sonradan biz özümüzü sığortalamaq üçün alqı-satqı müqaviləsinin ləğvi ilə bağlı məhkəməyə müraciət etdik. Məhkəmə uzandı. İş Ali Məhkəməyə gedən mərhələdə yenidən Rövşən Rəşidovla danışıq apardıq. O mənə dedi ki, 20 min manat gətir , bu söhbəti bağlayaq. Evlərin ikisini də sənin adına keçirim. 2014-cü ilin dekabrında 18 min manat düzəldib Rövşənə verdik ki, səhəri gün notariusa gedib evləri adımıza keçirək. Pulu alandan sonra Rövşən yenə itdi. Sonra bizi tanış edən adamın vasitəsilə Rövşən Rəşidovu tapdıq. O dedi ki, bizdən istədiyi 20 min manatın müqabilində ona 18 min manat ödədiyimiz üçün mənzilləri qaytarmaqdan imtina edir. Bu ərəfədə məhkəməni də uddu, Ali Məhkəmə mənzilin boşaldılması ilə bağlı qərar verdi".

**Elçin Sofiyev deyir ki, Apelyasiya Məhkəməsinə müraciət etsələr də qərarı dəyişdirməyə nail ola bilməyiblər**: "Hazırda bununla bağlı icra işinin dayandırılması üçün yuxarı instansiya məhkəməsində şikayətimiz araşdırılır. Ancaq yanvarın 24-də icra məmurları gəldi. Heç bir xəbərdarlıq etmədən gəlib söhbət etmək adı ilə bir dəstə adamla içəri girdilər. Biz icranı çətinliklə saxladıq. Bizə köçməyimiz üçün 2 gün vaxt verdilər. Həmin iki gün isə artıq bitib. Ədliyyə Nazirliyinin qaynar xəttinə də müraciət etdik. Oradan da bildirdilər ki, iş məhkəmədə ola-ola icra hərəkətinin olması mümkün deyil".

**Həmsöhbətim bildirdi ki, məsələ ilə bağlı Respublika Prokurorluğuna etdikləri müraciət də bir fayda verməyib:** "Notariuslarda araşdırma apardıq. Bəlli oldu ki, Rövşən Rəşidovun adına 2011-ci ildən bu günə kimi bizim kimi 17 alqı-satqı müqaviləsi aparılıb. Hamısı da eyni fırıldaqçılıqla aparılıb. Dövlətdən xahiş edirik, bizi üzləşdiyimiz dələduzluqdan xilas etsinlər".

**Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# Həkim və müştəri arasında pul qalmaqalı



## Şikayətçi aldadıldığını, stomatoloq isə "Məni şərləmək istəyir" deyir...

**Dişlərini düzəltdirmək üçün özəl klinikalardan birində stomatoloqa müraciət edən Sevda Balayeva adlı vətəndaş sonradan ağır fəsadlara yaşadığını və müraciət etdiyi həkimin bu məsələdə məsuliyyət daşımadığını əsas gətirərək redaksiyamıza şikayət edib.**

Onun sözlərinə görə, bir neçə ildir kosmetoloji şöbəsindən istifadə etdiyi, Bakı şəhəri, Fuad İbrahimbəyov - 458, 5-ci paralel küçəsində yerləşən, "MED Holding" adlanan klinikanın stomatoloji şöbəsində yeni, müasir aparatların olduğunu biləndə eşidib və oraya müraciət edib. 2016-cı ilin sentyabrında stomatoloq Cavid Qurbanov Sevda Balayevaya implant dişlər qoyub və bunun müqabilində pasient klinikaya 2330 manat ödəyib.

**Şikayətçi deyir:** "Həkim qapaqları salanda balaca bir şok yaşadım. Həkim əvvəlki pasientdən sonra əllərini yumadı, işini tibbi əlcəksiz gördü. Xoşagəlməz hisslər keçirsəm də ona irad tutmağa daxili etikam yol vermədi. Amma alt və üst dişlərdəki kontaktın yaxşı olmadığını həkimin nəzərinə çatdırdım. "1-2 həftəyə düzələcək" deyib məni yola saldı. Üstündən bir müddət keçəndən sonra diş ətrafları, toxumalar şişməyə, irinləməyə başladı. Nə qədər qarqara etsəm də nəticə olmadı. Bakıda olmadığım üçün xaricdəki klinikaların birinə müraciət etdim. Mənə infeksiya fəsadı olduğunu bildirdilər. Müvəqqəti müalicə kimi antibiotik kursu təyin edib, problemli zonanı yuyub, dezinfeksiya etdilər. Mən bu haqda Cavid Qurbanova yazsam da bir həftə ərzində heç bir cavab ala bilmədim".



**Şikayətçinin dediyinə görə, məlum prosedurdan sonra problem bir qədər səngisə də, bir müddət sonra problemli zona yenidən qanamağa və diskamfort yaratmağa başlayıb**: "Yenidən stomatoloq Cavid Qurbanova müraciət etdim, cavab almadığımı görüb, yenidən həkimə getdim, həmin qaydayla yenə də antibiotik, dezinfeksiya, rentgen, gigiyenik təmizləmə aparsalar da, problemli diş zonasını yaxşı təmizləyə və birbaşa müdaxilə edə bilmədilər. Yenə də mənə bu işi görən həkimlə əlaqə saxlamağı tövsiyə etdilər. Cavid Qurbanova nə qədər yazsam da, zəng etsəm də cavab gəlmədi. Məni bu vəziyyətə salan stomatoloqa məktub yazıb bu məsələni ictimailəşdirəcəyimi və müvafiq instansiyalara müraciət edəcəyimi dedim. O dərhal mənə zəng edib klinikaya gəlməyimi xahiş etdi. Lakin mesajdan sonra Cavid Qurbanov yenidən həftələrlə əlaqəni kəsdi. Bu müddət ərzində dişimdəki problemli zona yenə də şişməyə başladı. Məcbur olub qapaqları təcili sökdürüb ağrısı çənə sümüklərinə, qulaqlarıma qədər yayılmış diş və damağımın müalicəsinə başladım. Azad İstehlakçılar Birliyinin hüquqşünası Cavid Qurbanovla görüşdükdən sonra, nəhayət, yanvarın 24-də o mənə zəng etdi. Danışıqdan sonra Cavid Qurbanov yenidən ona 2-3 gün vaxt verməyimi və bu vaxt ərzində mənim pulumu qaytara biləcəyini dedi. Başa düşdüm ki, bu zəng də digərləri kimi yalandır". Balayeva deyir ki, klinikaya ödədiyi məbləğin müqabilində ona heç bir rəsmi maliyyə sənədi verilməyib və ödədiyi vəsaiti geri ala bilməyib.

Məsələdə adı hallanan **stomatoloq Cavid Qurbanov** qəzetimizə bildirdi ki, Sevda Balayevanın iddiaları doğru deyil: "Onun implant dişləri 7 il əvvəl hansısa başqa bir klinikada düzəltdirilib. Biz sadəcə, onun qapaqlarını düzəltmişik. İndi də deyir ki, həmin qapaqlar onun damağını incidib, əti qızarıb. Mən 3 gün öncə də onunla danışdım. Bildirdim ki, gəlsin qapaqları dəyişim, yenidən düzəldim. Ancaq o, Londonda yaşayır. Dedi ki, gələ bilməyəcək. Mən də təklif etdim ki, həmin qapaqları Londonda dəyişdirsin, nə qədər vəsait lazım olsa mən ödəməyə hazıram. Hətta Sevda Balayevanın bank hesabının nömrəsini də istədim. Həmçinin təklif etmişəm ki, Bakıya gəlməsi üçün lazım olan biletin pulunu ödəyim, gəlsin və qapağı özüm düzəldim. Digər iddiaları isə yalandır. Bizdə bütün şəkillər, rentgen kağızları var".

**Cavib Qurbanov Sevda Balayevanın bu yolla onu şantaj etməyə çalışdığını da iddia etdi:** "Mənə dedi ki, hazırda işsizəm və mənə pul lazımdır. Buna görə də səni şərləyəcəyəm. Mən isə dedim ki, məndə sənin bütün rentgen göstəriciləri, dişlərinin şəkilləri var. Ona görə də yanlış heç bir iddiasını sübut edə bilməz".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 19 (6633) 28 yanvar 2017

# Villanı qəsb etdilər, evsizlər sığınacağına çevirdilər



Londonda bir qrup aktiv şəxs rusiyalı milyarder Andrey Qonçarenkoya məxsus villanı ələ keçirərək, orda yaşamağa başlayıblar. Lenta.ru saytının xəbərinə görə, 2014-cü ildə sahibi tərəfindən 15 milyon funta alınan villada ilk gündən heç kim yaşamayıb. Aktivistlər son 3 gündə villada olublar. Onlar bu villanı evsizlər üçün sığınacaq evi elan ediblər. 26 yanvarda isə villanın qapısına onun boşaldılması ilə bağlı məhkəmə qərarı qoyulub. Daha sonra evdə qalanlardan biri o sənədi götürüb və çıxıb. Şahidlər deyirlər ki, fəalların bir qismi də evi tərk ediblər.



## Evlilik onu kökəldir deyə boşandı

İngiltərədə yaşayan 31 yaşlı Terin Rayt adlı qadın çox maraqlı bir səbəbə görə boşanıb. "Evlilik məni kökəldir" deyən gənc qadın məhkəməyə müraciətində də bunu əsas gətirib və rahatca boşanıb. O, boşanandan sonra düz 45 kilo verib. Dediyinə görə, evliliyi yolunda getmədiyi üçün 38 bədəndən 46 bədənə qədər kökəlibmiş. Rayt boşanan kimi dietaya və idmana başlayıb. Hazırda isə bədən ölçüsü 32-dir. O, bildirib ki, evlənənə qədər çəkisindən razı olub. Amma evlənəndən sonra bütün həyatı dəyişib: "Yaşadığım stres çəkimə də təsir etdi. Ərim evdə olmayanda hər zaman pizza və şokalad yeyirdim. Çünki çox darıxırdım".

Gənc qadının sözlərinə görə, subay olmağın verdiyi azadlıq hissi onu çəkisini azaltmaq üçün motivasiya edir. Rayt söyləyib ki, bir daha evlənmək istəmir.



## 11 əməliyyatdan sonra 362 kilo arıqlayıb

ABŞ-ın Texas ştatında yaşayan yarım tonluq Mayra Rozales keçirdiyi 11 əməliyyatdan sonra tam 362 kilo verib. 34 yaşlı Rozales bədən ağırlığının 80 faizinə yaxınını itirərək yenidən həyata bağlanıb. Dörd ildir ki, artıq çəkidən qurtulmaq üçün güclərini səfərbər edən qadın hazırda 80 kilodur. Rozales bir uğur hekayəsinə imza atıb və yüzlərlə televiziya proqramına qatılıb. Onlardan biri də həkim Mehmet Öz olub. Hazırda arıqlamaq üçün sosial şəbəkə vasitəsilə ona müraciət edən, kömək istəyən minlərlə izləyicisi var.

# Atasız böyüyən uşaqlar aqressiv olur

Kanadanın Mc Gil Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, atasız böyüyən uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan dava aqressiv olurlar. Mütəxəssislər atası olmayan uşaqlarla, ata-anaları ilə birlikdə böyüyən uşaqların beyinlərini müqayisə ediblər. Araşdırmalar bitdikdən sonra məlum olub ki, atasız uşaqların beyinlərində sosial əlaqələri tənzimləyən hissədə pozuqluqlar əmələ gəlir. Yəni valideynlərindən uzaqda qalan uşaqlar davranışlarında anormallıq daha tez nəzərə çarpır. Belə uşaqlar valideynləri ilə birlikdə böyüyən uşaqlardan daha aqressiv olurlar. Mütəxəssislər atasız böyüyən qız uşaqlarının sinir sisteminin daha həssas olduğunu da bildiriblər. Belə uşaqlar böyüdükləri zaman çox aqressiv olurlar və ətrafdakılara zərər verməyə çalışırlar. Xüsusi ilə qız uşaqları spirtli içkilərə və narkotik maddələrə daha meylli olurlar.

Məlumat üçün bildirək ki, mütəxəssislər anasız böyüyən uşaqların heç vaxt özlərinə güvənmədiklərini və kökəlməyə meylli olduqlarını deyirlər.





## Müsəlman qadınlar üçün idman zalı

Uelsin paytaxtı Kardiffdə dünyada ilk dəfə olaraq müsəlman qadınlar üçün idman zalı açılacaq. Müsəlmanlarla yanaşı, zala başqa dindən olan qadınlar da gələ biləcək. Amma kişilərin içəri girişi qadağandır.Lenta.ru saytının xəbərinə görə, Haya Fitness adlı məkanın təşkilatçıları bildiriblər ki, bura gender məhdudiyyəti tətbiq edilməsi müsəlman qadınlar üçün komfortlu olacaq. Bunun sayəsində onlar zalda adi geyimdə, başıaçıq şəkildə idman edə biləcəklər. Zalın açılışı 2016-cı ilin yayında olacaq.

2016-cı ilin yanvarında məlum olmuşdu ki, Böyük Britaniya ölkədə yaşayan müsəlman qadınların ingilis dili tədrisi üçün 26.1 milyon avro xərcləməyi planlaşdırır. Ölkənin baş naziri Devid Kamerin demişdi ki, bu, onların Britaniya cəmiyyətinə inteqrasiyası və ekstremizmlə mübarizəsinə xidmət edəcək.




QOÇ - İstər qarşılıqlı münasibətlərdə, istərsə də iş prinsipində nailiyyətləriniz arta bilər. Amma axşama doğru bəzi bədxahlar əsəblərinizi tarıma çəkə bilər. Odur ki, sərt reaksiya verməməlisiniz.

BUĞA - Saat 11-15 aralığında yeni simalarla görüşləriniz, uğurlu sövdələşmələriniz gözlənilir. Nəticənin hədsiz dərəcədə uğurlu olmasını nəzərə alıb proqnozumuzun reallaşmasına çalışın. Hər mənada aktiv olun.

ƏKİZLƏR - Günün birinci yarısını müəyyən qədər gərginlik içərisində başa vura bilərsiniz. Xüsusən də fəaliyyət zəminində bəzi xoşagəlməzliklər mümkündür. Amma hər halda tədbirli olmalısınız.

XƏRÇƏNG - Qarşıda duran bir ayın perspektivlərindən yararlanmaq üçün konkret addımlar atmağa başlayın. Xırda məişət problemlərinə, eyni zamanda dedi-qoduya əbəs yerə vaxt itirməyin. Təklifləri qəbul edin.

ŞİR - Ciddi məsələlərin həllində gözləmə mövqeyi tutmayın. Nəzərə alın ki, vaxt dardır və şansları qaçırmaq sizə uzun müddət sıxıntı verə bilər. Gümanınız gələn hər kəsə üz tutun.

QIZ - Yaxşı olar ki, vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırasınız. Çünki sonrakı saatlarda passivlik mümkündür. Yeni işgüzar sövdələşmələrdə iştirakınız səmərə verə bilər.

TƏRƏZİ - Yersiz risklərdən uzaq olun. Əgər iştirakçısı olduğunuz situasiyaları dərindən duymursunuzsa, inandığınız adamların məsləhətlərindən yararlanın. Vaxtınızı əyləncələrə itirməyin.

ƏQRƏB - Maliyyə problemlərinizin mövcudluğuna baxmayaraq, bu gündən razı qalacaqsınız. Çalışın ki, görəcəyiniz işləri sistem halına salasınız. Qətiyyən tələskənliyə yol verməyin!

OXATAN - Bir neçə günlük süstlükdən sonra işləriniz artacaq. Xüsusən də nahardan sonra bərk yorulacağınız gözlənilsə də, zəhmətinizin bəhrəsini mütləq görəcəksiniz. Ailə üzvlərinizə hörmət edin.

OĞLAQ - Qərarlarınızda obyektiv olduğunuz təqdirdə mübarizədən çəkinməyin. Amma elə edin ki, ətrafınızda olanlar doğru yol tutduğunuzu qəbul etsin. Pulla bağlı sıxıntılarınız azala bilər.

SUTÖKƏN - İxtiyarınızda olan bu tarixdə tamamilə məxfi davranış nümayiş etdirməlisiniz. Belə ki, nəzərdə tutduğunuz planları, məqsəd və arzuları mümkün qədər ətrafınızda olanlara deməməlisiniz.

BALIQLAR - Yaxşı olar ki, bu təqvimi bütünlüklə qarşılıqlı münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki ulduzlar maliyyə və fəaliyyət sahəsində müəyyən gərginlik və edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yaponlar 60 santimetrlik Tramp oyuncağı hazırladılar




Yaponiyanın Kyugetsu firması ənənəvi xina-nenqe gəlinciklərinin hazırlanması ilə məşğuldur. Onlar son zamanlar ABŞ prezidenti Donald Tramp formasında bir oyuncaq hazırlayıblar. Oyuncaq Trampın boyu 60 santimetrdir və qara-qızılı rəngdə, qolu qısa kofta geyinib. Bundan başqa, kampaniya oyuncağı Tokionun meri Yuiko Koikeyə də nümayiş etdiriblər. Daha öncə də Kyugetsu firması amerikan siyasətinə yeni nəfəs qatmışdı. Təxminən bir il öncə də Hillari Klintonun gəlinciyini yaratmışdılar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100